بسم الله الرحمن الرحيم

١٤١١

# MƏAD

## (ÖLÜMDƏN SONRAKI HƏYAT)

MÜƏLLİF: AYƏTULLAH ŞƏHİD
SEYYİD ƏBDÜLHÜSEYN DƏSTĞEYB

نام کتاب:..........................................................معاد
مولف:............................ آیت الله سید عبدالحسین دستغب
ناشر:..........................................................طهارت
تاریخ چاپ:.........................................................1385
نوبت چاپ:.........................................................اول
تیراژ:.........................................................2000

Kitabın adı:...............................................Məad
Müəllif:.......Şəhid Əbdülhüseyn Dəstğeyb
Nəşr edən:.............................................Təharət
Çap tarixi:...................................................2006
Çap növbəsi:.........................................Birinci
Tiraj:.............................................................2000
964-95613-6-6

## MÜQƏDDİMƏ

*Ölüm haqqında çox danışılıb. Amma mehrab (mehrab-məsciddə namaz zamanı İmamın durduğu yer-red.) şəhidi, ilahi insan Ayətullah (Ayətullah-böyük din alimlərinə verilən ad-red.) Dəstğeybin 25 il əvvəlki söhbətləri qədər ürəyəyatımlısını xatırlamıram. Mərhum alimin Quran ayələrindən, hədislərindən, dini kitablardan o qədər əhatəli mə"lumatı var idi ki, tam bir mübarək Ramazan ayını axirət səfəri haqqında söhbət etdi, ölümü həyatın böyük qapısı, Haqqın rəhmətliyə görüşün başlanğıcı kimi tanıtdırdı. Xalqı bərzəx (bərzəx–dünyasını dəyişənlərin böyük Qiyamət gününədək müvəqqəti məkanları-red.) və onun nemətlərindən şövqə gətirdi, əzabından qorxutdu. Ayə və hədislər oxumaqla dinləyiciləri günahdan çəkindirib, xeyir işlərə sövq etdi.*

*Ruhun şad olsun, ey əxlaq ustadı!*

*Rəhbərin buyurduğu kimi, bir millət mürşidi idin ki, ömrün boyu xalqı bu sayaq həqiqətə doğru çağırıb, zəlalətdən uzaqlaşdırdın! Şəhadətinlə daha artıq rövnəq verdin. O əziz rəfiq (rəhbər) belə yazmışdı: "Ayətullah Dəstğeybin qanı onun bəyanından inqilab üçün daha uca, düşmən üçün daha acı oldu."*

*Dəfələrlə deyirdi, fəryad çəkirdi, yazırdı ki, ölüm yox olmaq deyil, əbədiliyin başlanğıcıdır.*

*Şəhid ailələrinə təkrar-təkrar müjdə verirdi ki, Qurani-Kərim sizin əzizlərinizi diri adlandırmışdır ("Bəqərə" 154, "Ali-İmran" 169). həqiqi həyat və kamil idrak onlara məxsus olduğundan, biz onlara nisbətən ölüyük.*

*Ruhun şad olsun ki, öz şəhadətinlə bu mənanı daha da işıqlandırdın! İki aydan artıq deyil ki, aramızdan gedib. Ondan o qədər kəramətlər görünüb və eşidilib ki, gedişi ilə hamını narahat edib. Təəssüf edirlər ki, axı niyə onu olduğu kimi tanımadıq, feyz dolu bağından şaxələr qoparmadıq!*

*Bu kitabın mövzusu, eləcə də özünün dəfələrlə "şəhidlər ölmürlər", "şəhidlər diridirlər" deməsi münasibətilə onun şəhadətinin yeddinci günü baş vermiş bir hadisəni (bu hadisədən Şirazın böyük əksəriyyəti xəbərdar oldu və bu xəbər Tehranda nəşr edildi) təkrarlamaq istəyirəm.*

*Qəməri 1402-ci il İmam Hüseyn (əleyhissalam)-ın ərbəinin (qırxının) sübhü gündəlik məramnaməyə uyğun şəhid atamın mənzilinə getdim. Katibliyin mə"sul işçisi məni qarşıladı. Salam, hal-əhval tutandan sonra ilk cümləsi bir ələviyyə (Həzrət Əli (əleyhissalam) soyuna mənsub) qadının yuxusu barədə*

*mə"lumat oldu: "Mənzili bizimlə qonşuluqda olan, hörmətli bir ələviyyə bir xanım deyir ki, dünən mərhum ağanı (Dəstğeybi) yuxuda gördüm. Buyurdu ki, bədənimin hissələrindən küçə divarının kərpicləri altında qalıb, mənə çatdırın."*

*Mən əvvəlcə bu məsələyə əhəmiyyət vermədim. Xeyli mə"lumatlar dinlədim. Adamların gəliş-gedişi iki saatadək çəkdi, adi gündəlik işlər davam edildi. Sonra fatihə (mərhumu yad etmə) məclisində iştirak etmək üçün bir dəstə adamla bayıra çıxdıq. Mərhum alimin şəhid olduğu yerə çatanda, həmin yuxunu xatırladım.*

*Yoldaşlarımdan bəzilərinə əhvalatı danışdım ki, belə bir yuxu görüblər, deyilən yerə bir nəzər salsaq, yaxşı olar. Elə ilk nəzərdən də uçulmuş kərpiclərin arasında bədəndən qopmuş hissələr gördük.*

*Rəfiqlərimizdən ikisi qabağa düşüb, şəhidin bədənindən qopmuş hissələri iki plastik torbaya yığdılar. Xüsusən, İmam Hüseyn (əleyhissalam)-ın ərbəini münasibətilə Şirazda tə"til olduğundan, hadisə sür"ətlə bütün şəhərə yayıldı. Adət üzrə cümə axşamı "Came" məscidində, şəhidin ildönümü və "Kumeyl" duasına xeyli əhali toplandı. Hamı əhvalatı eşitdi. E"lan olundu ki, bu gecə saat onda şəhid Ayətullahın bədəninin qalan hissəsi dəfn ediləcək.*

*Əzadarlıq məclisi gecənin yarısınadək çəkdi. Nəhayət, rəvayətə əsasən, ərbəin günündə İmam Hüseyn (əleyhissalam)-ın bədəninin qalan hissəsinin dəfni yad edildi və parça-parça olmuş əzalarla dolu iki plastik torba camaatın arasına gətirildi. Qəbri aşağı hissədən açıb qalan əzaları dəfn etdilər.*

*Doğrudan da, təəccüblü, maraqlı hadisə idi. Unutmuşdum deyəm, elə həmin gün dağılmış yerin axtarışından bir saat sonra ruhani libaslı möhtərəm dostlardan biri xəbər verdi ki, iki nəfər başqa şəxs də dünən belə bir yuxu görüblər. Onlardan biri mərhum şəhidə yaxın adamlardandır. Hadisə ciddi şəkil aldığı üçün həmin ələviyyə xanıma xəbər göndərdim ki, gördüyü yuxunu, özünün və həyat yoldaşının adlarını, həmçinin ev ünvanlarını dəqiq yazıb təqdim etsin. Onlar da bu xahişi yerinə yetirdilər. Hazırda həmin yazı qarşımdadır. Əziz oxucuların icazəsi ilə tarix üçün, indiki və gələcək nəslin ibrəti üçün həmin yazıdan bir hissəsini burada nəql edirəm. Ələviyyə xanım belə yazmışdı:*

*Yuxu:*

*"Böyük bir bağda idim ki, Ayətullah Dəstğeyb irəlidə gedirdi, mən də onun arxasınca. Lakin onun olduğu hissə çəmənlik idi. Qəhvəyi əbası*

*çiynində olan ağa mənə dedi: "Get, onlara de ki, ətimdən parçalar divarın layları altında qalıb." Neçə dəfə təkrar etdi. Yuxudan ayılanda çox narahat oldum."*

*İndi özünüz mülahizə edin ki, bu sadiq (doğru, ilahi) yuxu və gerçək dastan nə qədər ibrətamizdir! Böyük bir kitabdan daha ibrətamiz! Alimin dediyi "ölüm yox olmaq deyil, yeni bir həyata qapıdır"; "Şəhidlər diridir və Allah yanında onlara ruzi verilmişdir" sözləri və ya bu dünya hadisələrindən, bərzəxdə ruhların xəbərdarlıqları, ruhun cəsədə baxması barədə deyilənlər hamısı həqiqətdir. Mərhum şəhid öz əməlləri ilə sübut etdi ki, bəli, bu belədir.*

*Bu kitabın mətləblərinə ümumi bir nəzərdən sonra onun kiçik həcmindəki böyük dəyərlərə şahid oluruq. Müəllif axirət səfərini çox şirin bir dillə ölümdən başlayır, yaxşılar və pislər üçün ölümün qismlərini sadalayır.*

*Canvermə (ehtizar) halını oxucu üçün elə canlandırır ki, sanki özü artıq can vermişdir.*

*Sonra bərzəx aləminə varid olub, ayələr və hədislər əsasında bərzəx Behişti və onun nemətlərindən söhbət açır. Eləcə də, bərzəx Cəhənnəmi və onun əzablarını açıqlayır. Tarixi hadisələri, sadiq yuxuları dediklərinə sübut kimi*

*şahid gətirir və aydın bəyanı ilə oxucunun diqqətini onun gələcək mənzilinə yönəldir.*

*Sonra Qiyamətin başlanğıcından, ölümdən sonrakı həyatın–məadın ayə və hədislərlə dəlillərindən yığcam, sadə söhbət edir.*

*Mö'təbər mənbələrə istinad etməklə Sirat (axirət körpüsü), Mizan (əməl tərəzisi), Behişt və Cəhənnəm, nemət və əzablar barədə nəzərini bildirir. Üstəlik, bu kitabda yüzlərlə maraqlı, oxumalı mətləblər oxucuya təqdim edilir.*

*Ruhun şad olsun ey şəhid Ayətullah! On səkkiz yaşlı nəvən Seyyid Məhəmməd Təqi Dəstğeybin vəfalı yoldaşlarının ruhu şad olsun!*

**Şiraz, Seyyid Məhəmməd Haşim Dəstğeyb**

# BİRİNCİ FƏSİL

## *ÖLÜM*

### *VƏHYDƏN BAŞQA YOL YOXDUR*

“Məad” «əvd» kökündən olub “qayıtmaq” mənasını verir. Çünki ruh ikinci dəfə bədənə qaytarılır. Məad müqəddəs İslam dininin əsaslarındandır. Buna inanmaq vacibdir ki, hər bir insan ölümdən sonra yenidən dirilir və əqidəsinin, əməllərinin əvəzini alır.

Başlanğıcı ölüm və qəbir, sonrası Bərzəx, daha sonrası böyük Qiyamət, sonu Behişt və ya Cəhənnəm olan məad məsələsi əql yolu ilə sübuta yetsə də, zahiri hisslərlə dərk olunmaz. Ölümdən sonra nə olacağını insanın təkbaşına dərk etməsi qeyri-mümkündür. Bu məsələdə vəhydən (Allah buyruqlarından) başqa yol yoxdur, çünki insanın dərki onun yaşadığı aləmin, tutduğu məqamın hüdudlarını aşa bilmir. Məsələn, ana bətnində olan uşağın bətndən bayırdakı aləmin böyüklüyünü, necəliyini anlaması qeyri-mümkündür. Eləcə də qeyri-mümkündür ki, bu uşaq fəza və onda mövcud olanların sonsuzluğunu qavrasın. Həmçinin, maddi aləmdə olub, maddə və təbiətin əsiri olan bir kəs mələkut aləmini necə dərk edə bilər; necə bilər ki, mələkut aləmi maddi aləmin batinidir və bu dünyadan xilas olmaqla yeri həmin mələkut aləmi

olacaq? Bir sözlə, dünya aləmində olan insan üçün ölümdən sonrakı aləmlərin xüsusiyyətləri gizlidir və o xüsusiyyətləri tanımaq üçün Yaradanın buyurduqlarını (vəhyləri) təsdiq etməkdən başqa bir yol yoxdur.

## *MƏADIN XÜSUSİYYƏTLƏRİNİN ƏQLLƏ ƏLAQƏSİ YOXDUR*

Bu səbəbdən də əgər bir şəxs desə ki, ölümdən sonra filan cür olacaq, ağıla sığmır, o şəxsin sözləri ümumiyyətlə qəbul olunmamalıdır. Çünki ölümdən sonrakı hadisələrin xüsusiyyətlərinin ağılla heç bir əlaqəsi yoxdur və dünyanın bütün ağıllıları çiyin-çiyinə versələr belə, digər bir aləmdəki cərəyanların möhtəvasından xəbərsiz qalacaqlar. Bildiklərimiz yalnız Həzrət Məhəmməd (səlləllahu əleyhi və alihi və səlləm) və onun mə"sum övladlarının buyurduqlarıdır ki, biz də onu tamamilə təsdiq edirik. Çünki onlar mə"sum şəxslər, Yaradanın vəhylərinin nazil olma məhəllidirlər.

## *ÖLÜ DƏ DANIŞARMI?*

Bəzi nadanların "ölü də danışarmı?" deməklə şübhə toxumu səpməsi tamamilə əsassızdır. Məsələn, onlar deyirlər: "İnsan öldüyü zaman onun bədəni quru budaq kimi adi cansız materiya hökmündədir, qəbirdə sual-cavab nədir?! Əgər ölünün ağzını bir şeylə doldurub, səhəri gün qəbrini qazıb ağzına baxsaq, görərik ki, ağzından bir zərrə belə çölə çıxmayıb." (Bu şübhələrə tezliklə cavab veriləcək).

## *NİTQ, DANIŞIQ DİLƏ MƏXSUS DEYİL*

Sadalanan şübhələr axirətdən, yaranış dəsgahından xəbərsizlik, qeybə imanın olmaması nəticəsindədir. Bu təəccüblər mə"lumatın, düşüncənin azlığına bir sübutdur. Bu cür düşünənlər güman edirlər ki, nitq yalnız dilə məxsusdur, ruhların isə nitqi yoxdur. Guya hərəkət təkcə cismə aiddir, ruhlar isə hərəkətdən məhrumdurlar. Halbuki, bu sözü deyənlərin özlərinin hər gecə yatdıqları, yuxuda olduqları zaman nitqləri, danışıqları var; dodaqları tərpənmədiyi halda danışırlar, yanlarında dayanmış adam isə onların səsini eşitmir. Eləcə də, bədənləri yataqda hərəkətsiz olduğu halda, yuxuda hərəkət edir, gəzirlər.

## *YUXUNUN HİKMƏTİ PEYĞƏMBƏRLƏRİ TƏSDİQ ETMƏKDİR*

«İmam Kazim (əleyhissalam) buyurur: "Yaranışın ilk çağlarında bəşəriyyət üçün röya (yuxu görmə) yox idi. Sonradan bu xüsusiyyət Allah Tərəfindən verildi. Səbəbi də bu oldu ki, Allah bir peyğəmbəri onun öz dövründəki insanların dəvət və hidayəti üçün göndərdi. O peyğəmbər də xalqı Allaha itaət və bəndəçilik etməyə əmr etdi. Ona dedilər: "Əgər biz Allaha pərəstiş etsək, əvəzində nə alacağıq? Bir halda ki, sənin sərvətin bizdən azdır." O peyğəmbər buyurdu: "Əgər Allaha itaət etsəniz, əvəzi Behişt, günah edib məni dinləməsəniz, yeriniz Cəhənnəm olacaqdır." Dedilər: "Behişt və Cəhənnəm nədir?" Peyğəmbər hər ikisi barədə şərh verdi. Soruşdular ki, bəs nə vaxt onlara çatacağıq? Buyurdu ki, öldüyünüz zaman. Amma onlar "bizim ölülər çürüyüb torpaq olurlar və onlar üçün sənin vəsf etdiyin şeylərdən heç biri yoxdur"-deməklə, o peyğəmbəri inkar etdilər.

Allah bu adamlar üçün əhlam (yuxu görmə) müəyyən etdi. Yuxuda gördülər ki, yeyirlər, içirlər, hərəkət edirlər, danışırlar, eşidirlər. Elə ki, yuxudan oyandılar, sadalananlardan bir əsər-əlamət görmədilər. Həmin peyğəmbərin yanına gəlib, yuxularını danışdılar. Peyğəmbər buyurdu: "Allah-Taala bu dəlillərlə sizə xəbərdarlığını sona yetirdi. Sizin ruhlarınız belədir. Öldüyünüz vaxt bədənləriniz torpaqda çürüsə də, ruhlarınız Qiyamət gününədək əzabda və ya naz-nemət içindədir."

## *QƏBUL ETMƏMƏK AZ TUTUMLUQDANDIR*

Ehtimalların çoxluğu əql üçün zəruridir. (İnsanın əqli onun verdiyi ehtimalların çoxluğu ilə tanınar.) Yəni, insan əqli nöqteyi-nəzərdən qeyri-mümkün olmayan bir mətləb eşitdikdə, ehtimal verməlidir ki, ola bilsin ki, doğrudur. Amma xəbər verən şəxs məsum (günahsız, pak) olarsa, gərək desin ki, mütləq doğrudur. Lakin insan cahil və ağlı az olarsa, deyəcək: "Bu nə sözdür?!" Qəbul etməmək tutumun kiçik, az olması dəlilidir ki, belə adam fövqəl-təbii (təbiətin fövqünü), maddiyyatdan xaricdəki şeyləri dərk etməkdə acizdir. øBelə insan iki ayaqlı heyvan kimidir və yalnız yemək, içmək, cinsi yaxınlığı dərk edir. Əlbəttə, əgər ulağa, öküzə də desələr ki, öləndə mələk gəlir, qəbirdə sual-cavab olur, qəbul edə bilməzlər. Çünki onların düşüncə hədləri qarın və fərcdən uzağı əhatə etmir. Beləcə, ali mətləblərin qəbulu böyük sərvət və ruhun ucalığıdır.π

Məad məsələsinin geniş izahına ehtiyac yoxdur. Yalnız ilk mənzildən son mənzilədək olan hadisələrin izahını, Əhli-beyt (mə"sum İmamlar (əleyhimüssalam)-ın) hədislərində zikr edilənlərlə şərh etməklə kifayətlənirik.

## *İLK MƏNZİL – ÖLÜM*

Ölümün həqiqəti-ruhun bədənlə əlaqəsinin qırılmasıdır. Ruhun bədənlə əlaqəsini çox şeyə oxşatmışlar. Bəziləri bu əlaqəni gəmi və gəminin

sükançısının əlaqəsi ilə müqayisə etmişlər ki, ölüm gəmini gəmiçinin ixtiyarından çıxarır.

Deyirik, “mənim ayağım”, “mənim əlim”, “mənim gözlərim.” Amma əsl “mən” ayaq deyil, əl deyil, göz deyil, qulaq deyil. (Yə”ni, insan ayağını, əlini itirməklə “mən”i itməz-***red.***) “Getdim” deyəndə, düzdür ki, sən gedirsən, amma ayağınla gedirsən. “Sən” ayaqdan qeyri bir şeysən. Gördüm, eşitdim, dedim, hər biri vahid şəxsə qayıdır. Bu şəxs şərif ruhdur ki, həmin üzvlərlə zühur edir. Görən, eşidən ruhdur. Amma görəsən qulaq və gözdən eşidib görürmü? Deməli görən ruhdur. Göz, qulaq isə yalnız ruhun görüb, eşitməsi üçün çatlardır. Deməli, göz yalnız ruhun görmə alətidir, ruh isə görəndir. Ruh cismin, bədənin zülmətini işıqlandıran çıraq kimidir və göz, qulaq və digər hiss üzvlərinin məcrasından işıqlıq verir.

Ölüm, yə”ni bu çırağın yerini dəyişmək. Məsələn, fərz edin bir neçə deşiyi olan daxmaya çıraq daxil edirik. Görəcəyik ki, həmin dəliklərdən işıq verir. Elə ki, çırağı daxmadan çıxartdıq, zülmətə bürünür. Ölüm, yə”ni bədəndən həmin çırağın (ruhun) çıxarılması.

## *RUHUN BƏDƏNLƏ ƏLAQƏSİ DAXİL VƏ YA XARİC OLMAQLA DEYİL*

Bilməliyik ki, ruhun bədənlə əlaqəsi ona daxil olmaq cəhətindən deyildir. Çünki ruh mücərrəd bir şeydir, cisim deyildir. Onun daxil olub, xaric olması

kimi bir şey yoxdur. Bu əlaqə yalnız bədənə tam nəzarətdən ibarətdir. Ölüm yə"ni həmin əlaqənin bədəndən qırılması.

İnanmağımız vacibdir ki, ölüm Allahın izni, icazəsiylədir. Yalnız ana bətnindən son günədək ruhu bədənlə əlaqələndirən Kəs bu əlaqəni qıra bilər. Dirildən də Odur, öldürən də. Bu həqiqət, Qurani-Kərimdə çox zikr olunmuşdur. Bəzi nadanlar isə Əzraili (ölüm mələyini) xoşlamır, onu düşmən tuturlar. Amma bilmirlər ki, o, özbaşına iş görmür, yalnız Allahın əmrlərini icra edir.

## *RUHUN AYRILMASI KEYFİYYƏTİ*

Ruhun çıxarılmasının necəliyi "Me"rac" hədislərinə əsasalanır ki, xülasəsi belədir: Həzrət Əzrailin qarşısında bütün bəşəriyyətin adı qeyd olunmuş bir lövhə mövcuddur. Ömrü sona yetmiş, əcəli çatmış insanın adı bu lövhədən silinir və Əzrail dərhal onun ruhunu çıxarır. Mümkündür (eyni bir anda) minlərlə adamın adı silinsin və Əzrail də eyni bir anda onların ruhunu çıxarsın. Təəccüblü bir şey yoxdur, axı bir külək də minlərlə çırağı bir dəfəyə söndürə bilir. Hamı öz Rəbbinə tərəf qayıdır. Ruhları

Əzrail ayırır, amma həqiqətdə Allah öldürür. Çünki bu iş Allah-Tərəfindəndir.

## *ÖLDÜRƏN ALLAHDIR, ƏZRAİLDİR, YOXSA MƏLƏKLƏR?*

Buna görə də Qurani-Məcid ruhun çıxarılmasının bir yerdə Allaha (39-cu surə, 41-ci ayə), digər yerdə Əzrailə (32-ci surə, 11-ci ayə), daha başqa yerdə isə Əzrailə bağlı mələklərə (41-ci surə, 26-cı ayə) aid edir. Hər üçü həqiqətdir. Çünki Əzrail və ona bağlı mələklər Allah-Taalanın əmri ilə canları alırlar. Məsələn, əgər bir sultan öz sərkərdələri və qoşunu vasitəsilə bir ölkəni fəth edirsə "filan ölkəni sultanın qoşunu fəth etdi" və ya "filan sərkərdə fəth etdi" deməyin heç bir eybi yoxdur və həqiqətdə qoşunun hökmranlığını və rəhbərliyini öhdəsinə alan sultan fəth etmişdir. Əlbəttə, bu misallar məsələnin dərk olunması üçündür, yoxsa əsil mətləbimiz bundan çox-çox ucadır.

## *RƏBBİMİZ ÖLÜM ÜÇÜN VASİTƏLƏR YARADIB*

Bir sözlə, ölüm məqamı Allah-Taala ruhu, canı alır. Amma diqqət etməliyik ki, Allah dünyanı səbəblər evi kimi yaratmışdır, o cümlədən ölüm üçün də vasitələr müəyyən etmişdir. Məsələn, damdan yıxılmaq, xəstələnmək, öldürülmək və sair. Əlbəttə bütün bunlar səbəbdir. Axı ölənlərdən də ağır xəstəliyə tutulanlar vardır ki, yaşayırlar. Deməli, bu (xəstəlik), təklikdə ölümə səbəb olmur. Bəli, yalnız ömür sona yetdikdə Allah onun ruhunu çıxarır. Necə ki, bəzən tam sağlam adamların qəfil ölümünə şahid oluruq.

## *CAN VERƏNLƏR ÜÇÜN ÖLÜM MƏLƏYİNİN SURƏTİ*

Növbəti söhbətimiz ölüm mələyinə aiddir. Ruhu çıxarmaq üçün gələn bu mələk can verənlərə müxtəlif şəkillərdə görünür. Rəvayətə görə Həzrəti İbrahim (əleyhissalam)-a kafir şəxsin canını alan vaxtda Əzrailin surətini görməyi arzuladı. Bildirildi ki, buna taqətin çatmaz. Amma İbrahim (əleyhissalam) görmək istədiyini tə"kid etdi. Əzrail özünü deyilən surətdə İbrahim (əleyhissalam)-a göstərdi; rənki qara, bədəninin tükləri biz-biz durmuş, pis qoxulu, qara libaslı, ağız və burnundan od qığılcımları püskürən bir kişi! İbrahim qəşş etdi... Özünə gəldiyi zaman buyurdu: "Əgər kafir şəxsə heç bir əzab verilməzsə, səni görmək əzabı ona bəsdir."

## *ÖLÜM ANINDA MƏLAİKƏ VƏ ŞEYTANLARIN İŞTİRAKI*

Can verən insanı son anda da sapdırmaq, azdırmaq qəsdiylə şeytanlar ona sol tərəfdən yaxınlaşır. Məlaikələr isə sağ tərəfdə hazır olurlar. Şeytanların işi həmişə adamları aldatmaqdır, xüsusilə can verən vaxtda, hətta imanlı adamların da imanlarını oğurlamaq üçün çalışırlar. Çünki səadət və bədbəxtliyin mizanı işin son nəticəsidir. İnsan yaşadığı tərzdə ölər və öldüyü təzrdə də dirilər. Hansı arzularla ömür sürmüsənsə, o arzularla da ölərsən. Əgər arzun Əli (əleyhissalam)-ın cəmalını görməkdirsə, munisin onun cəmalı olar. Yox əgər, arzun həva-həvas (şəhvət, tamah və s.) olmuşdursa, o son anda da üzə çıxar.

Lakin, Rəbbimiz imanlı şəxsləri qoruyacağını və"d etmişdir. Şeytan belə insanlara yol tapmaz (14-cü surə, 32-ci ayə). Əbu Zəkəriyya Raziyə ölüm anında söylədilər:

“De, “la ilahə illəllah” (Bir Allahdan savayı heç bir mə”bud yoxdur). Dedi: “Söyləmirəm.” Qəşş halına düşdü. Huşu başına gələndə dedi: “Gözlərimin qarşısına bir şəxs gəlib deyirdi ki, əgər xoşbəxt olmaq istəyirsənsə, de İsa Allahın oğludur. Cavab verdim ki, deməyərəm. Sonra çox israr edib “la ilahə illəlah” söylə, dedi. Cavab verdim ki, sən istədiyin üçün deməyərəm. Bir silahlı gəlib onu kənarlaşdırdı. İndi isə həqq kəlmələrini deyirəm.” Şəhadət kəlmələrini dilinə gətirib, dünyadan köçdü. Axı bir ömür sədaqətlə vahid Allaha pərəstiş etmiş insana can verən halda şeytan necə qalib gələ bilər?! Yox əgər ömrü şeytanla yaxınlıqla ötmüşsə, həmin saatda da munisi şeytandır.

## *CAN VERMƏNİN ASANLIĞI VƏ ÇƏTİNLİYİ*

Hədis və rəvayətlərdə ruhun, canın çıxarılmasının çətinliyi, ağırlığı açıqlanmışdır. Bəzi hədislərdə bu halı diri şəxsin dərisinin soyulmasına oxşatmışlar. Başqa bir yerdə isə belədir: “Əgər dəyirman daşı Qala qapısı mıxı ilə gözə otursa və hərəkətə gəlsə, o hal canvermədən (səkərat) daha asandır. Bir qisim rəvayətlərdə isə ruhun çıxarılmasının çətinliyi bədənin tikə-tikə qayçılanmasına, mişarlanmasına bənzədilib. Hətta bəzilərinin can verməsi son dərəcə narahatlıqla olur ki, deyiləsi mümkün deyil. Bəziləri üçün isə ölmək ən ətirli çiçəyi qoxulamaq kimidir. (16-cı surə, 32-ci ayə)

Rəvayətlərdə bu sayaq oxşatmalar da vardır: Çirkli paltarın yenisi ilə əvəz olunması, bədənin buxov və qandallardan azad olması. Yə”ni, ölüm təbiət aləmi zindanından bir növ xilas olmaqdır.

## *ÇӘTİN CAN VERMӘ MÖMİNİN GÜNAHLARININ ӘVӘZİDİR (KӘFFARӘSİDİR)*

Ümumiyyətlə bu iki növ canvermənin heç birinin küliyyəti yoxdur. "Bütün imanlı adamlar (möminlər) asan can verir", deyilməsi doğru deyildir. Çoxlu möminlər var ki, günahlarının bəzisi çətin can verməklə silinir. Bu hal Allah-Taalanın möminlərə göstərdiyi lütfün sayəsindədir. Mö`min dünyadan pak getməli olduğuna görə, onu islah edirlər. Ağır canvermə möminlər üçün islah, kafirlər üçünsə əzabın müqəddiməsidir. (47-ci surə, 27-ci ayə)

## *KAFİRİN ASAN CANVERMӘSİ ETDİYİ YAXŞILIQLARA GÖRӘDİR*

Bəzən də belə olur ki, kafir və günahkar şəxs asan can verir. Bu şəxs əzab (Cəhənnəm) əhlidir. Amma ömründə qismən də olsa, yaxşı işlər görmüşdür. Belə şəxs asan can verir ki, onun hesabı elə oradaca təmizləsin. Məsələn, kafir adam sədəqə vermiş, bir məzluma yardım etmişsə, bu yaxşılıqlar müqabilində asan can verir ki, artıq axirətdə heç bir tələbi olmasın. Eləcə də mömin şəxs günahdan pak olmaq üçün çətin can verir. Əslində isə istər asan, istərsə çətin, kafir üçün canvermə halı bədbəxtliyinin başlanğıcıdır. Həmçinin mömin üçün canvermə səadətdir, istər asan, istərsə də çətin. Buna əsasən kafir və möminə, əməlisaleh və bədəmələ nisbətən asan, yaxud çətin canvermə külli bir qanun deyildir.

## *KAFİR RUHLARININ İŞGƏNCƏ İLƏ ÇIXARILMASI*

"Biharül-ənvar" kitabının 3-cü cildində şərif bir hədisdə buyurulur: "Bir gün Xatəmül-Ənbiya (səlləllahu əleyhi və alihi və səlləm) əziz əmioğlusu Əliyyibni Əbi Talib (əleyhissalam)-ı görməyə getdi. İmamın o qədər şiddətli göz ağrısı var idi ki, nalə çəkirdi. Allahın Rəsulu dağca səbri olan Əli (əleyhissalam)-a elə qorxunc, vəhşətli bir xəbər verdi ki, İmam göz ağrısını unutdu.

Buyurdu: "Ya Əli! Cəbrail xəbər verdi ki, kafirlərin ruhu alınarkən bir neçə əzab məlaikəsi gələr və taziyanələrlə, qızmış şişlərlə canını çıxararlar." Əmirəl-möminin ərz etdi: "Ya Rəsuləllah! Sizin də ümmətinizdən belə can verənlər olacaqmı"? Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) buyurdu: "Bəli, müsəlmanlardan üç tayfa bu sayaq can verərlər: zalım hakimlər, yetim malını yeyənlər və nahaq yerə şahidlik verənlər (yə"ni, həqiqətin ziddinə şahidlik edənlər)."

Ümumiyyətlə, olacaqlar özümüzdəndir. Hər kəs etdiklərini görər. Asan və çətin can vermək, əməllərimizin nəticəsidir. Pənah Allaha, bəzən mümkündür pis əməllərə görə insan dünyadan imansız getsin (30-cu surə, 10-cu ayə).

## *FÜZEYLİN ŞAKİRDİ İMANSIZ ÖLÜR*

Məşhur Füzeyl haqqında yazırlar: "Ən bilikli şakirdi xəstələnib ölüm həddinə yaxınlaşdı. Füzeyl və bir dəstə adam onun görüşünə getdilər. Füzeyl "Yasin" surəsini oxumağa başladı. Bədbəxt tələbə öz ustadının əlinə vurub dedi: "Quran oxumağını istəmirəm!" Bədbəxtliyə bax ki, bir ömür məscidə, mədrəsəyə, ibadət məclislərinə

gedəsən, Quran əhli olasan, indi isə "istəmirəm Quran oxunsun" deyəsən. Bəli, bu şəxs şəhadət kəlmələrini də demədən həmin məclisdə öldü.

Füzeyl bu əhvalatdan çox kədərləndi. Bir guşəyə çəkilib, evdən bayıra çıxmadı. Nəhayət, həmin şakirdi yuxuda gördü. Ondan pis aqibətinin səbəbini soruşdu. Cavab verdi: "Məndə üç xasiyyət olduğundan dünyadan imansız getdim. Əvvəlincisi həsəd idi ki, kimsəni özümdən yüksək görə bilmirdim."

Bəli, od çubuğu yandırıb yox etdiyi kimi, həsəd də imanı puç edər.

## *GÜNAHLAR SƏBƏBİNDƏN İMANSIZ ÖLMƏK*

İkinci xasiyyət xəbərçilik, sözgəzdirmək olmuşdur. Yə"ni, camaatın arasını vurmaq, ərlə-arvadın arasına girib ayrılıq salmaq kimi. Əgər bir kəs digərinin arxasınca danışdısa, məbada o adama bu sözləri xəbər verib deyəsən ki, filakəs belə dedi! Əksinə, əgər iki nəfərin arası yaxşı olmasa de ki, filankəs sənin yaxşılığından danışırdı. Belə yerdə yalan danışmağın heç də eybi yoxdur. Çünki iki nəfərin arasını düzəldirsən; əksinə, xəbərçilik isə çox böyük günahdır. Ona görə ki, kini, nifaqı artırır. Üstəlik xəbərçi xəbər apardığı adamın rahat xəyalını aradan götürər. Qəlbini çirkləyər və qətldən də pis olan fitnə yaradar.

Üçüncü xasiyyət isə onun şərab içməsi olmuşdu.

Bəli, bu üç böyük günah alim, fazil, müdərris bir şəxsin dünyadan imansız getməsinə bais oldu.

## *ÖLÜMÜ SEVMƏK*

Bilməliyik ki, Allahla görüşə (liqaullaha) məhəbbət mühüm məsələdir. Yə"ni, mömінin ölümdən acığı gəlməməlidir, ondan qorxmamalıdır. Elə də yox ki, ölüm arzulaya və ya (Allaha pənah) özünü öldürə. Çünki bu dünyada qaldıqca insan günahlardan tövbə edə bilər, paklanar, xeyir işlərini artıra bilər. Amma Allah onun ölümünü istədikdə gərək ölümü nemət hesab etsin. Çünki itaət əhlidirsə, tezliklə savab evinə çatar. Savab, xeyir işlərinin bəhrəsini görər. Yox əgər günahkardırsa ölüm vasitəsilə günahkarlığı dayanar və layiq olduğu cəza az olar. Xülasə, aqil şəxs ölümü, Allahın istədiyi vaxtda dost tutmalıdır. Çünki bütün səadətlərə çatmağın yeganə vasitəsi ölümdür. Qürur evindən xilas olub səadət, sevinc evinə yetmək, Həzrət Yaradanın nemətlər büsatına daxil olmaq, həqiqi dostların, yə"ni Həzrət Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm) və Onun pak ailəsi (əleyhimüssalam) ilə, şərif ruhlarla görüş yalnız ölüm sayəsində mümkündür. Eləcə də, Allahın istədiyi həddə uzun ömür və əcəlin tə"xirə düşməsini istəmək lazımdır ki, mübarək və uzun axirət səfəri üçün lazımi hazırlıq görülsün.

## *DÜNYAYA BAĞLILIQ ƏQLƏN VƏ ŞƏRƏN MƏZƏMMƏT OLUNMUŞ, PİSLƏNMİŞDİR*

Əksər adamlarda olduğu kimi dünya ləzzətlərinə görə ölümə ikrahla yanaşıb, dünyada qalmaq istəyi əqlən və şər"ən (şəriət nöqteyi-nəzərindən) pislənmişdir.

Əvvəla, əqlən bu dünyada mütləq xoşbəxtlik yoxdur. "Ağıza yüz sillə vurmamış ona bir tikə qoymazlar." Axı o

hansı ləzzətdir ki, əvvəlində, axırında yüzlərlə narahatçılıq olmasın?! Əgər bu xoşbəxtlik cavanlıqdırsa, axırı mütləq qocalıq və zəifliklə sona yetər; yox əgər dünya səadətinin əsası olan sağlamlığı ləzzət bilsək, onda bu da hər an cürbəcür xəstəliklərlə hədələnir; ləzzətlərə çatmaq üçün vasitə olan var-dövlətdirsə, o da əziyyətlə ələ gəlir və min bir çətinliklə əldə saxlanılır; və əgər vəzifə, mənsəbdirsə, onun da yollarında çox bəlalar, çətinliklər vardır. Nəhayətdə isə bütün sadalanmış "ləzzətlər" puç olub, əldən çıxma ərəfəsindədir.

*Dünyaya vermə könül, bu vəfasız gözəlçə,*
*Kimsənin məhəbbətin yaşatmamış bir gecə.*

## *DÜNYAYA MƏHƏBBƏT KAFİRLƏRİN XASİYYƏTİ VƏ BÜTÜN GÜNAHLARIN BAŞIDIR*

Amma şərən: Qurani-Məcid dünya məhəbbətini kafirlərin sifətlərindən biri kimi bildirib və buyurub: "Kafirlər dünya həyatından xoşhal olub, ona bağlandılar." ("Yunis", 7). Başqa bir ayədə: "Əbədi axirət həyatı əvəzinə müvəqqəti dünyanı bəyəndiniz?" ("Tövbə", 37) Yəhudilər haqqında isə belə buyurur: "Onlar hər biri dünyada min il yaşamaq arzusundadırlar." ("Bəqərə", 96).

Bu barədə ayələr və hədislər çoxdur. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-dən belə bir məhşur hədis vardır: "Dünya məhəbbəti bütün günahların başıdır."

## *ÖLÜMƏ İKRAH VƏ BAĞLI OLDUĞU ŞEYLƏRƏ GÖZ YAŞI*

Deyilənlərdən aydın oldu ki, ölümün insanla onun sevdikləri arasında ayrılıq saldığına görə ölümə pis baxmaq və uzun ömür arzulamaq əqlən və şər”ən xoşagəlməzdir. Lakin axirət səfərinə daha artıq hazırlaşmaq niyyəti ilə ölümün tə”xirini istəmək, əməl dəftərinin gec bağlanmasını arzulamaq çox yaxşıdır. Lakin dostların, yaxın adamların ölməsindən, onların ölməsindən irəli gələn bu narahatlıq, qorxu maddi cəhətdən olarsa, yersiz və səhvdir. Məsələn, insan ağlaya ki, nə üçün onlar dünya ləzzətlərindən ayrılmış və yaxud nə üçün onun özü həmin yaxın adamların vasitəsi ilə çatacağı səadətdən məhrum olub. Amma bu göz yaşları ayrılıq xatirinə olsa, yaxşıdır. Necə ki, bir yerdə səfərə çıxmış adamlardan biri ayrılıb, vətənə tez çatdıqda, mütləq o biriləri tə”sirlənər. Əgər belə olsa, çox gözəldir, hətta müstəhəbdir (yaxşıdır) ki, möminin ayrılığı, uzaqlığı üçün ağlayasan. Xüsusilə, o halda ki, bu mömінin olması ilə axirət səfərinə daha çox tədarük görə bilərdin.

## *SƏBİRSİZLİK AXİRƏTDƏN XƏBƏRSİZLİK NƏTİCƏSİDİR*

Adamların çoxu, xüsusilə qadınlar, dünya məhəbbətinə giriftar olduqlarına görə, onların bir yaxın adamı öldükdə, çox narahat olur, əldən-ayaqdan gedir, səbirsizlikdə həddi aşırlar. Həmişə dünyada qalmaq istəyən bu adamların hədsiz səbirsizliyinin səbəbi ölümü yoxluq kimi başa düşmələridir. Əgər bilsəydilər ki, ölən

adam səfərdə idi, öz vətəninə çatdı və onlar da tezliklə ölən şəxsə qovuşacaqlar, belə səbirsizlik etməzdilər.

Həzrət Sadiq (əleyhissalam) oğlu ölmüş bir kişini gördü ki, oğlunun ölümündə haray-həşir qoparıb çox səbirsizlik edirdi. İmam (əleyhissalam) buyurdu: "Kiçik müsibətdə haray-həşir qoparırsan, daha böyük müsibətdənsə, (axirət müsibətindən) xəbərsizsən?! Əgər öz axirət səfərin üçün hazırlıq görsəydin, oğlunun ölümünə bu cür səbirsizlik göstərməzdin. Öz axirətinin fikrində olmamağın oğlunun ölüm müsibətindən daha ağırdır."

## *İLAHİ LÜTF VƏ ƏNAM*

Neçə illər bir sultana xidmət etmiş şəxsə xəbər gətirirlər ki, hansısa bir vaxtda sənə lütf göstərib, xidmətlərinin əvəzini, ən"am verəcəklər. Sözsüz ki, bu adam həmin xəbərdən fərəhlənir, lakin daha artıq ən"am almaq üçün, sultanın xoşladığı əməlləri daha artıq icra etmək üçün həmin vaxtın gec gəlməsini istəyir–bəli, mömin kəs ölüm xəbərini belə gözləməlidir! Mömin savab evinə yetişmək üçün bir əsl olan ölümdən fərəhlənməli, daha artıq bəndəlik etmək üçün ölümün yubanmasını istəməlidir. Eyni halda, Allah onun ölümünü istədiyi zaman, Allahla hüsnü-zənn əsasında, Onun dostları Həzrət Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm) və Onun ailəsi (əleyhimussalam) ilə görüşdən razı qalmalıdır.

## *CANVERMƏ ZAMANI ƏHLİ-BEYT (ƏLEYHİMÜSSALAM)-IN İŞTİRAKI*

Çox rəvayətlərdə zikr olunmuşdur ki, Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm) və Əli (əleyhissalam) (bəzi digər rəvayətlərdə Fatimə, Həsən və Hüseyn (əleyhimussalam), bəzilərində isə 14 mə"sum) möminin ölümü zamanı onun başı üstə hazır olarlar. Əlbəttə, onların nur surətləri və misali cisimləri nəzərdə tutulur. (Bu məsələ sonra aydınlaşacaq.)

Həzrət İmam Riza (əleyhissalam)-ın yaxın adamlarından biri can üstəydi. Həzrət onun görüşünə getdi. Həmin şəxs canvermə halında, gözlərini yummuş halda dedi: "İndi Allahın Rəsulu (səlləllahu əleyhi və alihi və səlləm), Əli (əleyhissalam), Fatimə (əleyha salam), Həsən (əleyhissalam) və Hüseyn (əleyhissalam), ta İmam Kazim (əleyhissalam)-adək mə"sumları görürəm."

Həmçinin, "sizin də nurlu surətiniz görünür" dedi.

Bir sözlə, aydındır ki, hər kəs ölüm zamanı Əhli-Beyt (əleyhimussalam)-ı görsə, onlara mərifəti, məhəbbəti qədər bəhrə aparar.

Haris Həmdanidən məşhur bir hədisdə nəql olunub ki, Əmirəl-möminin Əli (əleyhissalam) buyurur: "Hər kəs ölüm zamanı bizi görəcəkdir; istər mömin olsun, istərsə də kafir."

Bəli, bu görüş möminlər üçün nemətdir. Onun dilruba camalını görmək bütün ləzzətlərdən ləzizdir. Amma bu görüş kafirlər və riyakarlar üçün Yaradanın qəzəbindəndir.

## *ÖLÜMDƏN SONRAKI XƏBƏRLƏR*

Can alındıqdan sonra ruh bədənin üzərində (üstündə) dayanır. Möminin ruhu asimanlara, kafirin ruhu isə aşağıya aparılır. Cənazə götürüləndə möminin "məni tez öz mənzilimə çatdırın!", kafirin isə "məni qəbrə aparmağa tələsməyin"! sədası gəlir. Möminə qüsl veriləndə mələk soruşur: "Dünyaya qayıtmaq istəyirsənmi"? Cavab verir: "Yox, bir daha dünyanın çətinliklərinə qayıtmaq istəmirəm."

Qüsl zamanı və dəfndə meyyitin ruhu iştirak edir: qüsl verən şəxsi görür, dəfn edənləri müşahidə edir, onların söhbətlərini eşidir. Bu səbəbdən də əmr olunmuşdur ki, meyyitin ətrafında qalmaqal salınmasın, müxtəlif söhbətlər edilməsin, çox get-gəl olunmasın, əksinə, zikr və Quran tilavətinə yer verilsin.

Bəzi mühəddislərin rəvayət etdiklərinə görə, elə ki, onu dəfn etdilər, ruh bədənlə başqa bir əlaqə və məhəbbət tapır. Dəfn edənlər getdikdə o, tək qaldığını anlayır və narahat olur.

Qəbirdə möminə verilən ilk müjdə odur ki, "Allah səni və dəfndə iştirak edənlərin hamısını bağışladı." Möminlər diqqətli olsunlar ki, canvermə, qüsl, kəfən və dəfn vaxtı məzhəbi mərasimə, müstəhəb hökmlərə riayət edilsin. Xüsusilə, müstəhəbdir ki, dəfn edənlər getdikdən sonra, meyyitin vəlisi geri qayıdıb, təlqin desin. Bu, sonuncu təlqindir. Bundan əvvəl iki təlqin vardır: biri canvermə halında, digəri isə dəfn zamanı.

## *QƏBİR SUAL-CAVABI*

Şiə məzhəbinin zəruriyyətlərindən və həmçinin, inanmalı olduğumuz bir şey də qəbirdə Münkər və Nəkrin sualıdır. Ümumiyyətlə, qəbir sorğusuna e"tiqadımız olmalıdır. Amma görək bu sorğu necədir? Görəsən həmin maddi bədənlərdir, yoxsa misali bədən ilə? Həmin torpaq qəbirdədir, yoxsa ruhdan sual olunur? Və ruh da bədənlə əlaqəli olduğuna görə, görəsən bu əlaqədən də tə"sirlənirmi? Bütün bunları bilmək üçün yenə də hədislərə müraciət etməkdən başqa bir yol yoxdur.

Əllamə Məclisi "Biharul-ənvar" kitabının 3-cü cildində və "Həqqül-yəqin"də buyurmuşdur: "Mö`təbər hədislərdən aydın olur ki, qəbir sorğusu və qəbir sıxıntısı əsl bədənlədir. Ruh ya bütün bədən, ya da bədənin bir hissəsinə qayıdır ki, (sinə və ya qurşağadək) sualı dərk edib, cavab verməyə qüdrəti olsun."

## *ƏQİDƏ VƏ ƏMƏLLƏRİN SORĞUSU*

Nədən sual olunduğunu bilməliyik. Qəbirdə əqidə və əməllərdən sual verilir. Deyirlər Rəbbin kim idi, Peyğəmbərin kim idi? Hansı dində idin? (Bu suallar yetkinliyə çatmamış uşaqları, divanələri, ağlıkəmləri çıxmaqla hər bir mömindən və kafirdən soruşulur.)

Həqiqi əqidəsi olanlar əqidələrini deyib, Allahın vahidliyinə, Həzrət Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm)-in risalətinə, Mə"sumların (əleyhimussalam) İmamətinə şəhadət verərlər. Əks halda isə, (həqiqi əqidəsi olmadıqda) dili tutular. Elələri də vardır ki, qorxudan mələklərə "sən Allahsan" deyərlər. Gah da cavab verərlər

ki, camaat deyirdi ki, Mühəmməd peyğəmbərdir, Quran Allah kitabıdır (yə"ni, cavabın öhdəsindən gəlməzlər). Xülasə əgər insan cavab verə bilsə, yuxarı tərəfdən qapı açılar, qəbir göz işlədikcə genişlənər; yə"ni, bu şəxs Qiyamət oyanışınadək uzanacaq Bərzəx aləmində rahatlıq içərisindədir. ("Vaqiə", 87) Ona deyərlər: "Yat, ərus yatışı ilə." ("Vaqiə" 93)

Əgər suallara cavab verə bilməsə Bərzəx Cəhənnəmindən bir qapı açılar, Cəhənnəm nəfəsindən bir külək qəbrini oda çəkər (bu cümlələr eynilə rəvayətdən götürülmüşdür).

## *QƏBİR SORĞUSUNUN FAYDASI NƏDİR?*

İnsanın mömin və ya kafir, əməlisaleh və ya bədəməl olduğunu Allah-Taala bilir. Bəs sorğu nə üçündür?

Mömin üçün qəbir sorğusu nemətə yetişməyin başlanğıcıdır. Qəbirdə gözəl qiyafəli, dilruba iki mələyi görən, onların gətirdiyi Behiştə məxsus gül və reyhan qoxusu iyləyən mömin çox xoşhal olur. Buna görə də bu mələklərin adı "Bəşir" və ya "Mübəşşir" (xoş müjdəçi)dir. Digər tərəfdən, möminlə sorğunun özü də onun üçün ləzzətdir.

Məktəbdə dərsini yaxşı oxuyan uşaqların sual-cavabdan ləzzət aldıqlarını görmüsünüzmü? Möminin də meyli olur ki, ondan Allahı barədə soruşulsun, o da kamil yəqinliklə Allahın vahidliyi və Peyğəmbərin risalətinə şəhadət versin.

## *ƏZAB MƏLƏYİ İLƏ GÖRÜŞ VƏ NARAHATLIĞIN BAŞLANĞICI*

Mömin kəs üçün qəbir sorğusu ləzzətlərin və rahatlıqların başlanğıcıdırsa, kafir şəxs üçün isə bədbəxtliklərin əvvəlidir. Mələklərin gəlişi kafir üçün qorxulu, dəhşətlidir. Rəvayətə görə, onlar gələrkən ildırım səsi verirlər, gözlərindən od sıçrayır, saçları yerlə sürünür. Kafir meyyitə qorxunc surətdə görünürlər. Elə bu səbəbdən də kafir üçün onların adları “Nəkir” və “Münkir” (müşkülçü, inkarçı)dır.

## *DİGƏR SUALLARDA ACİZ OLARLAR*

Bir ömür Allahı düşünüb tanımamış insandan Allah barədə soruşulanda, onun başına nə gələcəyi mə”lum məsələdir. Ömür boyu Allahı pul, şöhrət, rəyasət olub, aləmlərin Rəbbini yada da salmayıb. Belə insandan Rəbbi barəsində soruşulanda, onda elə bir titrəyiş yaranır ki, heç bir cavab verə bilməz. Bəziləri isə 1-ci suala cavab versələr də, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) barəsindəki sualda tutularlar. Bəziləri də digər haqq əqidələrdən verilən suallara cavab verə bilməz, ya da əqidə məsələlərindən ötüşsə də, əməllərinin sorğusunda aciz qalarlar.

## ƏMƏLLƏRDƏN SUAL OLUNAR

"Biharul-ənvar"ın 3-cü cildində nəql edilmişdir ki, qəbir sorğusunda əqidə məsələlərinə yaxşı cavab vermiş bir şəxsdən əməllər barədə soruşulanda, yenə də yaxşı cavab verdi. Xatırladıldı ki, bir məzlumu görüb fəryadına çatmadığın yadındadırmı?! Abrı, sərvəti əldən alınan o şəxsə kömək edə biləcəyin halda, dayandın. Bu sualın cavabında tutuldu. (Məzlumun fəryadına çatıb, kömək etmək vacib əməllərdəndir). Bir yerdə də öz vəzifəsinə əməl etmədiyindən, ona dedilər: "Sənin haqqında yüz taziyanə əzab hökm olunub." Vurulmuş ilk taziyanə qəbrini alovla doldurdu. Bəli, bir vacib vəzifəni tərk etməyin nəticəsi belədir.

Məqsəd budur ki, deməyəsiniz əməllərimiz doğrudur. Tutaq ki, əqidən düzgün oldu və bu düzgün əqidə ilə dünyadan getdin. Bəs əməllərin necə? İddia edə bilərsənmi ki, əməl baxımından qüsurlu deyilsən? Əgər mə"sum, günahsız şəxs "qəbrimdə Nəkir və Münkirin sualı üçün ağlayıram" deyərək nalə çəkirsə, mən və sən nə deyək?

## QƏBİR DOSTU ƏMƏLDİR

Aydındır ki, qəbirdə hər kəsin dostu, yardımçısı onun əməlləridir. Quranda və hədislərdə bu həqiqət təsdiq olunmuşdur. O cümlədən, mərhum Şeyx Səduq "Xisal", "Əmali", "Məanil-əxbar" kitablarında Qeys ibni Asimdən belə rəvayət edir: "Qeys ibni Asim Bəni-təmim qəbiləsindən bir dəstə ilə Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in xidmətinə müşərrəf olur və ərz edir: "Ya Rəsulələllah, bizə elə bir nəsihət ver (moizə et) ki,

ondan faydalanaq, axı biz səhralarda köçəri həyat keçiririk. Cənabınızın ziyarətinə az-az nail oluruq." Həzrətin onlara verdiyi nəsihətlərdən:

"Ey Qeys! Hökmən səninlə dəfn olunacaq bir yaxının (dostun) olmalıdır. O, diridir və öldüyün zaman onunla birgə dəfn olunarsan. Əgər o kərim olsa, səni əziz edəcək; və əgər lə"nətlənmiş olsa, alçaldacaq. Yalnız onunla birgə dirildiləcək, onun barəsində sorğu olunacaqsan. Onu yalnız saleh (yaxşı) qərar ver. Əgər o saleh olarsa, onunla üns yaradarsan; yox, əgər fasid olarsa, yalnız ondan dəhşətlər görərsən. O yaxın (varlıq), sənin əməlindir."

Qeys bu moizəni elə oradaca şe"rə çevirdi:

*Əməllərdən yardımçı seç özünə*
*Qəbir evində bir əməldir köməyin.*
*Şəksiz ki, bir zaman çıxacaq üzə*
*Onun gözəlliyi olsun istəyin.*
*Baş qatma hər işə, düşün Allahı,*
*Razılığı əsasıdır əməyin.*
*Dünyan, axirətin əmələ bağlı,*
*Bir xoş əməl qalxanı, min kötəyin.*
*Bəli, bir qonaqdı dünyada insan,*
*Haqq ayrılıq fərmanıdır fələyin.*

## *ALLAH BƏŞƏRİYYƏTİ QORXUDUR*

Ölümdən sonra yalnız əməllərin insana yardımçı olması haqqında Quran ayələri çoxdur. Onlardan yalnız birini xatırlamaqla kifayətlənirik:

"Yad et o günü ki, hər kəs yaxşı əməllərini hazır şəkildə öz yanında tapar. Eləcə də pis əməllərini tapar ki,

onların kənarlaşmasını arzulasa da, bu əməllər ondan ayrılmaz. Allah sizi Öz qəhrindən qorxudur və O, Öz bəndələrinə mehribandır.” (“Ali-imran”, 30)

Məhz bu səbəbdən də Öz peyğəmbərləri vasitəsi ilə bəşəriyyətə saysız xəbərdarlıqlar çatdırmışdır.

## *PİS ƏMƏLLƏRİN QORXUNC SURƏTİ QƏBİR YOLDAŞIDIR*

Şeyx Bəhaidən nəql olunur ki, buyurdu: “İsfahan qəbiristanlığında daim məqbərə üstə ibadətdə məşğul olan bir dostum vardı. Ara-bir onu görməyə gedərdim. Bir gün ondan soruşdum ki, qəbiristanın təəccüblü işlərindən nə görmüsən? Dedi: Dünən qəbiristana bir cənazə gətirib, bir küncdə dəfn etdilər və qayıtdılar. Qürub zamanı pis bir qoxu qalxdı və məni də narahat etdi. Ömür boyu belə qoxuyla rastlaşmamışdım. Qəfildən itə oxşar qorxunc bir heykəl gördüm, pis qoxu da ondan gəlirdi. Bu surət həmin qəbrə yaxınlaşdı, onun üstündə görünməz oldu. Bir az keçməmiş ətrafı xoş ətir bürüdü ki, belə qoxu ömür boyu duymamışdım. Bu zaman gözəl, dilruba bir surət gəlib həmin qəbrin başında yox oldu. (Bunlar mələkut aləminin qəribəliklərindəndir və bu surətlərdə zahir olarlar.) Bir az keçəndən sonra həmin gözəl surət qəbirdən çıxdı. Amma yaralanmış, qana bulaşmışdı. Dedim, ey Rəbbim, bu işlərin hikmətini mənə anlat, bu surətlər nədir? Mənə anladıldı ki, gözəl surət onun yaxşı əməlləri, qorxunc heykəl isə pis əməlləri idi. Pis əməllər çox olduğundan, qəbir yoldaşı da o oldu. (Pislik paklanıb, növbə gözəl surətə çatanadək.)

## *QƏBİR SIXINTISI (TƏZYİQİ) HƏQİQƏTDİR*

Əllamə Məclisi "Həqqül-yəqin"də buyurmuşdur: Qəbir sıxıntısı, onun savab və cəzasını bütün müsəlmanlar qəbul edir. Mö"təbər hədislərdən aydın olur ki, qəbir sıxıntısı əsl bədən üçündür. Bu sıxıntı ümumi deyildir, yə"ni hamıya aid deyildir və günahkarlara məxsusdur. (Eləcə də, onun şiddətli və ya zəif olması günahla əlaqəlidir.)

Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) buyurmuşdur: "Mömin üçün qəbir sıxıntısı ondan zay olan şeylərin, ilahi nemətləri zay, puç etməsinin kəffarəsi, cəriməsidir." Mərhum Kuleyni Əbu Bəsirdən olan mö"təbər sənəd əsasında rəvayət edir ki, o deyib: "Həzrəti Sadiq (əleyhissalam)-dan soruşdum ki, kimsə qəbir sıxıntısından nicat tapacaqmı"? Buyurdu: "Çox az adamların azad olacağı şeydən Allaha pənah aparıram!"

Qızı Rüqəyyə vəfat etdiyi zaman Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) onun qəbri üstə durub, başını göyə qaldırdı, gözlərindən yaş axıtdı və camaata buyurdu: "Bu məzlum qıza edilənlər yadıma düşdü, qəlbim riqqətə gəldi, Rəhim Allahdan istədim ki, onu mənə bağışlayıb, qəbir sıxıntısından azad etsin." (Allah onu Həzrət Rəsula bağışladı).

Qəbir sıxıntısı günah səbəbindən olduğu üçün, az adam tapılar ki, ondan azad olsun. Hətta evdə qadınla, uşaqla pis rəftar da qəbir sıxıntısına səbəb olar. Buna şahid gətirmək, həmçinin, qəbir sıxıntısının əhəmiyyətini, ondan çox az adamın nicat tapacağını bilmək üçün Səd ibni Məaz barəsindəki məşhur hədisi zikr edirik:

## *SƏD DƏ QƏBİR ƏZABI GÖRDÜ*

Ənsarın rəisi Sə"d ibni Məaz Peyğəmbər (səlləllahu əleyhi və alihi və sülləm) və müsəlmanların yanında çox möhtərəm idi. Süvari halda gəldiyi zaman Həzrət buyurdu ki, müsəlmanlar onun istiqbalına getsinlər. Məaz içəri daxil olanda Allahın Rəsulu (səlləllahu əleyhi və alihi və səlləm) özü ayağa qalxdı. Yəhudilərin hakimliyi ona tapşırılmışdı. Məaz vəfat edəndə 70 min mələk onun dəfnində hazır olmuşdu və Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) yalın ayaqlarla onun tabutunu çiyninə götürdü və buyurdu: "Məlaikələrin cərgələri Məazın dəfnində hazır idilər, əlim Cəbrailin əlində idi, hara gedirdisə, mən də gedirdim." Bir sözlə Həzrətin yanında belə hörmətli olan, bu sayaq şərəflə dəfn olunan Məazı Həzrət öz əliylə qəbrə qoyanda, "xoş halına, Behişt sənə ruzi oldu" deyə anası dilləndi. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) buyurdu: "Hardan bilirsən ki, oğlun Behişt əhlidir? İndi Məaz qəbir sıxıntısındadır"! Səhabələr soruşdular ki, ya Rəsuləllah, Səd kimi insan qəbir sıxıntısındadır? Buyurdu: Bəli."

Digər rəvayətdə Məazın qəbir sıxıntısının səbəbi onun ailədə tünd rəftarlı olması ilə əlaqələndirilmişdir.

## *BÜTÜN ŞƏRAİTLƏRDƏ QƏBİR SIXINTISI MÜMKÜNDÜR*

Kuleyni, Yunisdən rəvayət edir ki, İmam Riza (əleyhissalam)-dan sual etdim: Dar ağacında asılmış adama qəbir əzabı yetişərmi? (Qədimdə dara çəkilənləri

öləndən sonra da aşağı salmazdılar, necə ki, şəhid Zeyd (əleyhissalam) 3 il dar ağacında qaldı.) İmam (əleyhissalam) buyurdu: Bəli, Allah havaya əmr edər ki, onu sıxsın.

Digər rəvayətdə İmam Sadiq (əleyhissalam) buyurur: "Torpağın və havanın yaradanı bir Allahdır. Havaya vəhy edər və hava qəbirdən daha pis sıxar." Su da eynən.

## *QƏBİR SIXINTISININ SƏBƏBLƏRİ*

Əvvəlki söhbətlərdən qəbir əzabının səbəbləri məlum oldu-ilahi nemətləri heç etmək, inkar etmək və ailədə tünd xasiyyətlilik, acı dillilik.

Rəvayətə görə qəbir sıxıntısının digər səbəbləri sidik murdarlığından qorunmamaq, həmçinin töhmət, böhtan və qeybətdir. Ruhun sıxıntısından mümkündür ki, bədən də tə"sirlənsin. Əksinə, gözəl rəftarı, xoş əxlaqı olanlarsa, genişlikdə, vüs"ətdədirlər. Əlbəttə, burada da mərtəbələr vardır. Kimisi üçün yeddi zira (barmaqlardan dirsəyə qədər olan məsafə, ölçü), kimisi üçün yetmiş zira, bir qisim adam da göz işlədikcə genişlikdədir (yə"ni ruhları genişlikdədir).

## İKİNCİ FƏSİL:

### *BƏRZƏX*

Bərzəxin lüğət mənası "pərdə" deməkdir-yə"ni, iki şeyin arasında dayanıb, onların qovuşmasına mane olan pərdə. Məsələn, şor və şirin sular hərəkətdə olsalar da Allah onların arasında maneə qərar vermişdir ki, heç biri digərini aradan aparmasın. (54-cü surə, 19-cu ayə)

Adi mənada bu maneəyə bərzəx deyilir. Əslində isə Bərzəx Allah-Taalanın dünya və axirət arasında yaratdığı aləmdir-dünya və axirət işləri arasındakı bir aləm!

### *NEMƏT VƏ CƏZALARDA ORTA HƏDD*

Bərzəxdə bu dünyanın zəruriyyətlərindən olan başağrı və dişağrı kimi dərdlər yoxdur. Maddi olmayan (mücərrəd) bərzəx aləmi axirət kimi də deyil-yə"ni, burada günahkarlar üçün mütləq zülmət və itaət əhli üçün mütləq nur yoxdur. İmamdan Bərzəxin vaxtı barədə sual olunanda buyurub: "Ölüm saatından başlamış qəbirdən ayağa qaldırılanadək."

Qurani-Məciddə buyurulur: "...Qiyamətədək Bərzəxdir." ("Möminun" surəsi)

## *MİSALİ ALƏM VƏ MİSALİ BƏDƏN*

Olduğumuz aləmə oxşadığına görə Bərzəxə misali aləm də deyirlər. Bu oxşarlıq zahiri formaya görədir, maddilik və digər xüsusiyyətlərə görə isə fərqlidirlər. Ölümdən sonra elə bir aləmə daxil oluruq ki, bu dünya ona nisbətən ana bətnini xatırladır.

Bərzəxdə bədən də misali bədəndir, yə"ni formaca bu dünyadakı bədənin eynidir, lakin maddi deyildir. Bu bədən havadan da lətifdir. Və ona mane olası onun qarşısını alacaq bir şey yoxdur. Qərar tuduğu nöqtədə hər şeyi görür və onun üçün divarın bu tərəfi, o tərəfi yoxdur. İmam Sadiq (əleyhissalam) buyurur: "Misali bədəni görsəniz, elə həmin dünyəvi bədəndir, deyərsiniz. Əgər vəfat etmiş adamı yuxuda görsəniz, həmin dünyəvi bədəndə müşahidə edərsiniz, hansı ki, onun maddi cismi qəbirdədir. Siz gördüyünüzsə misali bədəndir. Bərzəx bədəninin bu günkü gözlərimiz şəklində gözləri var, amma bu gözlərin piyi, eləcə də göz ağrısı onda yoxdur."

Bu gözlər Qiyamət gününədək görür, özü də yaxşı görür və dünyadakı gözlər kimi zəifləyib eynəyə möhtac olmur.

## *İKİ ŞƏRT DAXİLİNDƏ GÜZGÜDƏKİ SURƏTƏ OXŞATMA*

Hikmət sahibləri və mütəkəllimlər iki şərt daxilində bərzəx bədənini güzgüyə düşmüş surətə oxşatmışlar: birincisi, o, güzgüdə yox, öz zatı əsasında dayanır; ikincisi isə onun dərki, şüuru vardır.

Onun oxşarı yuxudakı şəxsdir ki, bir göz qırpımında uzun məsafələri ötüb Məkkəyə, Məşhədə gedir. O aləmdə

növbənöv yeməli, içməli, nuş ediləsi nemətlər və gözəl surətlər, nəğmələr vardır ki, dünya sakinlərində o vücudlara taqət yoxdur. Ruhlar həmin misali bədənlərlə bütün sadalanmışlardan bəhrələnir və ruzi yeyirlər. (3-cü surə, 169-cu ayə)

## *BÜTÜN QİDALAR BİR QİDADA TOPLANMIŞLAR*

Əlbəttə, o aləmin bütün nemətləri maddi yox, lətifdir. Rəvayətlərdə buyurulmuşdur ki, vahid bir şey möminin istəyi ilə müxtəlif növlərə çevrilə bilər. Məsələn, bir meyvə sənin istəyinlə başqa meyvə olar.

Həzrət Rəsul (səlləllahu əleyhi və alihi və səlləm)-dan rəvayət olunmuşdur ki, (Həmzə (əleyhissalam)-ın şəhadətindən sonra) buyurdu: "Seyyidüş-şühəda əmim Həmzəni gördüm ki, qarşısında Behişt meyvələrindən bir tabaq var idi. O meyvələrdən meyl edirdi, onun istəyi ilə birdən nar üzümə döndü, üzümdən yedi, yenidən üzüm xurmaya çevrildi."

Bəli, lətif olduğundan, bir şey başqasına çevrilir.

## *TƏSİR GÜCÜ*

Bərzəx aləminin bu fani dünyadan üstünlüklərindən biri orada tə"sir gücünün böyüklüyüdür. Ali hikmətdə hamıya deyiləsi olmayan bir həqiqət vardır ki, bu həqiqətə yalnız işarə edib, ötürük. (Dərk edən və dərk olunan lətif, qeyri-maddi olduqca idrak da güclənir).

Dünyadakı meyvələr, şirnilər onlardan aldığımız ləzzət bərzəx aləminin meyvə, şirni, ləzzətlərinin bir damlasıdır. Deyilənlərin əsli isə bərzəxdədir. Əgər hurül-eynin surətindən bir qədər açılarsa, gözlər qamaşar. Əgər huri

bu dünyada görünsə, nuru günəşi kölgədə saxlayar. Bəli, mütləq cəmal oradadır. Rəbbimiz Quranda buyurur: “Biz yerdə olanları ona zinət qərar verdik. Bir zinət ki, imtahan üçündür.” (18-ci surə, 6-cı ayə)

Bəli, kiçik böyükdən, uşaq aqildən seçilsin, bu oyuncağa kimin sevindiyi bilinsin. Bütün bunlara aldanmayan şəxsləri həqiqi ləzzət, gerçək cəmal, doğru səadət gözləyir.

## *QƏBİR SAHİBİNİN DƏ”VƏTİ*

Beləcə, bərzəx aləmində tə”sir gücü, tə”sir qüvvəsi bu dünyadakı tə”sirlərə müqayisə olunası deyil. Bəzən bu dünya sakinlərinin qarşısına mövzumuzla əlaqəli nümunələr çıxır ki, başqaları üçün ibrət olsun.

Mərhum Nəraqi “Xəzain”də, inanılmış səhabəsindən belə nəql edir: “Mən cavanlıq dövründə, İsfahanda Novruz bayramı münasibətilə atam və dostlarımla gəl-get edirdik. Çərşənbə axşamı dostlardan biri ilə görüşə getdik. Onun mənzili qəbirstanın yaxınlığında olurdu. Azca dincəlmək və dünyasını dəyişənləri ziyarət etmək üçün yolüstü qəbirstanlığa döndük. Oturduğumuz yerdə dostlardan biri zarafata üzünü bir qəbirə tutub dedi: “Ey qəbir sahibi, Novruz bayramıdır”? Qəfildən bir səs ucaldı: “Gələn çərşənbə axşamı hamınız mənə qonağsınız.” Dəhşətə gəldik. Fikirləşdik ki, yə”qin gələn çərşənbə axşamınadək ölüm bizi haqlayacaq. İşlərimiz sahmanlayıb, vəsiyyətimizi etsək də ölümdən bir xəbər çıxmadı.

Deyilən gün bir az günortadan ötmüş toplaşıb, fikirləşdik ki, həmin qəbirin üstünə gedək. Bəlkə heç məqsəd bizim ölümümüz deyilmiş. Qəbirə yetişəndə

aramızdan bir nəfər dilləndi: "Ey qəbir sahibi, öz və"dənə əməl et"! Bir səs ucalıd ki: "Buyurun"! (bəzən ibrət xatirinə Allah bərzəxin görünməsi üçün gözlərdən pərdələri götürər). Gözlərimizin önü dəyişdi. Məlakuti (bəsirət) gözlərimiz açıldı. Son həddə təravətli, səfalı bir bağ göründü. Bu bağda nəhrələrdən saf sular axırdı. Ağaclarda bütün fəsillərə məxsus, növbənöv meyvələr vardı. Bu ağaclarda xoşsəsli, növbənöv quşlar oxuyurdu. Son həddə zinətli bir imarət bu bağın ortasında idi. İmarətə daxil olduq. Nəhayət həddə gözəl bir şəxs əyləşmişdi. Bizi görüb ayağa qalxdı, üzr istədi. Dünyada görüb təsəvvür etmədiyimiz nemətləri orada müşahidə etdik.

## *ƏSKİK SATMAQDAN UZAQLIQ VƏ NAMAZIN İLK VAXTDA QILINMASI*

Məqsədim diqqətinizi bu deyilənlərə yönəltməkdir: "Yediklərimiz o qədər ləzzətli idi ki, heç vaxt belə ləzzətlər dadmamışdıq. Nə qədər yeyirdiksədə, doymurduq. Növbənöv şirnilər, meyvələr, müxtəlif dadlı, cürbəcür yeməklər gətirirdilər. Bir saat ötəndən sonra qalxdıq ki, görək sonrası nə olacaq. Həmin şəxs bizi bağın kənarınadək müşayət etdi. Atam ondan soruşdu: "Siz kimsiniz ki, Allah-Taala bu geniş dəstgahı sizə inayət edib, bütün aləmi qonaq edə bilərsiniz? Bura haradır"? O buyurdu: "Mən sizin həmvətəninizəm. Filan məhəllənin qəssabı idim. Bu məqama çatmağımın iki səbəbi vardır: 1-ci odur ki, alverimdə heç vaxt əskik, yüngül satmamışam. Digəri budur ki, ömür boyu namazlarımı əvvəl vaxtında qılmışam. Əti tərəziyə qoyanda azançının "Allahu əkbər" sədası ucalan kimi işimi saxlayıb, məscidə namaza

getmişəm. Öləndən sonra bu məqamı mənə verdilər. Ötən həftə istədiyinizi yerinə yetirməyə icazəm olmadı. Bu həftə üçün izn aldım. Sonra öz ömrümüzün müddəti barədə suallar verib, cavab aldıq. "Sən 90 il yaşayacaqsan" dediyi adam hələdə sağdur. Mənə dediyi müddətdən hələ ki, 10 il qalır. Nəhayət, xudahafizləşdik, bizi yola saldı. Geri dönmək istəyəndə özümüzü həmin qəbirin yanında gördük."

## *BƏRZƏX ALƏMİNDƏ LƏZZƏTİN DAVAMI*

O aləmin xüsusiyyətlərindən biri ləzzətlərin davamlı olmasıdır. Bu dünyada isə əbədi şey yoxdur. Gözəllik ötəri, ağzına qoyduğun təamın ləzzəti müvəqqətr, izdivac da eləcə.! Meyvələrin, xörəklərin də davamı yoxdur, qısa müddətdə xarab olub aradan gedir. Ümumiyyətlə, dünya davam yeri deyil. Bərzəx aləmi isə maddilikdən, tərkibdən uzaq olduğu üçün davamlıdır. Dediklərimin sübutu üçün öz zamanının çox böyük alimi, mərcəyi-təqlidi Əllamə Şeyx Mehdi Nəraqinin "Müstənədüş-şiə" kitabından bir qəziyyə də nəql edirəm. Həqiqətləri ümumi kütlələr hekayələr əsasında daha asan qavradığından bu gerçək qəziyyələrdən nəql olunur.

## *BUĞDA DOLU ƏBA*

"Darüs-səlam" kitabının sonunda Şeyx Məhmud Əraqi mərhum Nəraqidən nəql edir ki, o cənab buyurur: Nəcəfdə olduğum zaman möhkəm bir qıtlıq baş verdi. Bütün uşaqlarım ac olduğu bir halda evdən bayıra çıxdım. (uşaqlar aclıqdan nalə çəkirdilər). Əmvatın ziyarəti üçün Vadiyüs-səlama getdim. Bir cənazə

gətirdilər, mənə də "bizimlə gəl" dedilər və əlavə etdilər: "Bu cənazəni ruhlara qovuşdurmağa hazırıq." Onu geniş bağa daxil edib, ali bir qəsrdə yerləşdirdilər. Burada bütün yaşayış ləvazimatı vardı. Onların ardınca qəsrə daxil olanda qızıl taxtda oturmuş bir cavan gördüm. O məni görüb adımla çağırdı, salam verdim, yanında yer verdi, hörmət göstərdi. Sonra dedi: "Mən gördüyün həmin cənazənin sahibiyəm (adını, şəhərin adını dedi). Gördüyün cəmiyyət məlaiklər idi ki, məni öz şəhərimdən bu bərzəx Behiştinə gətirdilər." Bu sözləri eşidib, sakitləşdim, bağı seyr etdim. Bu bağdan kənarda da qəsrlər vardı. O qəsrlərdə atam, anam və bəzi tanışları gördüm. Məni də"vət etdilər, tə"amlarından yedim. Ləzzətin nəhayət həddində ikən yadıma ailəm düşdü ki, indi acdırlar, qəmkin oldum. Atam soruşdu ki, Mehdi, sənə nə oldu? Dedim ki, uşaqlarım acdırlar. "Bu buğda anbarıdır götür" dedi atam. Əbamı buoda ilə doldurdum. Bir də gördüm əbam buğda ilə dolu halda Vadiyüs-səlamda, əvvəlki yerimdə oturmuşam. Evə gəldim. Əyalım "bu buğdanı haradan gətirdin"? deyə sual verdi. Demədim. Bir müddət həmin buğdadan istifadə etdik, buğda qurtarmırdı.

Qısası, mərhumun əyalı çox israr edir və o bu məsələni açır. Növbəti dəfə qadın buğda üçün gedəndə, buğdadan əsər-əlamət qalmadığını görür. Bu qəziyyənin oxşarları "Darxs-səlam" kitabında zikr olunub. İstəyənlər müraciət edə bilərlər.

## *ÖLƏNLƏRİN NALƏSİNİ HEYVANLAR EŞİDİRLƏR*

Bərzəx aləminin nemətləri kimi, əzabları, bəlaları da davamlıdır. Allaha pənah aparaq. Əgər bərzəx əzabına

düçar olmuş bir şəxsin naləsi qulağımıza çatsa, dünya bəlaları nəzərimizdə heç olar.

Rəsullullah (səlləllahu əleyhi və alihi və səlləm) buyurdu: "Beətdən (risalətə çatmazdan) əvvəl qoyun otardığım zaman bəzən qoyunların heyrətli bir hala gəldiyini müşahidə edirdim. Amma qurd gözə dəymirdi. Vəhy nazil olduqdan sonra Cəbraildən bunun səbəbini soruşdum. Dedi ki, bərzəx aləmində (bərzəx Cəhənnəmində) ölülərin naləsi ucalanda cin və insandan fərqli olaraq, heyvanlar bu sədanı eşidər və narahat olarlar."

## *HAŞİMİNİN QATİLİNİN YUXUDA NALƏLƏRİ*

Səduq (r)ın "Səvabul-əal" kitabında nəql olunub ki, İmam Hüseyn (əleyhissalam)-ın qardaşlarından birini qətlə yetirmiş misilsiz gözəl surətli bir cavanın surəti Kərbəla hadisələrindən sonra qır tək qaralmış, zifləmişdi (ravidən nəql olub). Onun vəziyyətini qonşularından soruşanda, dedilər: Kərbəla səfərindən qayıdandan sonra gecələr o qədər nalə çəkir ki, bizi də yuxudan oyadır. Yanına gedib, əhvalını özündən soruşdum. Dedi: "Öldürdüyüm haşimi cavan hər gecə gəlir, məni atəşə tərəf çəkir. O qədər nalə çəkirəm ki, yuxudan oyanıram." Bu nalələr və üzüqaralıq sonrakı əzabın bu dünyada görünən mində bir zərrəsidir.

## *ƏTTARIN MÖİZƏSİ VƏ VERDİYİ BORCU İSTƏYƏN YƏHUDİ*

Bərzəx əzabının bu dünyada zuhuru üçün çox əsaslar vardır ki, onları xatırlamaq uzun çəkər. Təkcə "Darüs-

səlam”da zikr edilmiş bir qəziyyəni nəql edirik. Zahid alim Seyyid Haşim Bəhrani buyurmuşdur: “Nəcəfdə bir əttar (ətir satan tacir) vardı. Hər gün günorta namazından sonra dükanında camaata moizə edərdi və məclisi heç vaxt boş olmazdı. Bir hind şahzadəsi bu şəxsin yanında içində nəfis gövhərlər və qiymətli cəvahirlər olan sadıqçanı əmanət qoyur. Geri qayıdıb əmanətini geri götürmək istəyəndə, əttar əmanət qoyulduğunu inkar edir. Hər yerdən əli üzülən hindu Həzrət Əmirəl-möminin (əleyhissalam)-ın pak qəbrindən yardım istəyib, dedi: “Ya Əli, mən sənin qəbrinin yanında qalmaq üçün vətənimi, rahatlığımı tərk edib, olanımı əttara əmanət verdim. İndi o inkar edir, mənimsə nə başqa bir şeyim, nə də şahidim var. Səndən başqa dadıma yetəcək bir kimsə yoxdur.”

Axşam yuxuda Həzrət Əli (əleyhissalam) buyurdu ki, sübh şəhər darvazasında çıx, gördüyün birinci adamdan əmanətini istə. Yuxudan oyanan kimi şəhərdən çıxdı. Gördüyü ilk adam ailəsinin ehtiyacı üçün dalındakı şələni satmaq istəyən qoca bid oldu. Hindu ondan bir şey istəməyə utandı və pak məzara qayıtdı. İkinic kecə də həmin yuxunu və sübh həmin şəxsi gördü, amma yenə də bir söz demədi. Üçüncü dəfə də eyni yuxunu görüb, səhəri həmin abidlə rastlaşdı.

Bu dəfə vəziyyətini ona danışıb, əmanətini istədi. O şərif şəxs bir az fikirləşib, sabah günortadan sonra əttarın dükanına gəl, əmanətini çatdırım-dedi.

Səhəri gün camaat əttarın dükanına yığışdığı vaxtda abid kişi gəlib, buyurdu: Bu gün moizə etməyi məni öhdəmə qoy.

Əttar qəbul etdi. Abid buyurdu: Ey camaat, mən filankəsin oğlu filankəsəm. Xalqın haqqında bərk

qorxanam. Allahın yardımı ilə qəlbimdə dünya malına məhəbbət yoxdur. Qənaət, üzlət əhliyəm. Amma bütün bu tə"riflərə baxmayaraq, başıma çox acı bir hadisə gəlib ki, sizə danışmaq istəyirəm. Sizin ilahi əzabın şiddəti , Cəhənnəm odunun yandırması ilə qorxutmaq, cəza gününün bəzi xəbərlərini sizə çatdırmaq istəyirəm. Bir gün mən borc almağa məcbur oldum. Bir yəhudidən 10 qran aldım və 20 günə qaytarmağa şərtləşdik-yə"ni gündə yarım qran. On gün yarım qran qaytarandan sonra yəhudimi görə bilmədim. Sonra yuxuda Qiyamətin başlandığını gördüm. Məni və sair adamları hesab üçün ayırdılar. İlahi fəzldən, mən Behişt əhlindən olub, Behiştə tərəf hərəkət etdim. Sirata çatanda Cəhənnəmin nərəsini eşitdim. Borclu qaldığım yəhudinin Cəhənnəmdən alov şöləsi tək ayrılıb yolumu kəsdiyini gördüm. "Mənim 5 qranımı ver, get"! dedi. Ağlayaraq dedim: "Mən səni axtardım ki, borcunu qaytaram." Nə qədər dedimsə buraxmadı. "Onda qoy bir barmağımı bədəninə toxundurum." Razı oldum. Bədənimə tohunan barmağının dağlayıcı sutisindən yuxudan oyandım və sinəmdə onun barmağının yarasını gördüm. bəli, ində də yaralıyam və etdiyim dərmanlar heç bir fayda vermir."

Bunu deyib, qoca abid sinəsini açdı, yaranı görən adamların naləsi qalxdı. Əttar ilahi əzabın çətinliyindən qorxuya düşdü. həmin hindunu evinə aparıb, əmanətini qaytardı və üzr istədi.

## *KİMSƏ İNKAR ETMƏDİ*

Əql hökm edir ki, eşitdiyimiz sözlər qeyri-mümkün (məhal) deyilsə, onu inkar etməməli, əksinə, mümkün hesab etməliyik. Məsələn, bir astranom Ayın Yerin

ətrafında fırlandığını, Marsın da ətrafında fırlanan ulduzların (peyklər) mövcud olduğunu deyirsə, görəsən bu xəbəri eşidəndə inkar etməliyikmi?! Əksinə, mümkündür ki, bu xəbər doğru olsun. Şeyxür-Rəis deyir: "Əgər eşitdiyiniz xəbərin ziddinə dəliliniz yoxdursa, onu mümkün hesab edin. Məsələn, eşitsəniz ki, dünyaya ikibaşlı uşaq gəlib, əql üçün qeyri-mümkün olmadığında, bu xəbəri mümkün bilin."

## *ÜÇ NÖV XƏBƏR*

1. Qeyri-mükünlüyünə əqli dəlil olmayan xəbər inkar edilməməlidir.
2. Ziddinə dəlil olmamaqla yanaşı, bu xəbərə sadiq və doğruçu şahid varsa, əqlin hökmü ilə bu xəbər qəbul olunmalıdır.
3. Əgər xəbər verən şəxsin Allah-Taala tərəfindən mö"cüzə kimi bir sənədi, şəhadətnaməsi varsa, bu xəbər tam yəqinliklə qəbul olunmalıdır.

## *MƏADIN OLMAMASINA ƏQLİ DƏLİL YOXDUR*

Ölümdən sonra sual-cavabın olmayacağına kimin dəlili var?! Kim iddia edə bilər ki, qəbir sıxıntısı, bərzəx və Qiyamət yoxdur?! Siz əql sahibləri özünüz mühakimə edin: bir astronomun "Marsla Merkuri arasında dörd min ulduz var" deməsi ilə Həzrət Peyğəmbərin "kafir üçün qəbirdə 99 əjdaha var" deməsinin nə kimi fərqləri var? Əgər kimsə iddia edərsə, astronom hiss vasitəsilə deyib, bilməlidir ki, Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) də hiss vasitəsi ilə xəbər verib. Dində məhşur "Mer"ac" gecəsində o Həzrət hər şeyi gövdü və

müqəddəs ruhu hər şeydən xəbərdar oldu. bəli, hissin əyri-əskiyi ola bilər, amma Həzrətin qəlb gözü yanıla bilməz.

## *HƏZRƏT MƏHƏMMƏD (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİHİ VƏ SƏLLƏM) MÜTLƏQ DOĞRUÇUDUR*

Bəli Həzrət (səlləllahu əleyhi və alihi və səlləm)-in buyurduqları atronomların dediklərindən qat-qat ucadır. Onun dediklərini inkar etmək əqli zəiflikdəndir. Buyurduqlarının ziddinə heç bir dəlil olmayan Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) mütləq doğruçudur. Hələ İslamdan əvvəl onu Məkkədə "Əssadiqül-əmin" adlandırmışdılar. Onun peyğəmbərlik sənədi və əbədi mö"cüzəsi Qurani-Kərim hər zaman qarşımızdadır. Belə bir şəxsin qəbir sorğusu, Qiyamət barədə buyurduqlarını necə qəbul etməmək olar?!

## *HƏZRƏT ƏLİ (ƏLEYHİSSALAM)IN ANASININ DƏFN MƏRASİMİ*

Fatimə binti Əsəd vəfat edəndə Əli (əleyhissalam) Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in hüzuruna ağlar gəlib, anam dünyadan getdi" xəbərini verdi. Bir müddət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)a analıq etmiş bu sevimli qadın haqqında Həzrət buyrdu: "Mənim anam dünyadan gedib." Kəfən zamanı Həzrət öz köynəyini gətirib, "ona bürüyün" buyurdu. Sonra qəbirdə bir müddət uzanıb dua etdi. Dəfndən sonra qəbrin başında dayandı və birdən uca səslə "ibnəki, ibnəki, la Əqil, la Cəfər" dedi. Həzrətdən bu əməllərin səbəbini soruşulanda buyurdu: "Bir gün Qiyamətin

üryanlığından söhbət düşəndə, Fatimə ağlayıb, onu öz göynəyimə bükməyimi istədi. Qəbir əzabından qorxduğu üçün qəbirdə uzanıb, dua etdim. Qəbirdə Allah və Peyğəmbər barədə olan suallara cavab verən Fatimə İmam barəsindəki sualda tutuldu (çünki İmamət əmri aşkar olmamışdı), ona görə mən dedim ki, Cəfər yox, Əqil yox, söylə oğlun Əli."

## *FATİMƏ GƏLƏCƏK ƏZABDAN QORXUR*

Fatimə binti Əsəd kimi əzəmətli bir şəxs, Kəbə daxilində üç gün Allaha qonaq qalmış kəs, Həzrət Əli (əleyhissalam)-ın pak vücudunu böyütmüş ana, Peyğəmbərə ikinci iman gətirmiş qadın, o sayaq ibadət əhli sonrakı əzablardan bu cür qorxursa və Rəsulullah (səlləllahu əleyhi və alihi və səlləm) ona bu sayaq kömək edirsə, gəlin biz də özümüzü fikirləşək.

Qayıdaq söhbətimizin davamına.

## *CİSMANİ BƏDƏNƏ RUHUN TƏSİRİ*

Bərzəxdə nemət və ya əzab ruha aid olsa da bəzən ruhun qüvvəsindən bədən də tə"sirdə olur. Bəzən ruhun həyat qüvvəsindən qəbirdəki bədən min il ötsə də, çürümür, təravətini itirmir. Sübut üçün çox mövzular vardır. Məsələn, təqribən Fətəlişah döründə təmir məqsədi ilə İbn Babəveyhin (r) sərdabəsini açır və cənazənin, kəfənin zərrəcə çürümədiyinə şahid olurlar. Ən maraqlısı isə odur ki, dəfndən doqquz yüz il keçməsinə baxmayaraq, onun dırnaqlarındakı hənanın rəngi getməmişdi.

## *SƏDUQUN CƏSƏDİ TƏRAVƏTLİ QALMIŞDI*

“Rovzatül-cənnat” kitabında yazılır: 1238-ci ildə güclü yağış Şeyx Səduqun (r) məqbərəsini uçurtdu. Tə”mir məqsədi ilə şərif qəbrə daxil oldular və cəsədin tamamilə səhih, salamat qaldığını gördülər. Cənazənin dırnaqlarında hənanın əlamətləri vardı. Bu xəbər Tehranda yayılıb, Fətəlişahın qulağına çatdı. Sultan özü bir dəstə alim və dövlət işçiləri ilə bu xəbəri yoxlamağa gedib, deyilənlərin həqiqiliyinə şahid oldular. Sultan binanın tə”mir edilib, güzgülənməsini əmr etdi.

## *HÜRRÜN TƏRAVƏTLİ CƏSƏDİ VƏ BAŞINDAKI DƏSMAL*

Mühəddis Cəzairi “Ənvari-nö”maniyyə” kitabında Hürr ibni Yəzidin qəziyyəsini nəql edir: Şah İsmail Səfəvi Kərbəlaya gəldiyi vaxt eşidir ki, (Kərbəlada Yezid qoşunundan üz döndərib İmam Hüseyn Əleyhissalamın yoldaşlarına qoşulan) Hürrə tə”nə edib, onun haqqında pis danışanlar var. Onun Allah-Tərəfindən bağışlanıb, sevimli bəndə olmasını sübut etmək üçün Şah İsmail qəbrin açılmasını əmr edir. Qəbri açıb, cənazənin təravətli qaldığına şahid olurlar. Sanki, yenicə şəhid olmuş Hürrün başında Həzrət Hüseyn (əleyhissalam)-ın dəsmalı bağlanmışdı (Tarixə görə Aşura günü bu dəsmalla İmam Hürrün yarasını bağlamışdı). Şah İsmail bu dəsmalı öz kəfəninə qoymaq üçün açdırır. Qan axdığını görüb, yaranı başqa dəsmalla bağladılar, amma qan dayanmadığından həmin dəsmalla bağlamağa məcbur oldular. Hadisə Hürrün haqqındakı pis fikirləri aradan

götürdü. Şah İsmail burada məqbərə tikdirib, xidmətçi tə"yin etdi.

## *KULEYNİNİN QƏBRİNDƏ SÜDƏMƏR KÖRPƏ*

Məşhur "Kafi" kitabının müəllifi Kuleynini qəbri Bağdadda yerləşir. Zalım hakimlərdən biri Kazimeynə ziyarətin qarşısını almaqdan ötrü İmam Kazim (əleyhissalam) qəbrini uçurmaq fikrinə düşür. Qəlbən şiə olan vəzir öz əqidəsini açmamaqla, yolüstü Kuleyninin qəbrini hakimə göstərib, deyir: Gördüyün qəbir İmamın nümayəndələrindən birinin qəbridir. Deyirlər ki, onun cəsədi çürüməyib, təzədir. Gəl, bu sözü yoxla. Əgər doğru çıxsa, İmamımn qəbrinə toxunmağın məsələhət deyil." Hakim qəbul etdi. Dərhal Kuleyninin qəbrinin açılması əmr olundu. Qəbri açıb cəsədin çürümədiyinə əmin oldular. Ən təəccüblüsü isə cəsədin yanında təravətli südəmər bir körpə cəsəd də vardı. Bu körpənin kimə məxsus olduğu mə"lum deyil. Bildiymiz budur ki, həyat çeşməsinə bağlı olanlar da ondan faydalanarmışlar. Əlbəttə, bütün xeyirlərin mə"dəni Həzrəti Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm)-in ailəsidir. Onların, İmam övladalarının, həqiqi alimərin qəbirlərindəki mö"cüzələr həmən həyatın əsərləridir. Bu səbəbdən də onların cəsədləri çürüməmişdir.

Əksinə, insan əzab, od əhlidirsə, ruhun çəkdiyi əzablar cəsədə də sirayət edər. Abbasilər Əməvilərə qalib gəldikdən sonra onların qəbirlərini xaraba qoydular. Mə"lun Yəzidin qəbri açılanda qəbirdə cəsəd uzunluqda kül xətdən başqa bir şey tapılmadı.

### *BƏRZƏX ALOVU QƏBİRDƏN ŞÖ"LƏ SAÇIR*

Mərhum Şeyx Məhmud Əraqi "Darüs-səlam"da mö"təbər şəxslərdən nəql edir ki, buyurublar: Tehrandakı İmamzadə Həsən qəbirstanlığına getdik. Hələ gün batmamışdı. Dostlardan biri bir qəbrin daşı üstə oturdu və elə o an da fəryad çəkdi ki, məni qaldırın. Məzarın daşı eynən alov kimi idi. Ruhun əzabının şiddətindən hətta qəbir daşı da qızmışdı. Mən qəbir sahibini tanıyıram. Rüsvay olmasın deyə, adını çəkmirəm.

Qumda dəfn edilmiş daha bir nəfərdən danışılır ki, qəbrindən od şö"ləsi qalxıb, məqbərənin xalçalarını yandırmışdı.

Şeyx Şüştəri öz moizələrində buyurub: Quranda buyurulur "narun hamiyə", yə"ni "isti alov." Görəsən soyuq alov da varmı? Bəli. Əgər müqayisə olunsa, dünya alovu bərzəx və Qiyamət alovuna nisbətən çox soyuqdur.

### *DÜNYADA ƏN BÖYÜK ALOV ŞİMŞƏKDİR*

Buyurur, ağac alovunu şimşək alovu ilə müqayisə edin. Şimşək buludların toqquşmasından yaranan lətif alovdur. Toxunduğu cismi yandırıb uzaqlaşır. Yandırdığını heç bir şey söndürə bilmir. Ağacı vurduqda tamamilə külə döndərir. Dənizə düşdükdə, hətta suyun altındakı balıqları da yandırır. Bəli, ağacdan da alğv yaranır. Amma bu alovu bir ovuc torpaq və ya su sndürür. yandırıcılığı da məhduddur.

Aydın olur ki, digər bir aləmin alovu bu dünyanın heç bir alovu, hətta şimşək alovu ilə də müqayisə edilə bilməz. Bərzəxdə ruhi əzabda olan insanın qəbirdəki cəsədinin də tə"sirlənməsi mümkündür. Əlbəttə ki,

həmişə yox. Əksinə, bəzi Allah dostlarının məzarında heç bir ətir səpələnmədiyi halda xoş qoxular, müşk, ətir qoxusu duyulmaqdadır.

## *KİMLƏR ÜÇÜN QORXULU DEYİL?*

Əhli-beyt (əleyhissalam)-dan xoş bir müjdə yetişib ki, bir dəstəni Allah-Taala qəbir qorxusu qəbir sıxıntısı rvə bərzəx əzablarından amanda saxlayır. Əvvəl o adamları ki, təlqin olunmuş olsunlar. Zahirən dəfndən sonrakı üçüncü təlqin nəzərdə tutulur. Yəhya ibni Əbdüllah deyir ki, İmam Sadiq (əleyhissalam) buyurdu: "Nə edə bilrəsiniz ki, sizin meyyitləriniz Nəkir və Münkərdən amanda qalsınlar?" Soruşdum ki, nə edək, buyurdu: "Meyyit dəfn olunduqdan sonra onun vəlisi qəbrin yanında durub ağzını qəbrin baş tərəfinə yaxınlaşdırsın, sonra uca səslə təlqin desin. Təlqindən sonra Münkir Nəkirə deyər: "Gedək, höccəti, cavabı ona təlqin etdilər." Təlqin 3-dür: Öləndə, dəfn zamanı qəbirdə və dəfndən sonra. Kimsə deməsin ki, ölü nə eşidir deyilənləri! Əvvəldə qeyd olunmuşdu ki, ruh oradadır və bizdən daha yaxşı eşidir. Deməyin ki, ölü ərəb dilini bilmir. Bu dünyadan köçən adam üçün bütün dillər eynidir. Məhdudluq bu dünyanın xüsusiyyətidir.

## *İLAHİ RƏHMƏTİN NÜZULU ZAMANI ÖLÜM*

Növbəti qəbir əzabından amanda qalacaq dəstə cümə axşamının günortasından cümənin günortasınadək dünyadan gedənlərdir. Çünki bu müddət ərzində ilahi rəhmət nazil olur. Ölənlər həmin rəhmət yağışında Allah dərgahına qovuşduqlarından, rəhmət ağuşunda olarlar.

Bu güzəşt əslində ilahi lütfdən olub bəndənin bağışlanması üçün bəhanədir.

## *XURMA BUDAĞI VƏ 40 NƏFƏRİN ŞAHİDLİYİ*

Və"d edilmişdir ki, qəbrə qoulan çubuq, budaq qəbir əzabına mane olar. Yaxşı olar ki, budaq xurma ağacından və tər, yaş olsun. Həzrət Baqir (əleyhissalam) buyurmuşdur: "Nə qədər ki, budaq yaşdır, nəmdir meyyitə əzab verilməz və çubuq quruduqdan sonra əzabı iki çubuqca olmaz, inşallah!" Əzabdan amanda qalmağın digər səbəbi meyyitin yaxşılığına 40 nəfərin şəhadət verməsi və onun bağışlanmasını istəmələridir. "Ənvari-nömaniyyə"də İmam Sadiq (əleyhissalam)-dan nəql edilmişdir ki, Həzrət buyurdu: "Əgər 40 nəfər şəxs meyyitin yanında hazır olub "Xudaya, biz onun yaxşılığından başqa bir şey bilmirik" desələr, Allah-Taala buyurar: "Onun haqqındakı şəhadətinizi qəbul edib sizin bilmədiklərinizi bağışladım."

## *NƏ ÜÇÜN DAVUD PEYĞƏMBƏR ABİDİN CƏNAZƏSİNƏ NAMAZ QILMADI?*

Bəni İsrail tayfasında bir abid şəxs vardı. Allah-Taala Davud peyğəmbərə vəhy etmişdi ki, bu şəxs riyakardır. Ona görə də həmin abid öləndə Davud (əleyhissalam) onun dəfnində iştirak etmədi. Başqaları gəldilər və 40 nəfər şəxs ona namaz qılıb dedilər: "İlahi, biz onun barəsində yaxşılıqdan başqa bir şey bilmirik. Sən onu daha yaxşı tanıyırsan. Bağışla onu!" Qüsl veriləndə də 40 nəfər gəlib həmin cür dedilər. Çünki daxildən tanımırdılar. Davud (əleyhissalam)-a vəhy olundu ki, nə

üçün ona namaz qılmadın? Ərz etdi ki, Xudaya, Sən onun riyakar olduüunu xəbər vermişdin. Nida yetdi ki, doğrudur, amma bir dəstə adam onun yaxşılığına şəhadət verdiyi üçün Biz də imza etdik və bağışladıq." Əzabdan amanda qalmağa haqqı olmayan kəsin bu yolla bağışlanması da Yaradanın bir fəzlidir.

## *MƏCLİSİNİN KƏFƏNİNƏ HÜSEYN (ƏLEYHİSSLAM)IN TÜRBƏTİ İLƏ YAZILMIŞ ŞƏHADƏT*

Xeyir əməl sahibləri öz kəfənlərini hazırlayaravə möminlərin o kəfənə (kəfən sahibi haqqında) şəhadətlərini yazmalarını xahiş edərdilər. Mühəddis Cəzairi nəql edib ki, sutadı Əllamə Məclisi möminlərdən istəyib ki, onun kəfəninə Hüseyn (əleyhissalam)-ın türbəti ilə (kəfən sahibinin imanına) öz şəhdətlərini yazsınlar. Belə yazıblar: "İmanına şəkk yoxdur", sonra adlarını yazıb, möhür vurublar.

Eləcə də qəbrə və kəfənə Həzrət Hüseyn (əleyhissalam)-ın türbətindən qoymaq, meyyitin alnına və iki övcuna türbət çəkmək fövqəl-adə tə"sirli işlərdəndir.

## *ÖLÜMDƏN SONRA İNSANA YETİŞƏCƏK XEYİR İŞLƏR*

Ölən şəxsin yerinə, onun üçün bu dünyada görülən işlər bərzəx və Qiyamətdə həmin şəxs üçün faydalıdır. Məsələn, bir işin savabını ölənə hədiyyə etmək, borcunu ödəmək, qəza namaz və orucunu, boynunda qalmış vacib həccini yerinə yetirmək, ölən üçün Allah yolunda sədəqə vermək, dua edib bağışlanmasını istəmək və s. Bu barədə

Əhli-beyt (əleyhissalam)-dan çoxlu rəvayət gəlib. İstəyənlər "Vəsailüş-şiə" kitabına müraciət edə bilərlər. Xülasə, Allah-Taala ölən üçün işlərin savabını mərhuma çatdırır və bu işi görən adama neçə qat artıq savab mərhəmət edir.

## *MEYYİT ÜÇÜN HƏDİYYƏLƏR*

Həzrət Sadiq (əleyhissalam) buyurur: "Meyyit sıxınıtı və narahatlıqda olduğu zaman, bəzən onun üçün rahatlıq yaranar, ona deyərlər ki, bu rahatlıq dünyada filan şəxsin sənin üçün hədiyyəsinin nəticəsidir."

Bəzi bəxşişlərin meyyit üçün daha çox savabı olar, "Vəsail" kitabında İmam Sadiq (əleyhissalam)-dan belə rəvayət olub:

Xudavənd Cəbrəilə əmr edər ki, hər birinin əlində Behişt neməti dolu xonça olan yetmiş min mələklə həmin qəbrə doğru getsinlər və "ey Allahın dostu, salam olsun sənə, bunlar filankəs oğlu filankəsin sənə göndərdiyi hədiyyədir", desinlər, sonra qəbri nurla dolar...

## *ÖLÜLƏRİN DİRİLƏRDƏN İSTƏYİ*

"Cameül-əxbar" kitabında Rəsulullah (səlləllahu əleyhi və alihi və səlləm)-dan nəql edilmişdir ki, buyurub: "Öz ölənlərinizə hədiyyə göndərin." Soruşdular ki ölülaərin hədiyyəsi nədir? Buyurdu: -Sədəqə və dua. Hər cümə axşamı möminlərin ruhları dünya asimanında öz evlərinin müqabilinə gəlib, həzin səslə ağlayıb fəryada edərlər ki, qy mənim əhlim, ey mənim övladlarım, ey atam, ey anam, ey qonşularım, bizə mehribanlıq göstəri, Allah sizə rəhmət etsin, əlimizdə onlardan bizə catan əzab

və hesab oldu, xeyri özgələrə çatdı, bizə mehribanlıq göstərin bir dirhəmlə, bir parça çörklə, bir paltarla...”

## *BƏRZƏX BU DÜNYADAN QEYBDƏDİR*

Bəziləri belə bir sual verə bilərlər ki, bu genişlikdə oülan bərzəx aləmi harada yerləşir.?

Əlbəttə, əqlimiz bunu dərk edə bilməz. Onu deyə bilərik ki, bərzəx bu dünyadan qeybdədir. Bu məsələni anlaağımız üçün rəvayətlərd bir sıra misallar çəkilib. Məsələn, yerdən göyədək bütün dünya bərzəxlə müqayisədə ucsuz-bucaqsız biyabandakı kiçik üzük həlqəsini xatırladır. Dünyada olan insan almadakı qurd, ana bətnindəki uşaq kimidir, yalnız öldüyü zaman azad olur. Doğrudur ki, başqa bir yerə getmir, həmin aləmdə möuddur, amma məhdudiyyətlərdən azad olur. Maddi məfhumlar olan zaman və məkam məhdudiyyətləri onun qarşısından götürülür.

## *BƏRZƏX ALMİ DÜNYANIN MÜHİTİDİR (MÜHİT-ƏHATƏ EDƏN)*

Ana bətnindəki körpəyə, çöldə ana bətnindən qat-qat geniş bir aləm olduğu deyilsə, dərk edə bilməz. Biz də ana bətni ilə bərzəx arasında eyni vəziyyətdə olduğumuzdan, bərzəxi anlamırıq.

Qurani Məcid buyurur: “Sənin üçün nə hazırlandığını kimsə bilmir.” Bəli, biliklərimizi sadiq, doruçu şəxslər xəbər verdiyinə görə, biz də təsdiq edirik.

Bu dünya ana bətində mühit (əhatə edən) olduğu tək, bərzəx də bu dünyaya mühitdir-bundan dəqiq izahat, ifadə yoxdur.

## *RUHLARIN BİR-BİRLƏRİ İLƏ ÜNSİYYƏTİ VAR*

İsbəğ ibni Nəbatə deyir: Mövlam Əmirəl-möminin Əli (əleyhissalam)-ın Kufə darvazasında səhra ilə üzbəüz durduğunu gördüm. Sanik, kiminləsə danışırdı, amma kimsə görünmürdü. Mən də dayandım, bir az ötdü, yorulub oturdum.

Bir dəfə də durdum, əyləşdim, amma Həzrət Əli (əleyhissalam)-dayanıb söhbət edirdi. Ərz etdim, ya Əli, kiminlə danışırsan? "Söhbətim möminlərlədir" buyurdu. Soruşdu möminlərlə? Buyurdu: Bəli, o şəxslər ki, dünyadan getmişdilər, indi buradadırlar. Sual verdim ki, ruhdurlar, yoxsa cism? Buyurdu: "Ruhdurlar. Kaş onların toplanaraq, ünsiyyət saxlayıb, ilahi nemətlərini necə yad etdiklərini gördəydin!"

## VADİYÜS-SƏLAM RUHLARIN YERİDİR

Digər bir hədisə görə istər şərq, istərsə də qərbdə dünyadan kgedən mömінin ruhu (misali qəlibdə) Vadiyüs-Səlamda, Əmirəl-Mömінin Əli (əleyhissalam)-ın yaxınlığında zühur edər. Başqa sözlə, Nəcəfül-Əşrəf (şərif nəcəf şəhəri) uca mələhutun nümayişidir.

Eləcə də, Yəməndə ot bitməyən, quş uçmayan Bərəhut səhrası kafir ruhlarının zühur yeridir.

## *ELM VƏ ƏMƏLƏ GÖRƏ HƏZRƏT ƏLİ (ƏLEYHİSSALAM)-LA YAXINLIQ*

Əli (əleyhissalam)la yaxınlığın əhəmiyyəti haqqında eşitdiklərimiz ruhani yaxınlığa aiddir. Həzrətə yaxınlıq elm və əmələ görədir. İnsanın bircə günahı onu Həzrətdən, həmin günah qədər uzaqlaşdırır. İnsanın ruhunun Əli (əleyhissalam)la olub, cəsədinin Nəcəfdə dəfn olunması böyük səadətdir.

Amma Allah eləməsin ki, kimsənin cəsədi Nəcəfdə, ruhu isə Bərəhutda əzabda olsun. Ruhən qovuşmağa çox səʺy edilməlidir. Əlbəttə, Nəcəfdə dəfn olunmağın da təʺsiri böyükdür.

## *YƏMƏNDƏN NƏCƏFƏ GƏTİRİLƏN CƏNAZƏ*

“Mədinətül-məaciz” (mö̓cüzələr şəhəri) kitabında nəql olunub ki, bir gün Həzrət Əli (əleyhissalam) əshabdan bir dəstəylə birlikdə Kufə darvazasının yanında oturmuşdu. Həzrət nəzər salıb buyrdu: “Mənim gördüklərimi siz də görürsünüzmü.” Ərz etdilər ki, Siz nə görürsünüz, ya Əmirəl-möminin? Buyurdu: “Dəvə üstündə cənazə

gətirən iki adam görürəm. Bura çatmaqlarına üç günlük yol qalıb." Üç gündən sonra Həzrət (əleyhissalam) və dostları həmin yerdə gözləyərkən uzaqdan bir dəvə göründü. Cilovunu bir şəxs tutan dəvənin üstə cənazə vardı. Bir nəfər də dəvənin arxasınca gəlirdi. Onlar yetişəndə Həzrət (əleyhissalam) soruşdu ki, bu kimin cənazəsidir, siz kimsiniz və haradan gəlirsiniz? Ərz etdilər ki, biz Yəmən əhliyik, cənazə atamızın cənazəsidir, vəsiyyət edib ki, onu Nəcəfdə dəfn edək. Həzrət (əleyhissalam) sual verdi ki, bunun səbəbini atanızdan soruşdunuzmu? Dedilər bəli, atamız deyirdi ki, orada bir şəxs dəfn ediləcək ki, bütün məhşər əhlini əfv etdirə biləcək.

Əli (əleyhissalam) buyurdu: Doğrudur (və iki dəfə təkrar etdi), and olsun Allaha həmin adam mənəm!

## *EVİNİN ƏTRAFINDAKI ÇƏYİRTKƏLƏRİ MÜDAFİƏ EDƏN ŞƏXS*

Mühəddis Qummi "Məfatihül-cinan" kitabında Əli (əleyhissalam) mübarək qəbrinə sığınanların (onun yaxınlığında dəfn olunanların) bəhrələnəcəyini çox gözəl bəyan edib: Təyy tayfasından olan bir ərəf əllərində çuval olan bir dəstə həmtayfasının onun xeyməsinə doğru hərəkət etdiyini gördü. Soruşdu ki, nə olub? Dedilər: Sənin xeymənin ətrafında xeyli çəyirtkə toplanıb, gəldik ki, onları tutaq.

Bunu eşidən ərəb nizəsini ələ alıb, atlandı və dedi: "And olsun Allaha, çəyirtkələr toxunan adamı qətlə yetirəcəyəm. Necə olar ki, bu çəyirtkələr mənim pənahıma sığına, siz də onları tutasınız"? Nəhayət, günəş

qalxdı, çəyirtkələr uçub getdilər. Ərəb dedi: "Onlar məndən uzaqlaşdılar, indi özünüz bilərsiniz."

Bəli, bu ibrətamiz rəvayət təsdiq edir ki, Həzrət Əli (əleyhissalam)-ın pak qəbrinə sığınanlar hökmən faydalanacaqdır.

## *RUHUN QƏBİRLƏ ƏLAQƏSİ DAHA ÇOXDUR*

Mühəddis Cəzairi "Ənvari-nömaniyə"də nəql edir: Soruşa bilərsiniz ki, əgər misali qəlibdə olan ruh Vadiyüs-səlamda olursa, nə üçün qəbir üstünə getmək əmr olunub? Əgər ruhlar qəbirdə deyilsə, öz ziyarətçisini necə başa düşür? Cavab: Həzrət Sadiq (əleyhissalam)-dan rəvayət olunub ki, ruhlar Vadiyüs-səlamda olsalar da, öz qəbirlərinədək məhəlli əhatə edə bilirlər. İmam (əleyhissalam) ruhu günəşə oxşadıb: günəş səmada olsa da, şüaları bütün yeri əhatə edir. Ruhların da elmi, biliyi belədir.

## *GÜNƏŞ ŞÜASININ GÜZGÜDƏ İN"İKASI (ƏKS OLUNMASI)*

Günəşin şüası başqa yerlərə nisbətən güzgüdə daha çox əks olunur. Ruhun da öz qəbrinə diqəti daha çoxdur.

İllər boyu onunla (bədənlə) iş görüb, onun bərəkətiylə səadətə çatması ruhun qəbrə əlaqəsinə səbəb olacaqdır.

Buradan, “imm hər yerdədir, şərif qəbrinin ziyarətinə getmək nə lazım” deyən şəxsin cavabı məlum olur: İmamların və din böyüklərinin məzarlaır onların ruhlarıın daha artıq daha artıq diqqət etdiyi, ilahi rəhmətin nazi olduğu, məlaiklərin dolandığı məhəldir. Kamilən faydalanmaq istəyənlər bu mübarək məhəllərdən əl götürməməlidirlər.

Bəzilərində belə bir zəif şübhə görünüb: Əgər ölümdən sonra ruh misali bədən deyilən bir bədənlə əlaqələnirsə, nə üçün həmin bədən ki, günah edib, cəzaya çatmasın? Bu sualın bir neçə cavabı vardır.

## *BÜTÜN RUHLAR İKİ BƏDƏNƏ MALİKDİR*

Məclisi rəhmətliyin buyurduğu kimi, misali bədən maddi deyil ki, ölümdən sonra onu gətirib, ruha deyələr: O bədəndən çıxıb, bu bədənə buyurun. Misali bədən bir lətif (qeyri-maddi) bədəndir ki, ölməzdən əvvəl də həmin şəxslə idi. Hər bir ruh iki bədənə malikdir: Lətif bədən və kəsif, torpaq bədən. Bu iki bədən istər ibadəti, istərsə də savabı birgə ediblər. Amma yuxudakı bütün işləri yol getmək, danışmaq və s. misali bədən icra edir. Bir göz qırpımında Kərbəlaya, Məşhədə gedir, şərqə, qərbə gedir və məhdudiyyəti də yoxdur. Göründüyü kimi misali bədən həmişə şəxslədir. Lakin ölü zamanı misali bədən həmişə şəxslədir. Lakin ölüm zamanı misali bədən cismin bədəndən tam ayrılır.

## *BÜTÜN HALLARDA CƏZALANAN VƏ FAYDALANAN RUHDUR*

İnsanın ruhu ölümdən sonra surət alır. Bu surət dünyəvi surətin eynidir. Yə"ni o, xarici bədənə çevrilmir, yalnız maddi bədənin şəkilini alır. İndi özünüz bilin, istəyirsiniz ona misali bədn deyin, yaxud bərzəx qəlibi adlandırın, ya da ruh deyin. Lakin lətif olduğundan maddi göz onu müşahidə edə bilmir. Ümumiyyətlə, dünyada günah edən də ruhdur, sonradan cəzalanan da (istər misali bədənlə, istərsə də müstəqil) Qiyamətdə isə həmin maddi bədənlə olar.

## *QURANDA BƏRZƏX SAVABI VƏ BƏRZƏX ƏZABI*

"Möminun" surəsi: "Sübh və axşam, Qiyamət bərpa olan günədək oda çəkilər onlar. Fir"on ailəsini (tərəfdarlarını) ən çətin işgəncələrə daxil edin!"

Bu Quran ayəsi bərzəx əzabına dəlalət edir, Fir"on və onun tərəfdarlarının (onlar nildə batıb ölmüşdülər.) Qiyamətədək sübh və axşam oda çəkiləcəklərindən danışır.

İmam Sadiq (əleyhissalam) buyurur: "Qiyamətdə öübh və axşamın olmayacağı səbəbindən, ayədə bərzəx nəzərdə tutulur."

Rəsulullah (səlləllahu əleyhi və alihi və səlləm) buyurmuşdur: "Əzab əhlinə bərzəxdə sübh və axşam Cəhənnəmdəki yeri göstərilər. Behişt əhlinə isə Behiştdəki yeri göstərilər və deyilər ki, Qiyamətdəki yerin budur."

"Hud" surəsi: "Əzab əhli olanlar yer və göy durduqca oddadırlar. Allah istəməyincə, onlar üçün ətin fəryad və

nalə vardır. Doğrudan da, Allah istədiyini edir. Amma səadət əhli olanlar yer və göy durduqca Behiştdədirlər."

İmam (əleyhissalam) buyurur: "Ayədə bərzəx nəzərdə tutulur. Məqsəd bərzəx əzabı və bərzəx savabınır. Çünki, Qiyamətdə asiman (göy) yoxdur, yer isə əvəz ola.

## *HƏBİB NƏCCAR BƏRZƏX BEHİŞTİNDƏ*

"Yasin" surəsi: "Ona cənnətə daxil ol, deyildəi, dedi: Kaşqövmüm biləydi ki, Rəbbim məni niyə bağışladı və nəyə görə hörmət sahiblərindən etdi!"

Bu ayə Fironçular arasındakı mömin Həbib Nəccara aiddir. Öz qövmünü Peyğəmbərlərin yoluna də"vət edən bu şəxsi dara çikib öldürürlər. Həbib Nəccar ilahisavaba yetişdi, onun xoş aqibətindən qövmünün 0əbərdar olmasını arzuladı.

Ona deyilən "cənnətə daxil ol" yə"ni bərzəx Behişti. Başeqa bir rəvayətdə bu hissə "Qiyamət Behiştindən (mərtəbcə) alçaqda olan bərzəx Behişti" kimi tə"bir olunub.

## *MƏİŞƏTƏN ZƏNKA VƏ QƏBİR ƏZABI*

"Taha" surəsi: "Hər kəs Allahın öyüd nəsihətindən üz dindərsə, güzəranı daralar və Biz Qiyamət günü onu məhşərə kor olaraq gətirərik."

Çox təfsirçilər bu ayədəki "məişətən nənka" ifadəsinin qəbir əzabına işarə olduğunu bildirmişlər. Bu məna Həzrət Səccad (əleyhissalam)-dan da rəvayət olunmuşdur.

## *BƏRZƏX QİYAMƏTƏDƏKDİR*

"Möminun" surəsi: "Onların ölümü çatanda "Pərvərdigara, məni qaytar dünyaya, saleh əməllər edim", deyərlər. Cavab veriər ki, faydasız, əbəs sözlər danışırsınız. Onların önündə, dirilib duracaqları günə qədər bərzəx vardır."

Bu ayədən aşkar görünür ki, dünya həyatından sonra və Qiyamətdən əvvəl insanın bərzəx adlandırılmış daha bir həyatı vardır.

## İNSANIN ŞƏXSİYYƏTİ ONUN RUHU İLƏ BAĞLIDIR

Qurani Kərimin zihr edilmiş ayələri və digər ayələrini düşündükdə aydın olur ki, insan ruhu cismdən tamamilə fərqli olan həqiqətdir.

Ruhun bədənlə olan birliyində, ruh iradə və şüur vasitəsi ilə bədəni idarə edir. İnsanın əzaları ilə birgə çürümür. İnsan şəxisiyyəti, insan həqiqəti (ruh) ölümdən sonra qalır; ya əbədi səadətə, ya da əbədi əzaba qovuşur. Bu səadət və ya əzab insanın cismi və ictimai xüsusiyyətlərindən asılı olmayıb, birbaşa dünyadakı əməlləri ilə bağlıdır.

İslam alimləri ruhun "ruh bədən deyil ölümlə yoxd olmur, onun hökmləri cismin hökmlərindən fərqlidi" Müddəalarını sübut etmək üçün, xeyli əqli dəlillər gətiriblər. Allah-Taalanın, Onun Rəsulunun, Mə"sum Ömamların (əleyhissalam) buyurduqlarından əlavəyə ehtiyacımız yoxdur və bu mətləb gün kimi aydındır.

## *BƏRZƏX BEHİŞTİ "MÜTMƏİNNƏ NƏFS" ÜÇÜNDÜR*

Ümumiyyətlə, üç qisim nəfs zikr olunub:

1. "Mütməinnə (xatircəm) nəfs"

2. "Ləvvamə nəfs" özündnə rzı qalmayıb, həmişə özünü danlayan nəfsdir, yaxşı hesab olunur, bəyənilir.

3. "Əmmarə nəfs" insanı günahlara çəkib, əzba düçğr edən nəfsdir.

"Fəcr" surəsi: Ölüm zamanı mütməninnə nəfs sahiblərinə xitab olunar ki, "Ey aramlıqda və xatircəmlikdə olan nəfs, öz Rəbbinə doru razıdır. Mənim Behiştimə daxil ola!" (Yəni Həzrəti Məhəmməd

(səlləllahu əleyhi və alihi və səlləm) və onun pak ailəsi) Bərzəx Behişti və bərzəx Cəhənnəmin haqqında aydın və işarəylə çoxdur. Bura qədər deyilənlərə kifayətlənirik.

## *BƏRZƏX SAVABI VƏ BƏRZƏX CƏZASI HƏDİSLƏRDƏ*

Bərzəx aləmiin savab və cəzalarından söz açan hədislər çoxdur. Bir neçə rəvayəti qeyd edirik:

"Bihar"-ın 3-cü cildində Əliyyibn İbrahim Qumminin təfsirindən rəvayət olunub ki, Əmirəl-möminin Əli (əleyhissalam) buyurub:

"Dünyanın sonuncu, axirətin ilk günü Adəm övladının qarşısında sərvəti, övladı və əməli mücəssəm olar. ÜXzünü sərvətinə tutub deyə: And olsun Allaha, mən sənə qarşı həris və (ehsan etməkdə) naxıl oldum, səndən mənə nə qaldı? Sərvət deyər: Kəfən əndazəsində məndən götür. Sonra üzünü övladlarına tutub deyər: And olsun Allaha, sizi sevdim və haminiz oldum, sizdən mənə nə qaldı?

Əməl deyər: Mən qəbirdə və Qiyamətdə sənə yoldaş olahaqğam ilahi Hüzura yetənədək. Əgər bu şəxs Allah dostu gözəl libasla, xoş ətirli onun yanına gələr və deyər: Müjdə olsun sənə, ruhuna reyhan, nəim Behişt, xoş gəlmisən, Soruşar ki, sən kimsən? Deyər: Sənin dünyadakı saleh əməlinəm, Behiştə hərəkət et. O, öz qüsl verənini tanıyar, cənazəsini götürənlərə and verər ki onu tez aparsınlar. Qəbrə daxil olduğu zaman saçlarını yolan iki sorğu mələyini qəbirdə hazır görər.

Dişləri ilə yeri eşən bu mələklərin səsi şimşəyi xatırladar, gözlərindən sanki, ğığılcım saçar, ona deyərlər:

Yaradanın kimdir, Peyğəmbərin kimdir, hansı dindənsən?

Cavab verər: Yaradanım Allah, Peyğəmbərim Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm) dinim İslamdır.

Deyərlər: Allah səni sevdiyin və raız olduqarında sabit saxlasın. Sona onun qəbrini göz işlədigcə genişləndirər və ona Behiştdən bir qaçı açarlar.

Deyərlər: kamına çatmış xoşbəxt cavan kimi nur gözlərlə yat.

Amma öz Allahına düşmən olsa, əməli ən pis paltarda, ən pis qoxuyla yanıa gələr və deyər: Müjdə olsun sənə Cəhənnmin yandırıcı suyu və Cəhənnəmə vari olmağın.

O, qüsl verəni görər və cənazəni aparanlara and verər ki, onu gecikdirsinlər. Qəbrə daxil olandan sonra mələklər gəlib onun kəfənini açarlar və deyərlər: Allahın kimdir? Peyğəmbərin kimdir? hansı dindənsən? Deyər: Bilmirəm. Deyərlər: Bilmirsən və doğru yolu tapmırsan. Bu an dəmir əsaya onu elə vuralar ki, insan və cindən savayı bütün bütün canlılar dəhşətə gələr (əvvəlik bəhslərdə heyvanlaırn qəfil naa0halığının səbəbii xatırlayın.) Sonra Cəhənnəmdən bir qaçı açıb, deyərlər: Ən pis halda yat (Pənah aparaq Allaha öz aqibətimizdən Ona nizə dliyi tək dar yer verər və digər ucuyla elə sıxarlar ki, beyni dırnağıyla dırnaq əti arasından çıxar. Xudavən ilan, əqrəb və sair həşəratlaır onun canına salar, onu çalarlar. Allah-Taala onu Qiyamətdə qəbirdən qaldıranadək bu əzab davam edər. Şəxs Qiyamətin başlamasını arzulayar.

## *İNSANLARIN BӘRZӘX SURӘTLӘRİ DÜNYADAKI KİMİDİR*

Şeyx Tusi Həzrət Sadiq (əleyhissalam)-dan bir hədis nəql edib ki, hədisin axırında İmam (əleyhissalam) buyurur: "Allah-Taala insanın ruhunu çıxarıb, onu əsil (dünyadakı) surətində Behiştə göndərər. Orada yeyər, içər və əgər yeni bir adam daxil olarsa, onları həmin dünyadakı surətində tanıyar." Digər bir hədisdə buyurub: "Möminlərin ruhları bir-birləri ilə görüşüb, bir-birlərindən sual edərlər, bir-birlərini tanıyarlar. Birini görəndə "bəli, bu "filankəsdir" deyərlər"

## *RUHLAR YENİ GӘLӘNLӘRDӘN HAL-ӘHVAL TUTURLAR*

Digər hədisdə buyrulub: Ruhlar bədən şəlində, Behişt bağlarında qərar tutarlar. Bir-birlərini tanıyar və bir-birlərindən sual edərlər. Yenə bir ruh gələndə, deyərlər: Onu rhat buraxı, o, ölüm vəhşətindən çıxıb gəlib. Sonra ondan "filankəslər necə oldu?"-deyə soruşarlar. Əgər desə ki, mən gələndə salamat, diri idi. arxayınlaşaralr. Ümid edərlər ik, həmin adam da onlara qovuşacaq.

Əgər desə ki, filankəs ölüb, ruhlar "süqut etdi" deməklə onun Cəhənnəmə getdiyinə iarə edərlər (yoxsa onlara qovuşardı)

## *RUHLARIN ÖZ YAXINLARINI ZİYARӘT ETMӘLӘRİ*

"Bihar"-ın 3-cü cildində "Kafi" və digər kitablardan bəzi hədislər nəql olunub ki, onların xülasəsi budur:

Bərzəx aləmində ruhlar öz yaxın adamlarının ziyarətinə, görüşünə, əhvalını soruşmağa gedərlər. Bəziləri hər gün, bəziləri iki gündən bir, bi"ziləri üç gündən bir, bəziləri hər cümə, bəziləri ayda bir dəfə, bəziləri ildə bir dəfə ziyarətə nail olar və bu fərq onların məqamları ilə əlaqədardır. Rəvayətdə vardır ki, mömin şəxs öz yaxınlarından yalnız fərəhləndirici şeylər görər. Kafirlərin gördükləri isə təkcə narahatlıqlarına səbəb olar.

## *BƏRZƏXDƏ KÖVSƏR HOVUZU*

Müxtəlif kitablarda Əbdüllah ibni Sinandan nəql olunmuşdur ki, Həzrət Əbi Cə"fərüs-Sadiq (əleyhissalam)-dan Kövsər hovuzu barədə soruşdum, Həzrət buyurdu: "Genişliyi Bəsərdən Yəminin Sən"a şəhərinədək. Təəccüb etdim, Həzrət buyurdu: istəyirsənmi göstərim? Ərz etdim ki, bəli, ya mövla. Həzrət məni Mədinədən kənara gətirdi. Mübarək ayağını yerə vurdu. Buyurdu: "Bax (İmamın əmri ilə kainat pərdəsi gözlərimdən götürüldü) Gördüm, bir çay peyda oldu ki, iki tərəfi gözə görünmür. Həzrətlə mənim dayandığım yer ada vəziyyətində qalmışdı. Gözlərimə bir tərəfindən qardan ağ su, digər tərəfidən qardan ağ süd gələn çay göründü. Südlə su arasından bu vaxtadək xoşluqda və görünüşdə misini görmədiyim qırmızı lətif yaqut kimi şərab (pak) axırdı. Soruşdum: Sənə fəda olum, bu çay haradan axır? Buyuru: Bu həmin çeşmədəndir ki, Allah-Taalanın Qur".and buyurduğu "Behiştdə süddən br çeşmə, sudan bir çeşmə, şərabdan (pak) bir çeşmə" bu çaydan axır.

Bu çayın iki sahilində ağaclar, hər ağacın yanında gözəl huriyyə vardı. Onlar əlində bu vaxtadək mislini görmədiyim (qeyri-dünyəvi) qalar tutmuşdular.

Həzrət onlardan birinə yaxınlaşıb "su ver", buyurdu: Huriyyə qbı caydan doldurub, Həzrətə verdi. Heç vaxt belə lətafətli, ləzzətli su içməmişdim, müşk qoxusu verirdi. Dedim: Sənə vəda olum, bu gün görmədiklərimi gördüm. Heç də güman etmirdim ki, belə şeylər ola bilər.

Həzrət buyurdu: Bunlar, Xudavəndin bizim şiələr üçün hazırladığından çox azdır. İnsan dünyadan gedəndə ruhunu bu çaya tərəf apararlarm. Onun bağlarında gəzər, yeməlilərindən yeyər, içməlilərindən içər. Bizim düşmənlərimiz ölən zaman isə ruhunu Bərəhut vadisinə apararlar, həmişə onun əzabında olar, zəqqumundan ona yedirər, həmimindən ona içirərlər. Həmin vadidən pənah aparın Allaha!

## *ÖLÜM ZAMANI KÖVSƏR VƏ HƏMİM*

Bu dünyada yaşadıqları zaman bərzəx Behiştini görənlər sırasında həzrt Seyyidüş-Şühəda (əleyhissalam) səhabələrini adını çəkə bilərik ki, Aşura günündə Həzrət tərəfindən onlaa göstərildi. "Bihar"-ın 3-cü cildində İmam Baqirdən nəql olunub ki, axır nəəsndə Kovsəri dadmamış kimsə dünyadan getməz. Eləcə də, heç bir kafir Cəhənnəm həmimini (suyunu) dadmamış ölməz.

## *BƏRƏHUT BƏRZƏX CƏHƏNNƏMİNİN MEYDANIDIR (VƏ YA MƏZHƏRİDİR)*

Dediymiz kimi, Vadiyüs-səlam xoşbəxt ruhların, Bərəhut səhrası (otsuz, susuz çöl) çirkin ruhların zühur məhəllidir. Aydınlıq üçün bir hədis ərz edirəm:

Bir gün bir kişi Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alihi və səlləm) məçlisinə daxil olub, qorxu, dəhşət içərisində dedi: Çox təəccüblü bir şey görmüşəm! Həzrət buyurdu ki, nə gördün? Dedi: Əyalım bərk xəstələndi. Mənə dedilər ki, Bərəhutdakı quyudan su gətirsən, sağalar. (Bəzi dəri xəstəlikləri həmin su ilə müalicə olunur.) Bir tuluq və bir qab götürüb oraya getdim. Çox dəhşətli səhra olsa da, qorxuma güc gəlib, quyunu axtarmağa başladım. Birdən yuxarıdan nə isə zəncir səsinə oxşarsəs verib aşağı endi. "Həlak oldum, mənə su ver", deyən bir kişi gördüm. Qabı su ilə doldurub ona vermək istəyəndə, gördüm ki, bu kişinin boynundan zəncir var. Suyu verəndə onu yuxarı çəkdilər. Mən suyu qaba qaytaranda, o yenə gəldi və yenə də su vermək istəyəndə yuxarı çəkildi. Üç dəfə belə oldu. Mən qabın ağzını bağlayıb, ona su vermədim. Qorxumdan sizin xidmətinəz gəlim ki, görəm bu nə işdir?

Həzrət (səlləllahu əleyhi və alihi və səlləm) buyurdu: Bu bədbəxt (qardaşını öldürmüş Adəm oğlu) Qabildir ki, Qiyamət gününədək həmin yerdə əzabdadır. Qiyamətdə isə Cəhənnəm əzabına yetişər.

## *HƏZRƏT ƏLİNİN QATİLİ İBNİ MÜLCƏMİN BƏRZƏX ƏZABI*

“Nurul-əbsar” kitabında Seyyid Mömin, Əbülqasim ibni Məhəmməddən rəvayət edir ki, dedi: Məscidül-Həramda İbrahim (əleyhissalam)-ın məqamında bir dəstə adamın yığışdığını gördüm. Səbəbini soruşdum, dediər ki, bir rahib (məsihi) müsəlaman olub, Məkkəyə gəilib. Çox qəribə bir hadisə danışır. İrəli gedib, gördüm ki, yun paltar geymiş, başına yun papaq qoymuş cüssəli bir şeyx oturub, danışır:

“Aralıq dənizinin kənarında sovmiə vardı. Bir gün dərya kənarında bir kərkəs (quzğun) gördüm. Uca qayaya qondu. Oradakı kişinin bədənindən bir parça qoçarıb, uçdu. Sonra qayıtdı, yenə əvvəlki kimi onun bədənində bir tikə qopardı. Dörd dəfə bu dəhşətli səhnə təkrar oldu. Sonra həmin işi qalxıb, kamil adam oldu (parçalanmış bədəni bütövləşdi).

Sonra quş qayıtdı, hər şey təkrarlanıd. Mən heyrətdə idim. Gördüklərim nəydi? Bu kişi kimdi? Təəssüfləndim ki, niyə ondan heç bir şey soruşmadım. İkinci gün hadisə təkrarlandı.

Kişi qalxıb, bütövləşəndə sovmiədən çıxıb, kişinin yanına qaçdım. Onu Allaha and verdim ki, sən kimsən, dinmədi. Dedim: Səni yaradana and verirəm axı sən kimsən? Dedi: Mülcəməm. Dedim: Bu quşla olan əhvalatın nədir? Cavab verdi: Mən Əliyyibni Əbitalibi öldürdüyüm üçün Allaha məni bu quş vasitəsi ilə gördüyün əzaba düçar edib.

Sovmiəmi tərk edib, Əliyyibn Əbitalibi soraqladım. Dedilər, Həzrət Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm)-in əmioğlusu və vəsisidir. İslamı qəbul etdim və

Allah Evinin və Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) qəbrinin ziyarətinə gəldim.”

## ÜÇÜNCÜ FƏSİL

## *QİYAMƏT*

### *QİYAMƏT BARƏDƏ ƏQLİN HÖKMÜ*

Əgər nəqli dəlillərimiz olmasaydı, xalqı Qiyamət gününə inanmağa çağıran, onların danışıqlarının, əməllərinin, əqidələrinin sorğu-suala tutulacağını xəbər verən peyğəmbərlər gəlməsəydilər də, əqlimiz ən böyük şahid və dəlil idi ki, bu fələklər və xilqətlərin gərdişi nəticəsiz olmayacaq. Bütün əql sahibləri ətrafına baxıb görür ki, gecə gündüz, gündüz gecə olur, yeyir, yatır, ifraz edir, cinsi yaxınlıqda olur, uşaq böyüyür, cavan qocalır və ölür. Müşahidə etdiyiniz bu sonsuz, geniş dəsgah elə bunun üçün imiş?! İnsan ifraz maşınımı yaradılıb?! Bu ki, əbəs və mənasız olardı! Bir halda ki, heyvanlar yeyirdi, cinsi yaxınlıq bacarırdı, insana nə ehtiyac vardı?!

### *AXİRƏTİ İNKAR EDƏNLƏR ALLAHIN HİKMƏTİNİ ANLAMAYIBLAR*

Axirəti inkar edənlər Allahı hikmət sahibi qəbul etmirlər (əstəğfirullah). Çünki onların dediyinə görə, bu yaradılış nəticəsiz və mənasızdır. (23-cü surə, 117-ci ayə) Amma səhv edirlər. Müşahidə etdiyimiz hər yerdə, hər şeydə min bir hikmət var. Onların bir hissəsinə bəşərin varması mümkündür. Aləmin ən zəif, kiçik hissəsi də məsləhətsiz, gərəksiz deyil, hətta sıradan çıxmış üzvlər də!

## *DIRNAQ ƏL ÜÇÜN LİNG (LOM) YERİNDƏDİR*

Tük (saç) və dırnaq da hikmətsiz deyil. Məsələn, dırnaq kimi kiçik və əhəmiyyətsiz görünən üzvün hikmətlərindən biri budur ki, barmaqlar üçün söykənəcək, ling yerindədir. İnsan bir şeyi qaldırmaq istədikdə həmin dırnaqların təzyiqi ilə barmaqlarını sıxır (bir kibrit çöpünü sındırmaqla dırnaqlarınıza diqqət yetirin. Bəzən, dırnaq dibdən tutulduqda, müəyyən işlərin icrası qeyri-mümkün olur, onda qalmış dırnaq tamam olmaya! Dırnağın digər faydası odur ki, bədəni qaşımaqda istifadə edilir. Əlavə olaraq, bədəndəki bəzi artıq çirklər dırnaqla xaric edilir. Buna görə də heç olmasa həftədə bir dəfə (xüsusən cümə günü) dırnaq tutulmalıdır.

## *TÜKLƏR VASİTƏSİ İLƏ ARTIQ MADDƏLƏRİN İFRAZI*

Bədəndə bir dənə də gərəksiz tük yoxdur. Həzrət Sadiq (əleyhissalam) buyurmuşdur: "Bəzi cahillər deyirlər ki, əgər bədənin bəzi yerlərində tük bitməsəydi, daha yaxşı olardı. Bu adamlar bilmirlər ki, həmin yerlərdə rütubət və çirk yığılır. Əgər qalıq və çirk maddələr tük surəti ilə dəf olmasaydı, insan xəstələnərdi. Buna görə də əmr olunub ki, tez-tez (iki həftədən bir) bu tüklər təmizlənsin."

Beləcə, hər zərrədə min hikmət!

## *MİLÇƏKDƏN ("CUƏL")–GÖZAĞRIYA DƏRMAN*

Böyük təbib Calinusun milçək (cuəl növü) barədəki e"tirazı məşhurdur. O, "bu həşəratda heç bir fayda

görmürəm, axı Allah onu niyə yaradıb?”, demişdir. Nəhayət, bir gün Calinus çox şiddətli gözağrısına tutulur. Bütün bildiyi dərmanları işlətsə də, faydası olmur. Bir qoca qarı ona dərman təklif edir. Calinusun gözləri bu dərmandan şəfa tapır, sağalır. Böyük həkim qarıdan dərmanın tərkibini soruşduqda, mə”lum olur ki, məhlulun tərkibində həmin milçək (cuəl) də varmış.

## *YARANIŞ ALƏMİ HİKMƏTSİZ OLA BİLƏRMİ?*

Əgər aləmin zərrələrindən bircə zərrə də hikmətsiz deylsə, aləmin özü hikmətsiz ola bilərmi?! Əgər bədən üzvləri, hətta dırnaq və tüklər əbəs yerə yaranmamışsa, insanın özü hikmətsiz yaradıla bilərmi?!

Müasir dünya alimlərinin hamısı bu fikirdədir ki, yaranışın hikmət və səbəblərinə hələ də vara bilməmişlər. Təqribən 30-40 il əvvəl Avropa tibb alimləri bu qərara gəldilər ki, insan bədənində artıq bir hissə (kor bağırsaq) mövcuddur. Hətta uzun müddət sağlam adamlar cərraha müraciət edib, həmin üzvü kəsdirdilər. (Hətta görpə anadan olan kimi onun kor bağırsağının kəsdirilməsi halları ilə də təcrübədə rastlaşmışıq.) Nəhayət, bu fikri ortaya atmış adamlar e”lan etdilər ki, sağlam adam bu işi görməməlidir. Sən demə, kor bağırsaq (apendiks) bədən axarlarında “şeypur” vəzifəsini daşıyırmış. Bu axarlar çirklənib təhlükəyə mə”ruz qaldıqda gor bağırsaq insana xəbərdarlıq edir. Son anda isə təhlükə müalicə ilə aradan qalxır (mümkündür tibbə qaranlıq qalmış başqa hikmətlər də vardır).

## *BİRCƏ DİŞ DƏ HİKMƏTSİZ DEYİL*

Kəsici dişlərin işini dəyirman dişləri görə bilmir. Bədəndəki 248 sümükdən bircəsi də hikmətsiz deyil. Eləcə də, damarlardan əskik olarsa, insan naqisləşər.

Beləliklə, əgər Allahı həkim və Onun yaratdığı dəsgahda ən kiçik əzaları hikmətli bildiksə, fikirləşək, aləmin yaranışındakı məqsədi və bütün yaranmışların insana faydasını görək.

## *ƏGƏR TAM RAHATLIQ OLSAYDI, YENƏ ƏBƏSDİ*

İnsanın yaranışında məqsəd bu dünya həyatı deyil ki, öləndən də sonra yox olsun.

Qeyri-mümkün bir fərz ilə insanın dünya həyatı dərdsiz, qəmsiz, tam rahatlıq, eyş-nuş olsaydı (bu halda həyatın mənası olacaqdımı?), yenə də insanın yaranışı məqsədsiz olardı. Çünki axırı heçlik olan rahatlıq e"tibarlı olmazdı. Amma bir halda ki, bəşərin maddi həyatı başdan-başa bəla, müsibət və narahatlıqdır, bu genişlikdə yaranış dəsgahı əbəs ola bilməz (insan əzab üçün xəlq edilməz).

*Bir asudə can gördüm bu cahanda*
*O da asudədir xilas olanda.*

Və ya

*Qəmsiz yaşadarmı gönülü aləm,*
*Yaşadarsa, yaşamaz bəni-adəm.*

## *HƏR LƏZZƏTİN MİN BİR ƏZİYYƏTİ*

Dünya həyatında növbənöv cismani və ruhani əzablar varsa, müsibətlər, möhnətlər, xəstəliklər, fitnələr, qəzalar, qarətlər, övlad itirilməsi mövcuddursa, insanın ölümlə yox olmasını iddia edənlər, əslində Allahın hikmət, kərəm və sair kamal sifətlərini inkar edirlər. Necə ola bilər ki, kərim və xeyirxah bir şəxs şir, bəbr, pələnk, ilan, əqrəb, arı və sair vəhşilər, sancanlar olan bir evə kimisə qonaq çağırsın?! Bu qonaq da ağzına hər tikə qoyanda, vəhşilər əlini gəmirsin, zəhərlilər dilini sancsın, yanındakı qılınclılar saatda bir ona həmlə etsinlər və nahayətdə də istəyinə çatanda (tikəni ağzına qoyanda) boynunu vursunlar!! Allah insanı bu sayaq dünyadan heçliyə qovuşdurmaz.

## *DƏRDSİZ LƏZZƏT ÜÇÜN*

Bəli, hökmən və hökmən, insanın qarşıda bütün səadətlərinin zuhur edəcəyi, dərsiz ləzzətə, narahatlıqsız rahatlığa, kədərsiz sevincə çatacağı bir həyatı vardır.

Qəti və əqli dəlillərdən mə"lum olur ki, Allah-Taala insanı əbədi həyat, həmişəlik səadət üçün xəlq etmişdir. İnsan bu bəzəkli həyata bir neçə baxışla öz qəti gələcəyini tə"min edir, bu dünyadan öz əbədi həyatı üçün ehtiyat

görür, əməl və elm adlı iki qanadla bu aləmdən əbədi aləmə qanadlanır.

## *MƏADA ŞƏKK YOXDUR*

Əgər insan öz vicdanına, əqlinə, fitrətinə müraciət etsə, anlayar ki, hər şeyə də şəkk edirsə, iki şeydə tərəddüd etməməlidir: məbdə (başlanğıc) və məad. Yə"ni məbdə-Allaha inam və məad-ölümdən sonrakı əbədi həyata inam! İnsanın bu iki həqiqətə şəkki onun şəhvətə, maddiyyata, günahlara bulaşması ilə fitrətinin zay olub, şübhəylə dolmasının nəticəsidir.

Əqlin hökmünə görə, fələklərin, aləmlərin, hər bir fərdin cisminin yaranışındakı məqsəd son gündə mə"lum olar. Ona görə də bu aləmdən sonra digər bir saray olmalıdır.

## *CƏZA GÜNÜNÜN OLMASI ALLAHIN ƏDALƏTİNİN ŞƏRTİDİR*

Allahın sifətlərini bəyan edərkən demişik ki, Allah adildir. Bu ədalət tələb edir ki, insanlara əvəz verilsin. Ömrünü ibadət, itaət, xeyir işlərə sərf etmiş adamlar görürük ki, öz əməllərinin layiqli mükafatını dünyada almır. Eləcə də günakarlar görürük ki, öz pis, fəsad əməllərinin cəzasını almır, hətta çox vaxt fəsad əhlinin savab əhlindən daha xoş ömür keçirdiyini görürük. Eləcə də bəşərin bir-birlərinə etdiyi zülmlər, qəsbkarlıq, ziyankarlıq, qan tökülməsi göz qabağındadır. Bəli, hamının öz əməlinin əvəzini alcağı gün gəlməlidir. Allah hər kəsin haqqını verəcək (40-cı surə, 17-ci ayə). Məzluma zülm etmiş zalım, və"də verilmiş oda atılacaqdır (18-ci

surə, 28-ci ayə). Günahsız öldürülmüş şəxs öz qatilindən intiqamını alacaqdır (81-ci surə, 8-ci ayə). Məzlumun və qətlə yetirilmişin itkisi ödənəcək, əməlisalehlərə xeyir işlərinin və cüz"i şər işlərinin əvəzi veriləcək ki, ədalət zahir olsun.

## *DOĞRUÇULAR QİYAMƏTDƏN XƏBƏR VERİRLƏR*

Bəşəriyyətin ən doğruçuları, dedikləri hər birimiz üçün dəlil olan peyğəmbərlər Qiyamətin gəlməsini xəbər vermişlər, hansı dindən, hansı məzhəbdən olmasından asılı olmayaraq, dünyanın bütün dindarları sorğu gününə inanmış və inanırlar. Qurani Kərimin Allaha e"tiqaddan söz açan əksər ayələrinin ardınca cəza günündən söz açan ayələr vardır. Bütün dinlər bu e"tiqadlarda (məbədə və məad) birdirlər.

Sadiq xəbər verənlər nə bir, nə on, minlərlə cəza gününü təsdiqləyən xəbərlər verirlər. Əqlə görə, belə günün varlığını hökmən qəbul etməliyik.

## *ƏN YAXŞI DƏLİL OLA BİLMƏ İMKANDIR*

Əvvəldə deyildiyi kimi məad məsələsi əqlə zidd deyil. Əql özü də hesab apardığından Qiyamət (hesab günü) barədə "mümkündür" hökmünü verir. Bundan əlavə, 124 min peyğəmbər və onların vəsilərinin xəbərləri, dəlilləri sağlam əql üçün kifayətdir.

Bəzi bixəbərlər şübhə ediblər ki, necə ola bilər bir şey heç olsun, sonra yenidən bir şeyə çevrilsin. Əlbəttə, onların öz iddialarına heç bir dəlilləri yoxdur. Yox əgər "dəlil" gətirsələr, əvvəldə hər birinə cavab verilmişdir.

## *MƏADDA HEÇDƏN YARANMA YOXDUR*

Xacə Nəsirəddin Tusi rəhmətliyin dediyi kimi, məadda heçdən yaranma yoxdur. Məad parçalanmışların toplanmasıdır. Onun buyuruqlarının izahı belədir ki, bədən əzalardan, zərrələrdən yarandığı üçün, (ölümdən sonra) zərrələr bölünüb dağılır. Qiyamət günü həmin zərrələr Allahın qüdrəti ilə yığılır. Məad, yə"ni əzaların toplanması, ruhla cismin birləşməsi. Ona görə də, məad heçdən yaranma deyildir ki, inkar olunsun. (Əslində heçdən yaranmanın da inkarı düzgün deyil).

## *OLMAQ İMKANI GÜCLÜ DƏLİLDİR*

Sonra, bir şeyin ola bilməsi üçün ən böyük dəlil onun mislinin (ona oxşarın) olmasıdır. Əgər insan öz əvvəlini, ilkini fikirləşsə, görəcək ki, əvvəldə dağınıq hava, su, torpaq zərrələrindən ilahi qüdrətlə cəmlənib. Müxtəlif heyvan, bitki hissələrindən hazırlanmış xörək atanın mə"dəsinə daxil olur, onun orqanizmində yenidən zərrələrə parçalanır. Şəhvətin həyacanlandığı zaman yeməyin xülasəsi bütün üzvlərdən gələn rütubətin zərrələri ilə həzm olub, nütfə (sperma) yolu ilə ananın bətnində qərarlaşır. (Nütfənin zərrələri bütün bədəndən toplandığı üçün cənabətdən, yaxınlıqdan sonra bütün bədənə qüsl vermək vacibdir.)

Beləliklə, hər bir bədən hələ ölənədək, əvvəldə iki dəfə dağınıq zərrələrdən ilahi qüdrətlə toplanır. Birinci dəfə torpaq, hava, sudan, ikinci dəfə isə atanın bütün bədənindən. (Bütün bunları görə-görə üçüncü dəfə bədənin toplanacağına nə üçün şəkk edilməlidir?!)

### *ÜÇÜNCÜ DƏFƏ DƏ CƏMLƏNMƏSİ BUYURULAR*

Bu iki mərhələni görüb bildikdən sonra üçüncü dəfə qəbirdə çürüyüb dağılmış bədənin yenidən cəmlənəcəyinə nə üçün təəccüb etməliyik?! Əvvəlki yaranışınızı nə üçün düşünmürsünüz? (Quran 54-cü ayə, surə 62-ci ayə) Yə”ni, ey insan sən torpaq idin, Bizim qüdrət əlimiz səni topladı, qida maddəsi şəklində atanın bədənində bir hissə oldun, ikinci dəfə səni toplayıb, nütfə şəklində atandan xaric edib, ananın bətnində qərarlaşdırdıq. Bu toplanıb dağılmağı dünyada görə-görə üçüncü dəfə dünya kənarında cəmlənəcəyinə niyə təəccüb edirsən?

### *DÜNYADA ÖLÜLƏRİN DİRİLMƏSİ*

Öləndən sonra dirilmə hallarına çox təsadüf olunur. Baharda təbiətə baxsanız, qurumuş, ölü ağaclar yenidən necə canlanır? Ölü torpağın dirilməyini görmüsünüzmü? (30-cu ayə, 23-cü ayə). Ölmüş insanın da dirildiyi müşahidə olunub. Hədis kitablarında rastlaşırıq ki, Həzrəti İsa (əleyhissalam), eləcə də mə”sum İmamların (əleyhimussalam) əli ilə ölülərin dirilməsi həqiqətdir. Quranda ölünün dirilməsinə aid iki qəziyyə zikr olunur:

### *ÜZEYİR YÜZ İL ÖLDÜ*

“Bəqərə” surəsində Allah-Taala Üzeyirin dastanını buyurur. Bu ayələrin nazil olma səbəbi və təfsirinin xülasəsi budur ki, Bəni-israil peyğəmbərlərindən olub, Tövratı tamam əzbər bilən Üzeyir Beytül-Müqəddəsdə yəhudilərin müəllimi və rəhbəri idi. Bir vaxt ulaqla səfərə

çıxdı. Yeməyə çörək və üzümü vardı. Neçə illər əvvəl əhalisi həlak olmuş bir kəndə çatdı. Burada adamların çürümüş sümüklərindən savayı bir şey qalmamışdı. Sümüklərə baxan Üzeyir təəccüblə dedi: “Allah bu çürüyüb dağılmış sümükləri ikinci dəfə necə diriltdir?” (Üzeyir bu sözləri təəccübdən deyirdi, Qiyaməti inkar etmək fikrində deyildi.)

Allah-Taala Qiyamətin onun üçün təəccüblü və böyük, amma Allah üçün əhəmiyyətsiz, sadə olduğunu hiss ilə anlatmaq üçün, elə oradaca Üzeyiri öldürdü. Üzeyir yüz il həmin halda qaldı. Ulağının sümükləri də çürüdü. Təəccüblüdür ki, üzüm çox zərif də olsa, təravətli qaldı.

Yüz il sonra Allah Üzeyiri diriltdi. İnsan surətli mələk ondan soruşdu: Buraya nə vaxtdır gəlmisən? Üzeyir dedi: Bir gün, yaxud bir gündən də az. Mələk dedi: Sən yüz ildir ki, burada qalmısan. Üzeyir ulağına nəzər salıb, onun sümüklərinin çürüdüyünü gördü. Mələk dedi: Ulağına bax, gör Allah nə edir. Üzeyir gördü ki, ulağın bədəninin üzvləri, zərrələri bir dəfəyə hərəkətə gəlib bir-birinə yapışdılar. Baş, ayaq, göz, qulaq və qeyriləri bir dəfəyə birləşərək ulaq düzəldi və hərəkət etdi. Sonra əlavə etdi: Üzeyir, üzümə bax, o xarab olmayıb, Allahın qüdrətini müşahidə et. Bil ki, O, hər şeyə qadirdir.

Üzeyir Beytül-Müqəddəsə qayıtdı, vəziyyəti dəyişmiş gördü. Tanıdığı adamlarla rastlaşmadı. Nişanələrlə mənzilini tapıb, qapını döydü. İçəridən səs eşidildi ki, sən kimsən? Dedi: Mən Üzeyirəm. Dedilər: Zarafat edirsənmi, yüz ildir ki, Üzeyrdən bir xəbər yoxdur, səndə onun əlaməti varmı? (Üzeyirin duaları qəbul olunardı.) Mən sənin xalanam, gözlərim kordur, Allahdan istə ki, gözlərimi mənə qaytarsın. Üzeyir dua etdi. Xalasının

gözləri açıldı. Hadisəni danışdı, özü və başqaları üçün ibrət oldu.

## *DÖRD QUŞUN YENİDƏN DİRİLMƏSİ*

Qurani Məciddə olan ikinci qəziyyə Həzrət İbrahim (əleyhissalam) haqqındadır. O ərz etdi: Pərvərdigara, qəlbimin arxayın, xatircəm olması üçün ölüləri necə diriltdiyini görmək istəyirəm. Əmr edildi ki, dörd quş tut (qarğa, xoruz, göyərçin və tovuz), onları öldür və tikə-tikə doğra. Hər tikəni bir dağ başına qoy. Onları çağırdığın zaman sür"ətlə sənə doğru gələcəklər. ("Bəqərə" 260) Təfsirdə vardır ki, Həzrət İbrahim (əleyhissalam) quşların başını əlində tutub, onları bir-bir çağırdı. Gördü ki, hər birinin zərrələri ayrı-ayrılıqda birləşib öz başına doğru tələsir. Həzrət imtahan üçün bir başı başqa bədənin qarşısında tutsa da, yapışmadığını gördü. Bir sözlə, tikələr birləşdi, dörd quş dirildi.

## *ALLAH-TAALA HƏR İŞƏ QADİRDİR*

Belə sual oluna bilər ki, bu qədər dəyişilmiş, çevrilmiş zərrələr necə birləşə bilər? Bu şübhə Allahın elm və qüdrətindən xəbərsizlik əlamətidir. Bilirik ki, Allahın elmi hər şeyi əhatə edir və zərrələrin zərrəsi də Onun elmindən xaric deyil. Həmçinin O, bütün işlərə qadirdir. Artıq bir şübhəyə əsas qalmır. Bir müddət qalıb çürümüş həşərat və vəhşilərə yem olmuş və ya çürümüş, hissələri küləklə səpələnmiş, min bir hala düşmüş bədənin zərrələri Allahın elmində itmir. Harada olursa olsun, Allah bu zərrələri toplamağa qadirdir. Necə ki, Həzrət İbrahimin tikə-tikə doğrayıb dağlara səpdiyi quşları

diriltdi. Çünki O, bütün zərrələrə alimdir, hətta minlərlə növdə görünsə də. Eləcə də, qadirdir ki, onları toplayıb savab və ya cəzaya çatdırsın. Bu ilahi qüdrətə müxtəsər nümunələr göstəririk.

## *SU VƏ OD BİR YERDƏ*

"Yasin" surəsi, ayə 79-80: "Onları (çürümüş sümükləri) ilk dəfə yoxdan yaradan Allah dirildəcəkdir. O yaradan ki, sizin üçün yaşıl ağacdan od əmələ gətirdi. Budur, siz indi ondan (iki ağacı bir-birinə sürtməklə) od yandırırsınız."

Mərx və İfar ağaclarından şaxə kəsdikdə, onlardan su axır. Onların biri erkək, digəri isə dişidir. Onları bir-birinə sürtdükdə, od verirlər. Ərəbistanda ilk vaxtlar kibrit və çaxmaqdaşı olmadığından, od belə əldə edilirdi. Təəccüblüdür ki, hər ikisindən su axan iki ağac bir-birinə sürtüldükdə od necə yaranır? Bu iki zidd işi (od və su) əlaqələndirən qadir Allahdır. Necə ola bilər ki, belə bir Xaliq ikinci dəfə ruhu, dağılıb sonradan cəmlənmiş bədənə qaytara bilməsin?!

## *ÇÜRÜMÜŞ SÜMÜKLƏR NECƏ DİRİLƏR?*

"Yasin" surəsi, ayə 79:

Əbu ibni Xələf Rəsulullah (səlləllahu əleyhi və alihi və səlləm)-in məclisinə gəlib, əlindəki çürümüş sümüyü sıxıb əzdi və üfürüb (küləyə verib) dedi: Bu çürümüş sümükləri kim yenidən dirildər?

Allah-Taala zikr olunmuş ayələrdə bu cahilanə danışığı məzəmmətləyib buyurur ki, öz yaranışını unudan kəs Bizə misal çəkir. Yə"ni, sən heç idin, səni heçdən yaratdı.

(Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in dili ilə.) Birinci dəfə yaratdığı kimi yenə də dirildər. O hər yaranışa alimdir. Əvvvəl heç idin, indi isə bir şeysən (çürümüş sümüksən). Möminin bədən zərrələri başqalarından qızıl tək üstündür. Yağış yağanda torpağı yuyar və torpağın altındakı qızıl parıldar. Bəli, hər kəsin bədən üzvlərinin toplanması səhv ola bilməz.

## *ALLAH ELMİNDƏ SƏHVƏ YOL YOXDUR*

İbrahim (əleyhissalam)-ın qəziyyəsində nəql edildi ki, qarğa, xoruz, göyərçin və tovuzu tutub, başlarını kəsdi. Bədənlərini doğrayıb, tam qarışdırdı. Rəvayətə görə, 17 yerə bölüb dağın 17 yerində qoydu. Göyərçinin başını əlinə götürüb, çağırdı. Göyərçinin tikələri hər yerdən cəmlənib, başına yapışdı. O biri quşları da səsləyəndə eyni iş təkrar oldu. İbrahim (əleyhissalam) xoruzun başını tovuzun bədəni qarşısında tutanda isə bədən başa yapışmadı. Məqsədim budur ki, ilahi elmdə səhvə yol yoxdur.

## *FƏLƏKLƏRİN YARANIŞI İNSANIN YARANIŞINDAN DAHA MÜRƏKKƏBDİR*

"Mömin" surəsi, ayə 57: "Doğrudan da, göylərin və yerin yaradılışı insanların yaradılışından daha böyük şeydir. Lakin insanların çoxu (bunu) bilməz."

Görəsən, kəhkəşanları və yeri yaratmaq, hər birinin hərəkəti üçün qanunauyğunluq qərar vermək, onları idarə etmək mürəkkəbdir, yoxsa insanı yaratmaq?! Əlbəttə də ki, fələklərin yaranışı! Yaxşı bəs bütün bunların Xaliqi insanı ikinci dəfə yarada bilməzmi?! Onun

əməllərindən sorğu edə bilməzmi?! (36-cı surə, 87-ci ayə) Əlbəttə ki, istəyini edə bilər və Qiyamətin qurulmasını buyurar. Vahid bir anda hamının dirilməsi Onun iradəsinə bağlıdır.

## *HƏTTA EHTİMAL OLUNAN ZİYANI DƏF ETMƏK VACİBDİR*

Əgər qarşıda bir zərər, xətər ehtimalı vardırsa, əqlimiz hökm edir ki, çarə axtaraq. Məsələn, bir səhradan ötəndə ehtimal var ki, bizi canavar parçalasın və ya oğru mallarımızı aparsın. Diqqətimiz bir zərərə yönəlir ki, yəqin deyil, yalnız ehtimaldır. Bununla belə, əql hökm edir ki, bu yolla getmək olmaz. Zərərlər bir-birlərindən fərqlidir. Məsələn, insan ayağın çalaya düşməsi, daşa dəyməsi ehtimalına o qədər də fikir vermir. Amma bir var dərəyə düşmək, bir də var Cəhənnəm dərəsinə yuvarlanmaq. Zərər böyükdürsə, ciddi ehtimal qurtuluş üçün kafidir.

## *ALİMLƏRİN EHTİMALINA E"TİNA OLUNMALIDIR*

Əgər bir uşaq sizə desə ki, paltarınızda əqrəb var, boynunuza qalxır, ona nə deyərsiniz? Deyərsinizmi ki, sən uşaqsan, başa düşmürsən, sənin sözün etibarsızdır? Yox, heç vaxt! Zərər mühüm olduğundan (saman çöpü deyil, əqrəbdir!) dərhal paltarınızı çıxarar, əqrəbi axtararsınız. Hansı ki, əqrəbin olmasına yəqinliyiniz yoxdur, güman da etmirdiniz, təkcə ehtimalınız vardı. Amma əqliniz bu ehtimala etina etdi.

Məsələn, səfərə çıxmaq istəyirsiniz. Bir adam deyir ki, yolda su tapılmır. Əqlə görə ehtiyatın şərti budur ki,

özünüz ilə bir kuzə su götürəsiniz. Əgər yolda su olarsa, kuzəni boşaltmaqla heç bir ziyan çəkməzsiniz. Yox, su olmazsa, kuzənin suyu ilə susuzluğunuzu yatırarsınız.

## *BÜTÜN PEYĞƏMBƏRLƏR XƏBƏRDARLIQ ETMİŞLƏR*

Yüz iyirmi dörd min peyğəmbər gəlmiş, hamısı bir dildən böyük bir xətəri elan etmişlər ki, ey insanlar, bütün əməlləriniz, danışıqlarınız, əqidələriniz qeyd olunur, hər bir əməlinizi iki mə"mur mələk yadda saxlayır (50-ci surə, 17-ci ayə). Tutaq ki, Qiyamət gününə yəqinliyiniz, gümanınız yoxdur, əgər ağlınız olsa, sizə hökm edər ki, ehtiyatlı olun.

Heç olmazsa, ehtimal verin ki, qarşıda Qiyamət günü ola bilər. Bir-birinizi incitməyin, zülm etməyin, kimsənin abır-həyasını aparmayın.

Dediklərimizin haşiyəsində istəyirəm ki, bir moizə də olsun. Söhbətimizin təsdiqi üçün məada əqli dəlillər də gətirək.

## *MƏADI İNKAR EDƏN ZINDIĞA İMAM SADİQİN BUYURDUĞU*

"Üsuli-Kafi"də nəql olunur ki, Həzrət İmam Sadiq (əleyhissalam) İbni Əbül Ücaiyə buyurdu: "Əgər həqiqət dindarların dediyidirsə, (və şəksiz də həqiqət onların dedikləridir) onlar rahat, sizsə həlak oldunuz; və əgər sizin dedikləriniz həqiqətdirsə, (və şəksiz ki, bu belə deyildir) bu halda siz və onlar bərabərsiniz." İbni Əbil Ücai dedi: "Məgər onların dedikləri bizim dediklərimizlə eyni deyildirmi?" İmam (əleyhissalam) buyurdu: "Necə

bir, eyni ola bilər ki, onlar məada, məadın savab və cəzasına, göylərin və yerin abadlığına, bütün bunların Allah tərəfindən yaradıldığına inanırlar, sizsə göylərin varlığını, Allahın yoxluğunu iddia edirsiniz!?

Göründüyü kimi bu hədisdə İmam (əleyhissalam) Yaradanın sübutu üçün ehtiyatı dəlil buyurub. Bu bizim üçün ən aşağı (minimum) dəlildir. Əslində cəza gününə yəqinlik olmalıdır və tərəddüd, şəkk, hətta güman da kafi deyil.

## *QİYAMƏT ƏZƏMƏTLİDİR*

Allah-Taalanın oyuncaq adlandırdığı dünya (47-ci surə, 38-ci ayə) bizim üçün böyük göründüyü halda, Onun "böyük xəbər" adlandırdığı (78-ci surə, 1-ci ayə) Qiyamət barədə bir şey eşidəndə həmin Qiyaməti kiçik başa düşürük. Bəli, bütün əvvəlki və sonrakı xalqların toplanacağı gündür Qiyamət!!! Bu böyük cəmiyyətdə hər kəs öz əməllərindən narahat və qorxu içindədir-sonradan haqqında danışacağımız az adamdan savayı!

## *ƏMR QİYAMƏTİN DƏHŞƏTİNDƏN QORXDU*

İslam tarixində ərəb qəhrəmanı Əmrin fəthlərindən çox deyilib. Müşrik olduğu zaman Rəsulullah (səlləllahu əleyhi və alihi və səlləm)-in xidmətinə yetişəndə Həzrət onu İslama də"vət etdi və buyurdu ki, əgər iman gətirərsə, Qiyamətin böyük qorxusundan amanda olar. Dedi:-Ya Mühəmməd, böyük qorxu nədir? Mənim qəlbim o qədər nəhəngdir ki, heç bir dəhşətdən qorxmuram.

Həzrət buyurdu:-Ey Əmr, heç də sən düşündüyün kimi deyil. Adamlara bir nə"rə çəkilər ki, ölülər dirilər,

dirilər ölər. Ölənlər üçün ikinci nə"rə çəkiləndə onlar da qalxıb səf çəkərlər, göylər yarılar, dağlar yerindən qopub səpələnər, ruhu olanların köksü parçalanar. İnsanlar günahlarını yada salıb özlərini düşünər, bir Allah istədiklərindən savayı... hardasan ey Əmr!

Xülasə, Həzrət, Əmrin bədəninə lərzə düşənədək danışdı. Əmr dedi:-Qarşıdakı o gün üçün nə etməliyəm?

Həzrət buyurdu:-De "La ilahə illəllah."

Elə o məclisdəcə Əmr və onun tayfası İslamı qəbul etdilər.

## *YANAR TOPAQ KAFİRLƏRİN AYAĞI ALTDA*

Həmin gün insan öz ətrafında vəhşət görər. Yerin vəziyyəti büsbütün dəyişər. Əvvəlcədən dediyimiz kimi, Qiyamətin yeri, torpağı şüurludur, canlıdır. O, mömінin ayaqları altda aram, ağ, parlaq, kafirin ayaqları altında isə bir parça yandırıcı oddur.

Bir ağac, bir dağ, bir daldalanacaq gözə dəyməz. Hamı bir-birini görər. Hamı bəşər də olsa, şəkilləri dəyişər. Dünyada hamı bir şəkildədir, amma Qiyamətdə əməl və əqidəyə görə şəkillər müxtəlif olar.

## *MƏŞHƏRDƏ MÜXTƏLİF ŞƏKİLLƏR*

"Məcməül-bəyan" təfsirində Həzrət Rəsul (səlləllahu əleyhi və alihi və səlləm)-dən nəql olunub ki, Məaz "Qiyamətdə sur üfürüləndə dəstə-dəstə gələrsiniz" ayəsinin mənasını soruşduqda, Həzrət buyurdu: "Ey Məaz, böyük bir mətləb soruşursan (Həzrətin mübarək gözü yaşardı.) Mənim ümmətim Qiyamət günündə 10 sinfə bölünər. Bu 10 sinfi Allah-Taala ümumi

müsəlmanlardan ayırar, surətlərini dəyişər; bəziləri meymun, bəziləri donuz, bəziləri əl-ayağı kəsilmiş surətdə, bir hissəsi kor, digəri lal, bir dəstəsi də kar olarlar. Məhşərə dilini dişləmiş bir tayfa daxil olar ki, ağızlarından çirk axar. Onların ağızlarının qoxusundan məhşər əhli əziyyət çəkər. Bir dəstə də məhşərə başı aşağı daxil olub, o halda da əzaba aparılarlar. Bir dəstə od budaqlarından asılmış, başqa bir dəstənin qoxusu murdardan daha pis. Digər bir dəstəyə qətrandan libas geydirilmiş, bu libaslar onların bədənlərinə yapışmışdır... Sual verdilər ki, bunlar kimlərdir?

### *SÖZ GƏZDİRƏNLƏR, HARAM MAL YEYƏNLƏR, SƏLƏMÇİLƏR*

Həzrət buyurdu: Meymun surətində məhşərə daxil olanlar söz gəzdirənlər, iki nəfərin arasını vuran, birinin dediyini o birinə və əksinə xəbər aparanlardır. Donuz surətində gələnlər haram mal yeyənlərdir. Məsələn, əskik ölçənlər, qatqı qatanlar, xalqın malını yeyənlər. Başı aşağı gələnlər sələmçilər, faiz yeyənlərdir. Dilini dişləyib və ağzından çirk axanlar, əməlsiz alimlərdir. Bəli, əməli özündən olmayan alimlər yaxşı moizə edib özü pis əməldə bulanan alimlər, başqaları sözündən faydalanıb özü bədbəxt olan alimlər dillərini dişləyib həsrət çəkərlər.

### *QONŞUNU İNCİDƏNİN, ZALIM HAKİMİN, XUDPƏSƏNDLƏRİN ƏZABI*

Məhşərə əl-ayağı kəsilmiş vəziyyətdə gələnlər qonşuya əziyyət verənlərdir. Gor halda daxil olanlar nahaq hökm vermiş zalım hakimlərdir. Amma o kəslər məhşərdə

kardırlar ki, xudpəsənd və özünü sevən olublar (hətta özlərindən başqasının məhşərə kar gəlməsini istəməzlər). Oddan budaqlara bağlananlar dünyada padşahlara, ağalara sirr açıb, xəbər aparıb xalqı incidənlərdir. Murdardan daha iyrənc olanlar o kəslərdir ki, haram, şəhvət və ləzzətə bulaşmış, mallarından vacib haqqı ödəməmişlər. Alovdan paltar geyənlər təkəbbür göstərənlərdir. (Digər bir hədisdə var ki,) gözlərində alovdan iki mıx olanlar gözlərini haramla dolduranlardır.

## *GÜNAHKARLAR ÇÖHRƏLƏRİNDƏN TANINARLAR*

Müəhddis Feyz "Eynül-yəqin"də belə nəql edir ki, şərabxor (içki içən) məhşərə daxil olanda, boynundan şərab şüşəsi asılmış, əlinə qədəh yapışdırılmış olar. Ondan elə bir pis qoxu qalxar, o qədər iyrənc olar ki, hamı onun şərabxor olduğunu bilər və yanından ötənlər ona lə"nət oxuyarlar. Şadlıq əhlinin tar və tənburu (musiqi aləti) onların əllərinə yapışıb, başlarına çalınar. Bəli, hər kəsin qiyafə və simasından bilinər ki, bu şəxs hansı günahın sahibidir. (55-ci surə, 41-ci ayə)

## *ÜZÜ ÜSTƏ NECƏ HƏRƏKƏT EDƏRLƏR?*

Qeyd edilmiş kitabda nəql olunmuşdur ki, adamlardan bəziləri məhşərə bir surətdə daxil olarlar, meymun və donuz onlara nisbətən daha gözəl olar. Eləcə də, Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) buyurmuşdur: "Adamlar məhşərdə 3 cür məhşur olarlar (dirilərlər): bəziləri süvari, bəziləri piyada, bəziləri isə üzü üstə hərəkət edərlər."

Sual etdilər ki, ya Rəsuləllah, üzü üstə necə hərəkət edə bilərlər?

Buyurdu: "Onları dünyada ayaqları ilə hərəkət etdirən Allah qadirdir ki, üzü üstə də hərəkət etdirsin."

## *ÜRƏKLƏR AĞIZA GƏLƏR*

"Mömin" surəsi, ayə 18: "Onları ürəklərin ağıza gələcəyi, udquna belə bilməyəcəkləri yaxın günlə (Qiyamət günü ilə) qorxut."

O günün xovf və hövlündən ürəklər yerindən çıxıb boğazlarda dayanar, nə yerinə qayıdar, nə də bayıra çıxar ki, rahatlıq olsun. O gün ürəklər qəm-qüssə ilə dolu olar. Bir sözlə, həmin gün o qədər dəhşətlidir ki, ürəklər yerindən qopub nəfəs yolunu tutar. Bu Qurani Məcidin mö"təbər məsələsidir. Allah-Taala təkrar-təkrar belə bir günün qorxusundan xəbər verib ki, qardaş-qardaşdan, insan öz ata-anasından, ailə uşağından qaçar. Bu ayədə Allah o gündəki qorxunu, hövlü bəyan edir ki, bu qorxu və hövlün şiddətindən insani əlaqələr insanın əyalına, övladına, ata-anaya, qardaşa olan əlaqəsi qırılar. Hər kəs özünə əməllərinin nəticəsinə elə məşğul olar ki, başqalarına diqqətsiz qalar. Bu səbəbdən də hamıdan qaçar. (80-cı surə, 34-cü ayə). (Günahlar səbəbindən) öz haqqını istəməyə qorxar. Bəli, nəfəslər boğazlarda tutular, bütün bu cəmiyyətdən, zarıltıdan savayı bir səs eşidilməz.

## *QİYAMƏTİN HALƏTİNDƏN AMANDA OLANLAR*

Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) tərəfindən neçə dəstəyə və"d edilmişdir ki, bu adamlar Qiyamətin böyük qorxusundan amandadırlar. İslamda

saç ağartmış kəsi böyük tutmaq (ehtiram göstərmək) Qiyamət qorxusundan qurtuluşa səbəb olar. Əgər bu şəxs insanın atası, anası olarsa daha yaxşı. Çətinliyə düşənlərin fəryadına çatanlara Allah-Taala və”də vermişdir ki, ağır Qiyamət günündə sizin fəryadınıza çatacağam. Məsələn, bu adam dünyada yıxılanı yerdən qaldırmış, dərdlilərə çarə axtarmışdır və sair.

## *MƏSCİD QİYAMƏTDƏ NİCAT GƏMİSİDİR*

İnsanın eşq, əlaqə bağladığı, çox getdiyi məscid, Qiyamət günü onun qəbrinin üstünə kəcavə şəklində gətirilər. Qəbir sahibi ona süvar olar və Behiştə endirilər.

Rəvayətdə vardır ki, mömin soruşar: Bəs Sirat (körpü) harada qaldı? Deyərlər: Ayaqlarının altından ötdü. Soruşar: Süvar olduğum nə idi? Deyərlər: Dünyada eşq-əlaqə bağladığın məscidin surəti idi.

Bəli, məscid Allah evidir, qədrini bilin, onun ehtiramını aşağı tutmayın.

## *MƏKKƏDƏ, MƏKKƏ YOLUNDA ÖLÜM*

Qiyamət qorxusundan amanda qalacaq kəslərin bir qismi də Məkkə və Mədinədə vəfat edənlər və ya orada dəfn olunanlardır. Həmçinin Məkkə yolunda dünyadan gedənlər də həmin qəbildəndir. Qiyamət hövlündən amanda qalacaq digər bir dəstə xalqı yox, öz nəfsini düşmən tutanlardır. Yə”ni, xalqla münasibətdə öz istədiyinin əksinə bir şey görərsə, nəzərində pis, eyb olan bir şey müşahidə edərsə, həmin adamları yox, özünü düşmən bilsin. Özünü danlasın ki, nə üçün belə bir istəyi olub. Nə üçün öz eybini yox, başqasının eybini görüb.

## *QƏZƏB VƏ ŞƏHVƏT ZAMANI SƏBR*

Qiyamətdə əmniyyətinə və"də verilmiş adamların bir qismi də həmin şəxslərdir ki, qəzəbləndikləri zaman (pis işlər görmək iqtidarında olduqları halda), Allaha görə özlərini saxlayıb, qəzəblərini udub, həlim olsunlar. O cümlədən, şəhvət və günahla qarşılaşdıqda (abrının, pulunun əldən çıxmasına görə deyil), yalnız Allah qorxusundan o günahdan çəkinən adamlar da həmin çətinlikdən qurtuluşdadırlar.

Bəzi ölülər üçün belə bir lütf olub. Əgər bir mömin əlini onun qəbrinin üstünə qoyub, yeddi dəfə "Qədr" surəsini oxuyarsa, o meyyit Qiyamət qorxusundan amanda qalar.

## *HƏQİQİ ƏMNİYYƏT, QURTULUŞ ƏLİ (ƏLEYHİSSALAM)-IN VİLAYƏTİDİR*

İnsan üçün tam qorxusuz qurtuluş Əli (əleyhissalam)-ın vilayətidir. ("Ənbiya" surəsi): "O kəslərə ki, gözəl əməllərinə görə, dərgahımızda gözəl aqibət və"d verilmişdir, onlar Cəhənnəmdən uzaq olacaqlar. Cəhənnəmin uğultusu qulaqlarına gəlməz. Onlar ürəkləri istəyən nemətlər içində əbədi olaraq qalacaqlar. Onları ən böyük qorxu məhzun etməyəcəkdir." Bəli, Qurani Məcidin bu mö"təbər ayəsindəki "husna" (ən yaxşı əməl) Əli (əleyhissalam)-ın vilayətidir. Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) buyurmuşdur: "Ya Əli, sən və sənin şiələrin böyük qorxudan amandadırlar və bu ayə sizin haqqınızdadır."

## *MÜTLƏQ GÖZƏL ƏMƏL ƏLİ (ƏLEYHİSSALAM)-IN VİLAYƏTİNİN QƏBULUDUR*

Əli (əleyhissalam) və onun ailəsinin vilayətini (möminlər üzərində tam, mütləq ixtiyar sahibi olmalarını) qəbul edənlərin “hüsna”-gözəl əməl sahiblərinin o günün böyük dəhşətindən qurtulacağını Quran və”d etmişdir. Müxtəlif təfsirlərdə o cümlədən, “Ruhul-bəyan”da Həzrət Rəsul (səlləllahu əleyhi və alihi və səlləm)-dən belə nəql olunmuşdur: “Hər kəs Mühəmmədin ailəsinə dostluqla ölərsə, tövbə edib dünyadan pak gedərsə, qəbirdən baş qaldırarkən məhşərə sakit, sərin qəlblə daxil olar. Qiyamətdən nə qorxar, nə də hövlə gələr. Behişt onun üçün bəzəkli toy otağı tək zinətləndirilər.”

## *GƏLƏCƏYƏ TƏMİNAT*

Quran ayələrinin böyük hissəsi Qiyamət və onun əhvalatlarından bəhs edir. Bu səbəbdən də insan heyrət edir ki, görəsən Allah-Taalanın bu qədər əhəmiyyət verdiyi Qiyamət necə bir gündür. “Vaqiə” surəsindən başlamış, Quranın sonunadək bəlkə də, elə bir surə yoxdur ki, Qiyamətin adı çəkilməmiş olsun. Bu böyük gün 70-dən çox adla adlandırılmışdır. Məqsəd, bu ayələrin çoxluğu ilə qəlblərdə qorxu yaratmaq, insanların öz gələcəklərinin tə”mininə sövq etməkdir. Eşitdikləriniz hövl və qorxudan çarə arayın. Məsələn, zikr etdiyimiz 3-4 mövzudakı çarələri, xilas yollarını düşünək.

## *GƏLƏCƏYİN TƏ"MİNİ ADI İLƏ HƏRİSLİK*

Hamı "gələcəyin fikrində olmaq (sabahı fikirləşmək), gələcəyi tə"min etmək lazımdır", deyir. Çox ağıllı sözdür, amma yerində başa düşülüb, yerində işlənmir. Gələcəyi tə"min etmək, banka pul qoymaqdırmı?! Görəsən, 50-60 illik ömrü (bu da ehtimaldır, yə"qin deyil), belə əziz bir vaxtı sərvət toplayıb, sonra da dünyada qoyub getməyə dəyərmi?! Bütün bunlar cəhalətdəndir. Axı kim üçün qarşıda aclıq təhlükəsi var ki, hərislik etsin?! Siz öz həyatınızda neçə nəfərin aclıqdan öldüyünə şahid olmusunuz?

Bəli, əgər qıtlıq olarsa, bu da ölümün vasitələrindəndir ki, müəyyən olunub və elə bir dövrdə varlılıq da kara gəlmir. Əgər bir ömür də olsa, gələcək üçün xətər yoxdur. Allah-Taala zəmanət verib, hətta and içib ki, hər bir canlının ruzisini yetirəcək. (51-ci surə, 23-cü ayə və 11-ci surə, 8-ci ayə). Lakin axirət üçün əmr edib, təkid edib, qorxudub ki, fikirləşək, çalışaq və məbada məhşərə gəda kimi əliboş daxil olaq.

## *ALLAH YANINDA ƏMANƏT SANDIĞI*

"Allah kərimdir", deyirik, düzdür. Amma əgər Allahı doğrudan da kərim (kərəm, səxavət sahibi) biliriksə, nə üçün dünya işlərində Onu kərim hesab etmirik?! Mə"lum olur ki, dediyimiz sözlər səmimi deyil.

Əgər doğrudan da, öz gələcəyinizi tə"min etmək istəyirsinizsə, Allah yanındakı əmanət sandığında özünüz üçün hesab açın. Sizin ibadətiniz və verdiyiniz sədəqələr həmin hesabdakı əmanətləriniz, sədəqələrinizdir. Bilin ki, Allah bu əmanəti yaxşıca hifz edər, Qiyamətin günü,

bəlkə də həmin dünyada əvəzini qaytarar. (73-cü surə, 20-ci ayə)

Quranda Rəbbimiz Öz Peyğəmbərinə əmr edir ki, onları sonrakı əzablarla qorxut. İndi özünüz bilin: qarşıda çətin bir gün var.

## *İSRAFİL SURU ÜFÜRÜR*

Quranda dəfələrlə xəbər verilmişdir ki, Qiyamət qoparkən ən ilkin, sur üfürüləcəkdir. Ayə və hədislərdən belə mə"lum olur ki, sur iki dəfə üfürüləcəkdir: 1-ci öldürən, 2-ci dirildəndir.

"Zümər" surəsi, 68-ci ayə: "Elə ki, sur çalındı, Allahın istədiyi kimsələrdən savayı göylərdə və yerdə kim varsa, hamısı yıxılıb ölər. Bir daha çalınanda isə bütün ölənlər ayağa qaxıb olacağı gözləyərlər."

## *ALLAHA YAXIN DÖRD MƏLƏK VƏ HƏR BİRİNİN TAPŞIRIĞI, VƏZİFƏSİ*

Allah-Taalanın dörd yaxın (müqərrəb) mələklərinin (Cəbrail, Mikail, Əzrail, İsrafil) hər birinin öz mühüm vəzifəsi vardır. Cəbrail peyğəmbərlərə vəhyin nüzul vasitəsi, Mikail ruzi vasitəsi, Əzrail can almağa mə"murdur. İsrafilin işi Qiyamət zamanıdır. O, əlində sur, həmişə Allah əmrinin intizarındadır. Rəvayətə görə, Allah buyurduğu zaman səmadan yerə enər.

## QİYAMƏTDƏ GÖYLƏRİN TİTRƏYİŞİ

Qiyamət qopanda səmalara titrəyiş düşər, səma sakinləri lərzəyə gələr. Hərəkət yerə yetişəndə Beytül-Müqəddəsdən (ilk qibləmiz) Kə"bəyə surda nida olar ki, "hamınız ölün!" İlk sur üfürülməsi ilə bir dənə də canlı qalmaz, nəfəslər kəsilər. Rəvayətdə vardır ki, bəziləri bazarda al-verə məşğul olduqları yerdəcə ölüm "nəfxəsi" üfürülər və yıxılarlar. Nə vəsiyyət edə bilər, nə də mənzillərinə qayıda bilərlər. "Yasin" surəsində (ayə 50) buyurulduğu kimi: "Nə vəsiyyət etməyə, nə də ailələrinin yanına qayıtmağa macal tapmayacaqlar."

Sonra səma əhli üçün də sur üfürülməsi əmr olar ki, bir ruh sahibi də sağ qalmaz. O vaxt buyurarlar ki, İsrafil özü də ölümə qovuşsun.

## *YALNIZ ALLAH QALAR, YALNIZ!*

İlahi qəhr nidası ucalar ki, ey itaətsizlər, ey təkəbbür göstərib, mənəm-mənəm deyənlər, haradasınız?! Bu gün mütləq hökumət və səltənət kimindir?!

Bir nəfər də olmaz desin ki, "vahid, qəhhar Allah!" Bu sur üfürülməsindən bir müddət keçmiş, ayılma, dirilmə, Qiyamətin qalxma "nəfxəsi" üfürülər.

Mə"sum İmamlardan (əleyhimussalam) sual olunub ki, aləmdə heç bir canlının olmayacağı iki nəfxə (üfürmə) arasındakı vaxt nə qədərdir? Rəvayətdə vardır ki, 40 il və ya 400 il. Eləcə də, rəvayətə görə həmin müddətdə fələklərin toqquşması, zəlzələlərin, dağların tikə-tikə parçalanması, dənizlərin od tutması kimi dəhşətlər

olacaqdır. Sonra da yağış yağması əmr ediləcək, bu şiddətli yağış 40 gün başdan-başa yer üzünə yağacaq.

## *SUR İKİNCİ DƏFƏ ÜFÜRÜLÜR*

İlahi əmrlə ikinci dəfə diriləcək ilk şəxs İsrafildir. O, suru üfürməli və Qiyamət qopmalıdır. İsrafil nida edər: "Ey bədənlərdən ayrılmış ruhlar, ey səpələnmiş bədənlər, ey çürümüş ət və sümüklər, ey dağılmış tüklər qayıdın və hesab üçün toplanın, tələsin hesaba"!

Yerə ilahi vəhy yetişər ki, qoynunda olanları bayıra töksün. Torpaqda olan bədənlər şiddətli zəlzələlər vasitəsi ilə bayıra çıxarlar, bədən zərrələri birləşər, ona ruh üfürülər, bir dəfəyə hamı ayağa qalxar. (Allah üçün bir nəfəri xəlq etməklə milyard nəfəri xəlq etməyin fərqi yoxdur, O qadirdir.)

Və"dəsinə vəfa edən Allaha şükürlər olsun!

Amma adamların görünüş və danışıqları müxtəlif olar. Əməlisalehlər qəbirdən baş qaldırdıqda, Allaha şükr edərlər ki, Öz və"dəsinə vəfalı olub, Qiyaməti bərpa etdi, onlar da öz saleh əməllərinin əvəzini alarlar. (39-cu surə, 74-cü ayə) Elələri də olar çarəsizlikdən fəryad çəkər, nalə qopararlar ki, kim bizi qəbirlərimizdən qaldırdı? (36-cı surə, 52-ci ayə) Rəvayətə görə, onlar bir ayağı qəbirdə, digər ayağı bayırda olan halda 300 il heyrətdə dayanacaqlar. Bu, əzabın müqəddiməsidir.

## *QƏBİRDƏN NECƏ BAŞ QALDIRARLAR?*

Bir gün Cəbrail Rəsulallah (səlləllahu əleyhi və alihi və sələm)-ə ərz etdi:

Adamların həşrinin (qəbirdən qalxmasının) necəliyini görmək istəyirsənmi? Buyurdu: Bəli. O, Həzrəti "Bəqi" qəbiristanına apardı, ayağını qəbrə vurub dedi: Allahın izniylə, qalx! Qəbirdən nurani bir şəxs baş qaldırdı və "həmd olsun Allaha ki, Öz və"dəsinə vəfa etdi" dedi. Sonra ayağını başqa qəbrə vurdu. Qorxunc görkəmli bir şəxs qəbirdən qalxıb, nalə çəkdi. Cəbrail ərz etdi: Mömin və kafir, qəbirdən bu sayaq baş qaldırar.

## *QİYAMƏT TEZ GƏLƏRMİ?*

Rəvayətə görə, möminlər (bərzəxdə) axirət ləzzətini daddıqlarından, Qiyamətin tez başlamasını Allahdan istəyərlər. Amma günahkarlar əzab nümunəsini gördüklərindən, "Xudaya, bizi yerimizdəcə saxla", deyərlər.

## *ALÇALDAN VƏ UCALDAN GÜN*

Bəzi adamlar dünyada təqvaya (Allahın Öz bəndələrindən istədiyi pəhrizkarlığa) malik olduqları halda alçaldılmış, hörmətsiz tutulmuşlar. Əksinə, bəziləri də dünyada möhtərəm, böyük tutulsalar da (ən əsası) təqvaları olmayıb. Qiyamət elə bir gündür ki, təqvalılar ucaldılacaq, təqvasızlar alçaldılacaq.

## *İÇ ÜZLƏR AÇILAR*

Həmin gün insanların iç üzləri açılar. Ey dünyada diqqətlə abır-həya gözləyənlər, heç sabahkı günün (Qiyamətin) xəcalətini düşünürsünüzmü?! Həmin gün daxili mələk olanların surəti məlaikə, daxili yırtıcı,

şəhvətcil olanların surəti meymun, it surətinə düşər. Son mənziliniz üçün bir iş görmüsünüzmü ki, sonradan xəcalət çəkməyəsiniz? Qarşıda nələr olacağını bilirsinizmi? Bilirsinizmi ki, məhşər səhrasında üryansınız, yoxsa yox?!

## *QİYAMƏT LİBASI (GEYİMİ) TƏQVADIR*

"Əraf" surəsi, ayə 26: "Bunlardan üstündür təqvadan olan geyim."

Qəbirdən baş qaldırılan zaman bir dəstəni çıxmaqla hamı üryandır (çılpaqdır). Məhşərə üryan daxil olmayacaq həmin dəstə pəhrizkarlar, təqvalılardır. Bu dünyadan təqva ilə köçən şəxs məhşərə ilahi libasla daxil olar. Dünyadan tövbəsiz gedib, bərzəxdə əzab görməklə paklanan möminlər də bu dəstədəndirlər. Amma, Allah eləməmiş, günahları pak olmadan məhşərə daxil edilənlər xəcalət yükündən qurtulmaq xatirinə tezliklə Cəhənnəmə getmələrini arzulayarlar.

## *ADƏM ÖZÜNÜ AĞAC YARPAQLARI İLƏ ÖRTDÜ*

Bəşər atası Adəm (əleyhissalam) ilk səhvi etdi və Behiştdən çıxarıldı, üryan edildi. O, məlaikələr qarşısında pis vəziyyətdə qaldığını görüb, bədənini yarpaqlarla örtdü. (7-ci surə, 21-ci ayə)

Bəli, günahkarlar ilahi örtükdən məhrumdurlar. Görən mənim və sizin üçün elə bir gün varmı ki, günahlarımızın üstünə günah gəlməsin? Niyə Qiyamətin çətin gününü fikirləşmirik? Mübarək ramazan ayında kimsəsiz səhralarda İmam Səccad (əleyhissalam)-ın Qiyamət üryanlığından etdiyi fəryadına qoşulub, həmsəda olaq.

## *GÜNAHKARLAR TANINAR*

Məhşərin ilk dayanacağında, Qurani Məcidin neçə yerində zikr edilmiş bir heyrət vardır ki, gözlərin hərəkəti dayanar. Günahkarların hansı günaha sahib olmasından hamı xəbərdar olar. Dünyada sərxoşluq edənlər məhşərə əlində şərab şüşəsi daxil olarlar. Allah-Taala Öz izzət və cəlalına and içib demişdir ki, hər bir şərabxora içdiyi şərab miqdarında Cəhənnəm həmimi içirdəcəkdir.

## *QİYAMƏTDƏ ŞƏRABXORUN MƏNZƏRƏSİ*

Rəsuli Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-dən nəql olunmuşdur ki, buyurdu: “Şərabxor Qiyamətdə çöhrəsi qara, gözləri göyərmiş, dodaqları sinəsindən ayağına sallanmış, dili ağzından çıxmış vəziyyətdə gələr. Yanından ötənlər onun qoxusundan əzab çəkərlər.”

Yenə bu barədə buyurmuşdur: “Məni peyğəmbərliyə məbus etmiş Allaha and olsun ki, şərabxor təşnə (susuz) ölər, təşnə halda qəbrə gedər, təşnə halda məhşur olar, min il təşnəlikdən nalə çəkdikdən sonra ona Cəhənnəm həmimi içirdilər.”

## *SƏLƏMÇİ VƏ TƏNBURÇUNUN (MUSİQİ ALƏTİ) ÇÖHRƏSİ*

Sələmçi (ribaxor) qəbirdən baş qaldırdığı zaman qarnı o qədər böyük olar ki, yerə dəyər. Durmaq istərkən bacarmaz və başını aşağı salar. Hamı onun sələmçi olduğunu bilər. Qina (haram çalğı) əhlinin çalğı aləti onun yanında olar. “Ənvari-nö”maniyyə” kitabında Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-

dən rəvayət olunub ki, buyurdu: “Tənbur sahibi üzü qara məhşur olar, əlində alovdan olan və başına çalınmış tənbur tutar, 70 min əzab mələyi başını, üzünü qamçılayar. Qina əhli-istər çalan, istərsə də oxuyan-kar, kor və lal məhşur olar.

## *İKİÜZLÜLƏR VƏ İKİ ALOV DİL*

Rəvayət olunmuşdur ki, xalqla münasibətdə ikiüzlü, ikidilli olanların, adamların yanında bir cür, arxasında başqa cür danışanların Qiyamətdə alovdan iki dili olacaqdır. Öz dilləri ilə adamları incidənlərin dilləri boyunlarının arxasından çıxarılacaq.

## *QİYAMƏTDƏ TƏKƏBBÜRLÜLƏR VƏ ZİNAKARLAR*

Bir dəstə adam qarışqa tək zəif halda ayaqlar altında əzilər-bunlar dünyada özünü yuxarı tutub, təkəbbür göstərənlərdir. Zinakarların ovrətlərindən axan çirkin qoxusundan məhşər əhli nalə çəkər.

## *ƏLLİ MİN İLLİK BİR GÜN*

“Biharül-ənvar”ın 3-cü cildində məsumlardan (əleyhimussalam) rəvayət olunmuşdur ki, Qiyamətdə hər biri min illik beş dayanacaq vardır. Yəni, hər bir dayanacaqda min il qalmaqla 50 min illik vaxt ötəcək.

## *NƏ ÜÇÜN QİYAMƏT HADİSƏSİ "QİYAMƏT GÜNÜ" ADLANDIRILIB?*

Əgər Qiyamət aləmində gecə, gündüz, Ay və Günəş yoxdursa, bu hadisə nə üçün "gün" sözü ilə tə"bir olunub? Çünki "gün" elə bir zaman fasiləsidir ki, günəş vasitəsilə işıqlanmış aləmdə insanlar gecə görmədiklərini aşkar, aydın görürlər. Eləcə də, dünyada gizli olan insan batini, əqidələrin əyri-düzlüyü, əməllərin pisi-yaxşısı, onların əsər-əlamətləri Qiyamətdə tam işıqlanar. Buyurulmuşdur: "İnsanın güman etmədikləri zahir olar."

## *QİYAMƏTİN PARLAQ HƏQİQƏT GÜNƏŞİ*

Bəli, dünya gecədir, zülmətdir. Kimsənin kimsədən, hətta öz batinindən xəbəri yoxdur. İşlərin üzərinə pərdə çəkilib. Amma Qiyamət gündür, gündüzdür. Doğrudan da gecəsiz bir gündür. Elə bir gün ki, o gün 50 min il parlayacaq, həqiqət günəşinin işığında kimliyimizi, başqalarının kimliyini anlayacağıq.

## *QİYAMƏTDƏ QORXU DAYANACAĞI*

Dedik ki, Qiyamət dayanacaqlarından biri heyrətdir. Digər bir dayanacaq qorxudan sükutdur ki, bu barədə Quranda belə buyurulmuşdur: "Allahın qarşısında səslər kəsilər, pıçıltıdan (həm-həmə) savayı bir səs eşidilməz." (20-ci surə, 108-ci ayə) "Səslənmək istəyərlər, amma qorxudan ürəklər boğazları tıxaclar." ("Mömin" surəsi) Digər bir dayanacaqda söhbət gedər, adamlar bir-birlərinin günahlarını, savablarını soruşarlar. (37-ci surə, 72-ci ayə)

## *ÇƏYİRTKƏ KİMİ PƏRAKƏNDƏ DAĞILARLAR*

Digər dayanacaqda hamı bir-birindən: ata oğuldan, qadın ərindən, qardaş-qardaşdan və s. qaçarlar. Quranda xalqın o günkü halı "pərakəndə pərvanələr" kimi tə"bir olunub (103-cü surə, 3-cü ayə).

"Tur" surəsində (7-ci ayə) buyurulur: "Kafirlərin gözlərindən qorxu yağar, qəbirlərindən çıxıb, məhşər səhrasında çəyirtkə tək dağılarlar." Diqqət etmisinizmi, çəyirtkələr necə nizamsız uçur? Bəzisi aşağı, bəzisi yuxarı, bir dəstəsi sağa, bir dəstəsi sola uçub pərakəndə şəkildə dağılırlar. Qadınla ər də bir-birlərindən beləcə qaçar, pərakəndə olarlar. Amma bu qaçmağın faydası olmaz.

## *QAÇMAQLA QURTULMAZLAR*

"Ər-rəhman" surəsinin təfsirində buyrulur: O gün birinci göy (təbəqəsi) mələklərinə əmr olunar ki, yerə enib, insanları dairəyə (mühasirəyə) alsınlar, ikinci göy mələkləri birinci göy mələklərinin dövrəsini tutsunlar. Beləcə, yeddi cərgəlik mələklərdən ibarət ilahi qoşun məhşər səhrasını dövrəyə alar. (55-ci surə, 33-cü ayə) "Ey cin və ins, bacarırsınızsa qaçın, amma bu, qeyri-mümkündür" (təfsir). O gün insan deyər: "Hara qaçım, hara gedim?" (75-ci surə, 10-cu ayə). Amma qaçmağa heç bir yer yoxdur, Allaha tərəf qayıtmaqdan savayı! (Əlbəttə, bu cəhət, yol Allahla olanlar üçündür, başqaları üçün sığınacaq yoxdur.) (75-ci surə, 11-ci ayə)

## *QİYAMƏTDƏ SAVAB ÜÇÜN ƏL AÇILAR*

Hər kəs öz tanışına əl açar ki, öz savabından ona da versin. Lakin hər kəs savaba möhtac olduğundan, başqasına savab verməz. Ata öz övladına, onun tərbiyəsinə çəkdiyi əzab-əziyyətləri xatırladıb ondan savab istəyər. Övladsa "mən səndən də çox möhtacam", deyə cavab verər. Beləcə, qardaş-qardaşa və s. cavab verər. Hamı çətinlikdə olduğundan, başqasının dadına çatmaz.

## *ƏMƏLLƏR NAMƏSİ*

"Haqqə" surəsi, ayə 78: "(Sizi) Rəbbinizin hüzuruna gətirərlər, həmin gün sizin heç nəyiniz gizli qalmaz. Əməl dəftəri sağ əldən verilən kəs deyər: Yazımı alın, oxuyun, mən bu günü görəcəyimə əmin idim."

İnandığımız dini həqiqətlərdən biri də Quranda neçə yerdə əksini tapmış əməllərin yazılmasıdır. Quran buyurur: "Kərim mələklər bütün əməlləri yazarlar." (82-ci surə, 11-ci ayə). Digər bir yerdə bu mələklərin ən kiçik sözləri də qeyd etdiyi bildirilir. (50-ci surə, 17-ci ayə). Bu yazılışın hansı şəkildə olduğunu (qələm-kağızla, yoxsa başqa cür) biz yox, nübüvvət gözü görür. Ümumiyyətlə, heç bir şey ötürülmür. Hətta xeyir niyyətlər də yazılır.

## *ƏTİR QOXUSU XEYİR NİYYƏTİ BİLDİRİR*

Ravi İmam (əleyhissalam)-dan soruşur ki, məlaikələr insanın xeyir niyyətindən necə xəbərdar olurlar? Həzrət buyurur: "Xeyir niyyət edən şəxsdən ətir qoxusu qalxır və onlar anlayırlar. Eləcə də, pis niyyətdən qalxan pis qoxu

onları narahat edir. Yalnız xeyir niyyətə bir savab (həsənə) yazılırsa, bu niyyətə əməl edildikdə, on savab qeyd olunur (6-cı surə, 161-ci ayə). Amma icra olmuş günah üçün birdən artıq yazılmır.

## *GÜNAHI YUMAQ ÜÇÜN MÖHLƏT*

Qeyd edən iki mələkdən biri Ətid, o biri isə Rəqibdir. Günah etmiş şəxsin günahını Ətid yazmaq istərkən, Rəqib “möhlət ver, bəlkə, peşman olub tövbə etdi”, deyir. Ona 5-7 saat möhlət verilər. Əgər tövbə etməzsə, “necə də həyasız bəndədir!”, deyib günahını yazarlar.

## *HƏTTA ALOVU ÜFÜRMƏK DƏ YAZILIR*

Rəvayətlərdən belə anlaşılır ki, hər kəsin iki kitabı (dəftəri, naməsi) vardır-savab kitabı və günah kitabı. İnsanın bütün əməlləri, hətta alovu üfürməsi də qeyd olunur. “Əl-Qəmər” surəsinin 52-53-cü ayələrində buyurulur: “Onların etdikləri hər şey dəftərlərdədir. Hər bir kiçik və böyük günah yazılmışdır!”

## *BOŞ DANIŞAN CAVANLARA ƏLİ (ƏLEYHİSSALAM)-IN BUYURUĞU*

Şeyx Səduqun “Əqidələr” kitabında nəql olunub ki, bir gün Əli (əleyhissalam) yoldan ötərkən boş-boş danışıb, gülən bir dəstə cavan gördü. Həzrət buyurdu:-Niyə əməl namənizi bu işlərlə qaraldırsınız? Dedilər:-Ya Əmirəl-möminin, bunlar da yazılırmı? Buyurdu:-Bəli, hətta aldığınız nəfəs də yazılır...

Bəli, insanların əziyyətini aradan qaldırmaq üçün yoldan bir tikan, daş götürüb atmaq kimi xırda əməllər də hədər olmayacaqdır.

## *ƏMƏL NAMƏSİNİN HİKMƏTİ*

Əməl naməsi nə üçündür? Əməlisalehlərin əməl dəftərinin mələikələrin göyə qaldırmaq, günahkarların əməl dəftərlərini siccinə (Cəhənnəmin alt təbəqəsi) endirməsi nə üçündür?

Cavab: Allah-Taala insanın günaha batmasını istəmir. Buna görə də onun üstünə nəzarətçi qoyur. Bəli, insan öz üzərində müfəttişi görəndə, ehtiyatlı olur.

Ey günahkar insan, sənin həya edib, günahdan uzaqlaşmağın üçün Allah-Taala sənin bədən üzvlərinə əlavə olaraq iki müfəttiş də müəyyən edib. (Ayıq ol!) Bu iş möminlərin də xeyrinədir-saleh əməllərin dəyəri daha da aşkarlanar.

## *ƏLAÇI ŞAGİRDİN SEVİNCİ: "BAXIN, MƏNİM GÜNDƏLİYİMƏ BAXIN!"*

Dərsindən əla qiymət almış şagird necə də sevinir, fəryad qoparır: gəlin, gəlin mənim gündəliyimə baxın, hamısı ə"ladır! Qiyamətin səhəri də əməl naməsi əlinə verilmiş möminlər beləcə sevincli, şaddırlar: Ey dostlar, ey tanışlar, gəlin mənim əməl naməmi oxuyun, namazlar, oruclar, sədəqələrim qəbul olub, baxın, mən dünyada bu günümün, hesabımın fikrində olmuşam. Belə bir şəxs xoşbəxtlikdə, əbədi rahatlıqda, böyük Behiştdə olacaqdır. Amma vay o şagirdin halına ki, "iki" alıb rədd edilib. Küçələrdə başı aşağı, asta-asta ötüb, ağlaya-ağlaya evə

gəlir, ölüm arzulayır, bəzən də huşunu itirib yerə yıxılır. Bu ağır halın minlərlə yuxarı mərtəbəsini düşünün-bu, əməl naməsi sol əlinə verilmiş günahkarların halıdır!

## *KAŞ ƏMƏL NAMƏMİ VERMƏYƏYDİLƏR*

Deyərlər: Kaş, əməl naməmi əlimə verməyəydilər, hesabımın necəliyini bilməyəydim... (Bu sözlərin səbəbi namədəki rüsvayçı əməllərin görünməsidir.) Kaş bu işlərdən məni saxlayacaq ölüm gələydi. Kaş, dünyadakı ölümdən sonra həyatım olmayaydı. Kaş, ölməklə rahatlanaydım.

Həsrətlə deyər: Sərvətimdən mənə haray olmadı, mülküm, qüvvəm əldən çıxdı...

## *ƏMƏL NAMƏSİ NƏ ÜÇÜN ARXADAN VERİLİR?*

Elə adamlar da vardır ki, əməl namələri arxadan verilir. Nə üçün? Burada iki ehtimal vardır: Əvvəla, əlləri arxadan bağlanmış adamın naməsini arxadan əlinə verər və başını çevirərlər. İkinci ehtimal budur ki, sol əlini sinəsinə batırmaqla, arxadan çıxarar, naməsini əlinə verib, başını çevirərlər, “naməni oxu” deyərlər. Vay olsun, qeybətlərini, böhtanlarını, yalanlarını, abırsızlıqlarını, günahlarını özü oxumalıdır. Sonra əza və üzvlərlə edilən günahlar uca səslə nalə çəkər: Vay olsun halımıza, ən kiçik və böyük əməllər bu kitabda yazılmışdır. Bütün etdiyi əməlləri qarşısında hazır görəcək. “Kəhf” surəsi, ayə 49: “Əməl dəftəri qarşısına qoyulacaq. Günahkarların orada yazılmış öz əməllərindən qorxduqlarını görəcəksən.”

## *ƏMƏL NAMƏSİNİ GÖRƏN ZAMANDAKI ŞİDDƏTLİ NARAHATLIQ*

Bəziləri öz əməl namələrini gördükdə bədəninin bəndləri (oynaqları) bir-birindən qopar, gözlərindən çirk və qan tökülər. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) rəvayətinə görə, nida yetişər ki, məgər namənizdə, etmədiyiniz əməlləri görürsünüz? Ərz edərlər: "Pərvərdigara, yox, hamısı doğrudur." Sonra başlarını aşağı salarlar.

## *DƏRHAL VƏ YA MİN İL GÖZLƏMƏ*

Qiyamətdə insan bir andaca bütün dünya əməllərini xatırlayar, görər. Qəribə aləmdir, hər kəsin əməllərinin hesabı özünə aydındır. Bəzilərinin hesabı bir göz qırpımı çəkir. Bunlar salehlərdir. Bəzilərinin də hesab verməsi min il uzanır. Əlbəttə, Allah üçün hesablamaq vaxt aparmaz. Məqsəd həmin adamların sərgərdançılıq və əziyyətdə qalmasıdır. Bəziləri üçün bu məəttəlçilik (gözləmə) bir qoyunun sağılması qədər, bəziləri üçün zöhrdən əsrədək bir müddət, bəziləri üçün 40 il, min il və ya 50 min il!

## *ƏHLİ-BEYT (ƏLEYHUMUSSALAM) DOSTLARINA MÜJDƏ*

(Fatimeyi Zəhra (əleyha salam) və 12 İmam (əleyhimussalam) Peyğəmbərin Əhli-beyti adlanır). "Biharül-ənvar"ın 3-cü cildində nəql olunur ki, İmam Sadiq (əleyhissalam) buyurmuşdur: "Qiyamət günü bizim şiələrin hesabını Allah-Taala bizə həvalə edir. İnsanın

Allaha aid haqqının, vəzifələrinin bizə bağışlanmasını Allahdan diləyərik. Bu haqq onlara bağışlanar. Özümüzə olan haqlarını da bağışlayarıq. (Sonra bu şərif ayəni oxuyur:) "Onlar Bizə tərəf qayıdar, onların hesabı Bizimlədir. Bu, başqa cür deyil."

## *HƏZRƏT MÜHƏMMƏD (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİHİ VƏ SƏLLƏM) ŞİƏLƏRİN XALQA BORCUNU (MƏZALİMİNİ) ÖDƏYƏR*

"Biharül-ənvar"ın "Qiyamət gününün hesabı" fəslində Həzrət Sadiq (əleyhissalam)-dan rəvayət olunub ki, Allahın və İmamın haqqı ödəndikdən sonra şiələrin öhdəsində olan xalqın haqqını (həqqünnas) Həzrət Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm) sahiblərinə qaytarar...

## *ŞÜKÜR İLAHİYYƏ Kİ, HESABÇIMIZ KƏRİM ŞƏXSLƏRDİR*

Şiələr üçün böyük müjdədir ki, Qiyamətdə hər kəsin hesabı öz İmamına həvalə olunacaqdır. Xoş halına o şəxsin ki, əməllərinin hesabını kərim olan İmam Höccətibnil-Həsən (əleyhissalam) aparsın. Əlbəttə, kölgəli əməllərimizə baxdığı zaman başımızı aşağı salacağıq.

Amma onlarla dost olduğumuzdan, ümidvarıq ki, bizə şəfaət etsinlər. Şükür Allaha ki, hesabımız Allah yanında uca məqamı olan kərim şəxslərə tapşırılıb.

## *MİZAN (ÖLÇÜ)*

İnanmalı olduğumuz həqiqətlərdən biri də mizandır. Qiyamət günü başlananda, hər kəsin əməlləri ölçülər, yaxşı və ya pis işlərinin çoxluğu mə"lum olar. Mizan dinin zəruriyyətlərindəndir. Bəs, mizan və ölçünün həqiqəti nədir? Bu barədə alimlər öz baxışlarını, nəzərlərini bildiriblər. Bəziləri onu əməl naməsinin ölçülməsi, çəkilməsi bildiriblər. Bəziləri buyurublar ki, əməllər maddi, cisim surəti alıb çəkiləcəkdir. Bunların heç birinin mö"təbər mənbəsi yoxdur. Amma səhih nəzərə gələn odur ki, mizan ölçüdür-xırdadan böyüyədək hər şeyin ölçüsü.

## *MİZAN–TƏRƏZİ YA QAPAN DEYİL*

Mizan haqqında deyilənlərdən belə təsəvvür yaranmasın ki, mizan–tərəzi, yaxud qapandır. Tərəzi və qapan buğda, arpa çəkmək üçün işlənər. İlahi ədalət mizanı isə sizin namaz, oruc, sədəqələrinizi, xeyir və şər əməllərinizi ölçmək üçündür. Hər kəsin xeyir əməli üstün olarsa, nicat tapmışdır. Əksinə, pis əməlləri ağır gələnlər isə azğınlardır: "Onlar özlərinə zülm edib, ziyan vurdular."

Xülasə, Qiyamət günündə hər kəsin xeyir və şər əməlləri ölçülər, amma biz onun necəliyini bilmirik.

### *HAQQIN MİZANI ƏLİ (ƏLEYHİSSALAM)-DIR*

İynə ucu qədər səhvi olmayan ilahi ədalət mizanı Əli (əleyhissalam)-dır. Əvvəlkilərin və sonrakıların namazları gətirilər və Əli (əleyhissalam)-ın namazı ilə ölçülər.

Həzrət Sadiq (əleyhissalam) buyurmuşdur: "İnsanların ibadətlərini və əməllərini ölçmək üçün peyğəmbər, övsiya, Əhli-beyt (əleyhimussalam) mizanları qurular. Qiyamətin səhəri namazlarımızı gətirər və belə ölçərlər: Əlinin namazı kimidir, yoxsa yox? Əli (əleyhissalam)-da olan kamillik sifətlərindən bizdə var, yoxsa yox? Səxavət, şücaət, qeyrət, mərdlik, kərəm, rəhm, insaf və s. bizdə də varmı?

Əlbəttə, ibadətlərin Əli (əleyhissalam)-ın ibadəti kimi olması qeyri-mümkündür, amma ibadətimizin istiqaməti zidd, haqq mizanından kənar olmasın. Əgər harama əl uzadıb, xalqın malını yemisənsə, bu mizandan kənarsan.

### *DÜZ YOLDA HANSI PİSLİK GÖRMÜŞÜK Kİ, ƏYRİ YOL GEDƏK?!*

Mömin insan haqq mizanının doğru yolundan başqa yol getməz. Nə pislik görüb ki, qeyri-şər"i, əyri yol getsin?! Bu hicablı qadınların çılpaq rəqqasələrdən, qadınlardan nəyi əskikdir?! Elə fikirləşməyin ki, o çılpaqlar həyatdan daha çox ləzzət alırlar. Bilin ki, həqiqi ləzzətlər imanlı insanlarındır. Xəstəlik hamıya aiddir, nikah hamıya aiddir və s., amma dünya ləzzətlərinin davamı yoxdur. Dinə bağlı olmayanlar daha artıq məhrumiyyətlərə düçar olurlar. Məsələn, ekranda gözü gözəl bir qadına düşür, qəlbi titrəyir, ona eşq bağlayır. Amma nə olsun ki? Əziyyətdən başqa nə qazanır?! Tutaq

ki, bu qadını min bir əziyyətlə axtarıb tapdı və qadın da ərli oldu. Başına nə kül töksün?! Və ya şərabxorları götürək. Bu yolda nə qədər əziyyətlər çəkirlər?! Bir saat "ləzzət"dən ötrü əzablar çəkir, zindana da düşürlər!

### *RAHATLIQ İMANLI İNSANLARA MƏXSUSDUR*

Halal yolla qazanıb, haramdan çəkinən kəs Allahın onun ruzisinə zamin olduğunu bilir, müamiləsində saxtakarlıq etmir, müştərini aldatmır. Amma haqq mizanına bağlı olmayan bədbəxt mədhiyyə deyir, rəqasslıq edir, min kələk gəlir ki, qarşısındakını aldatsın. Ətrafımızı öyrənib, maddi dünyada haqq mizanından uzaq olanları nəzərdən keçirsək, görərik ki, onların başqalarından heç bir üstünlükləri yoxdur. Rahatlıqdan danışsaq, o da imanlı insanlar üçündür.

### *DÜNYAPƏRƏSTLƏRİN QAZANCI, FAYDASI ŞÜBHƏLƏRİ*

Dediyimiz kimi, haqq mizanı düşünənlər axirətdə xoşbəxt olmaları ilə yanaşı, dünyada da zərər etmirlər. Əgər dünyada bir fayda varsa, o da imanlılarındır. Əksinə, haqq mizanından sapanların axirət zərəri aşkardır. Onların dünyadakı qazancları da şübhəlidir (bəlkə də zərərdən başqa xeyirləri yoxdur). On manat hiyləylə qazanıb, bu on manatın da üstünə neçə qat qoyub həkimə, dərmana verir.

Ey rahatlıq istəyənlər, haqq mizanından sapmayın! Axı doğruluqdan, dügünlükdən kim ziyan görüb?! Al-verdə yalan danışmayan zərər edirmi?! Əgər belə deyilsə, nə üçün düzlükdən uzaq olaq?! Gəlin, heç zaman haqq

mizanından əyilməyək. Haqq mizanı isə Əmirəl-mömininindir. (Bir iş görəndə düşünək ki, Həzrəti Əli (əleyhissalam) bu işi görərdimi?)

## *HESABA GÖRƏ ADAMLAR DÖRD YERƏ AYRILIR*

Qiyamət günündə hesab verənlər dörd dəstədirlər: bir dəstə Behiştə hesabsız daxil olar-onlar Əhli-beyt (əleyhimussalam) dostlarıdır ki, günah etməmiş və ya dünyadan tövbəsiz getməmişlər; ikinci dəstə Cəhənnəmə hesabsız daxil olar-onlar dünyadan e"tiqadsız, imansız gedənlərdir. (İmansız olduqlarından, əməlləri də faydasızdır.)

## *BİR GÜNAH ÜÇÜN YÜZ İL ƏZAB*

Əməllərinin hesabı olan, Qiyamət dayanacağında gözləyən adamlar üçüncü dəstədir. Bu adamların xeyir əməlləri daha çox olduğundan, nicat tapmışlar. Onların dayanacaqda məəttəlçiliyi, gözləmələri günahları qədərdir. Rəsulullah (səlləllahu əleyhi və alihi və səlləm) ibni Məs"uda buyurdu: "İnsan bir günah üçün yüz il məəttəl olar." Rəvayətdə söhbətin hansı günahlardan getdiyi deyilməyib. Möminlər hesab gözləməsindən qorxub, bütün günahlardan çəkinməlidir.

Dördüncü tayfa pis işləri yaxşı işlərindən çox olanlardır. Əgər Allah onları bağışlayarsa, nicat taparlar və Behiştə gedərlər. Əgər bağışlanmasalar, yerləri əzab və oddur. Yalnız günahlardan paklandıqdan sonra Behiştə daxil olarlar. Zərrəcə imanı olanlar Cəhənnəmdə, odda qalmayacaqlar (əbədi od kafir və zalımlarındır). Əməllər

nə qədər gözəl və çox olsa da, e"tiqadsız insan Behiştə aparılmayacaq. Çünki Behiştə daxil olmağın şərti Allah və Onun ayələrinə imandır. Axı Allaha inanmayan kəs, Behiştə necə gedə bilər?!

## *TƏQVANIN YETƏRLİYİ İMANLI ÖLÜMDÜR*

"Biharda"da bir hədisdə Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) buyurmuşdur: "Hər kəs bir ərəbin (yolçunun) səfər yeməyini hazırlasa, onun təqva ehtiyatına mən zaminəm." Salman ərz etdi: "Ya Rəsuləllah, təqva ehtiyatı (tədarükü, yetərliyi) nədir?" Buyurdu: "Ölüm zamanı "La ilahə illəlah" demək. Əgər bunu desən, bizi görərsən, deməsən bizi də görməyəcəksən."

Tovhid kəlməsini (la ilahə illəllah) deməkdə məqsəd iman və e"tiqadlı ölümdür. Əgər canvermə halında (səkərat) zəiflikdən dil danışmasa da, qəlbin imanı kifayətdir. Təlqini ürəkdən keçirmək kifayətdir.

## *ƏMƏLLƏRİN PUÇA ÇIXMASI*

"Mühəmməd" surəsi, ayə 8: "Kafirlərə gəldikdə isə, hamısı məhv olsun-onların əməllərini puça çıxardar. Bu ona görədir gi, kafirlər Allahın nazil etdiyini (Quranı) bəyənmədilər, Allah da onların əməllərini puç etdi."

Sadə desək, ömrünün əvvəlindən axırınadək xeyir işlər görmüş insan dünyadan imansız (Allaha inamsız) gedərsə, xeyir əməllərinin faydası yoxdur. Əgər bir kəs zərrə qədər yaxşı iş görmüşdürsə, xeyrini görəcəkdir. Quran ayəsinə istinad etsələr, cavab budur: Kafir halda ölən insan öz əliylə öz əməllərini puç etmişdir. Allahı (və

Onun ayələrini) inkar etməklə əbədi savaba, Behiştə nail olmaq qeyri-mümkündür. Allah həmin adamın yaxşılıqlarının əvəzini elə həmin dünyada asan can verməklə, sağlamlıqla və s. ödəyir.

## *HATƏMİ TAİ VƏ ƏNUŞİRƏVANLA OD ARASINDA PƏRDƏ*

Kafirin yaxşı əməlləri onun Cəhənnəm əzabını yüngülləşdirə bilər. Çünki səxavətdə məşhur Hatəmi Tai və ədaləti ilə tanınmış Ənuşirəvan Cəhənnəmdədirlərsə də, od onları yandırmır. Xeyir əməllər yalnız odla bu şəxslər arasında pərdə ola bilmişdir. Bir sözlə, dünyadan kafir gedənlərin əməli puçdur.

## *İMANSIZ ÖLÜMƏ APARAN GÜNAHLAR*

Müxtəlif Quran ayələrində əməli puç edənlərdən şirk (Allaha şərik qoşmaq) və küfr (Allahı inkar etmək) zikr edildi. Bəs başqa günahlar necə? Onlar da əməlləri puç edirmi? Bəli, bəzi günahlar barədə məxsus rəvayətlər vardır. Məsələn, aqvalideynlik (ata-ananın üzünə qayıtmaq, itaətsizlik etmək) barədə buyurulub: Nida yetişər, ey aqvalideyn, nə etsən də səndən qəbul olunmaz. İnsanın ardınca ananın narazılıq ahı onun dağca əməllərinə od vurar. Digər günahlardan, böhtan imansızlığa səbəb olar. Başqalarının əziyyətinə, incidilməsinə bais olan həsəd də bu günahlardandır.

## *KÜFRÜN KƏFFARƏSİ İMAN, GÜNAHIN KƏFFARƏSİ TÖVBƏDİR*

Kəffarə günahın təirini məhv etmək, örtmək mənasındadır. İmanı qəbul etməklə əvvəlki küfrlərin məhv olacağına şəkk yoxdur. Əgər ömrünün əvvəlindən imansız olmuş bir şəxs imana gəlib, dünyadan gedərsə, şəksiz ki, nicat tapanlardandır. Amma baş vermiş günahları qəti silib, örtəcək şey şərtləri ödənmiş tövbədir. Tövbə edənlər barədə Quran buyurub: "Allah onların günah və pisliklərini savab və yaxşılığa çevirər."

## *YAXŞILIQLAR PİSLİKLƏRİ SİLƏR*

Görən, həqiqi tövbədən başqa da günahları pak edəcək, siləcək əməl varmı? Belə bir ayə buyurulub: "Gözəl əməllər çirkin əməlləri pak edər." Məhz hansı əməllərin nəzərdə tutulduğu bəzi rəvayətlərdən aydın olur. Məsələn, "Bihar"ın 15-ci cildində rəvayət olunub ki, bir nəfər Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in yanına gəlib ərz etdi ki, mənim günahım böyükdür (o cahiliyyət dövründə qızını diri-diri torpağa basdırmışdı). Mənə bir əməl tanıtdırın ki, Allah ona görə məni bağışlasın. Həzrət buyurdu: Anan varmı? Ərz etdi ki, xeyr. (Mə"lum olur ki, bu sayaq günahların bağışlanması üçün ən böyük əməl anaya yaxşılıqdır.) Həzrət buyurdu: Xalan varmı? Ərz etdi ki, bəli. Buyurdu: Xalana yaxşılıq et (anaya bağlı olduğundan, anaya da yaxşılıq olmuş olar).

Sonra Həzrət buyurdu: Əgər o şəxsin anası qalsaydı, daha yaxşı olardı. Belə günahların yuyulmasında anaya yaxşılığın əhəmiyyəti şəksizdir.

## *QİYAMƏT SUALLARI*

Qurani Məcidin neçə yerində zikr olunub ki, peyğəmbərlər və ümmətlərdən sual olunar. (7-ci surə, 6-cı ayə) Peyğəmbərlərdən sual olunar: Sizi xalqın (haqqa doğru) də"vəti üçün göndərdik, onlara (də"vəti) çatdırdınızmı? Deyərlər: Pərvərdigara, Özün şahidsən, biz süstlük etmədik. Nida olar: Şahidiniz kimdir? Deyərlər: Şahidimiz Xatəmül-ənbiyadır (son peyğəmbər Həzrət Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm)). Eləcə də Məryəm oğlu İsadan soruşarlar: Sən dedinmi, mənə və anama pərəstiş edin? Həzrət İsa, Allahın əzəməti qarşısında lərzəyə gəlib ərz edər: Pərvərdigara, əgər mən belə bir söz desəydim, Sən bilərdin. Mən dedim ki, Allahın bəndəsiyəm, mənim və özünüzün Allahına pərəstiş edin ("Maidə" surəsinin axırı).

Ümmətlərdən sual olunar: Peyğəmbərləriniz sizə bu günkü olacaqlardan xəbər vermədimi? Hamı deyər: Bəli.

## *QİYAMƏTİN SƏHƏRİ NEMƏTLƏRDƏN SUAL OLUNAR*

Sual mövzusunda başqa bir sorğu Allahın nemətləri barədədir ki, bu nemətlərlə necə rəftar olundu? (102-ci surə, 8-ci ayə) Ne"mətə şükr olunub, yoxsa yox?

Nemətlərdən sual barədə müxtəlif rəvayətlər vardır. Nemətin mərtəbələri mövcuddur. Bu nemətlərin ən mühümü Ali-Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm) vilayətidir. Hətta ayədəki "mütləq soruşulan nemət" vilayətdir.

İmam (əleyhissalam) Qitadəyə buyurdu: "Nemətlər barədə mütləq sorğu-sual olunacaq" ayəsi barədə nə deyirsiniz? Ərz etdi: Su, çörək və başqa şeylərdən sorğu olunar. İmam (əleyhissalam) buyurdu: Allahın kərəmi bu sualları verməkdən daha da üstündür (yəni, Allah əsla belə suallar verməz). Əgər siz bir nəfərə süfrə açsanız, ikinci dəfə o yeməklərin sorğusunu apararsınızmı? Ərz etdi: Bəs bu ayədən məqsəd nədir? Həzrət buyurdu: Nemət biz Ali-Mühəmmədin vilayətidir.

## *VİLAYƏT NEMƏTİ İLƏ NƏ ETDİNİZ?*

Sual olunar: Siz Ali-Mühəmmədlə (Həzrəti Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm) və onun onun haqq vəsiləri ilə) nə etdiniz? Onların məhəbbətindən, təbiətindən nəyə yiyələndiniz? Peyğəmbər ailəsinin düşmənlərindən soruşular: Nə üçün bu nemətlə düşmənçilik etdiniz?

Əgər israfçılıq olmayıbsa, haramdan qazanmayıbsa, harama xərclənməyibsə, yeməkdən sual olunmaz. Bütün haramlar və günahların səbəbi soruşular.

## *HAMIDAN DÖRD NEMƏT BARƏDƏ SORUŞULAR*

Xüsusi soruşulacaq nemətlər də vardır. Dörd nemətin cavabı verilməzsə, kimsəyə qədəm götürməyə icazə

verilməz. Bu nemətlərdən biri ömürdür, soruşular ki, harada, necə keçirib? İkincisi, cavanlıqdır, soruşular ki, özünü nələrə mübtəla edib? Üçüncü nemət var-dövlətdir, haradan qazanılıb və harada xərclənib? Nəhayət, dördüncü nemət Ali-Mühəmməd (əleyhissalam) vilayəti, ilahi qanunlar barədədir; ömrünü hansı qanunlarla yaşamısan? Məmləkətin hansı qanunlarla idarə olunub?

## *İBADƏTLƏRDƏN SUAL VERİLƏR*

Sorğu başlanarkən ilkin soruşulacaq ibadət-namazdır. Vacib namazlar vaxtında qılınmışdırmı? “Dinin sütunu”, “Allahın əmanəti” adlandırılan bu ibadət düzgün icra olunmuşdurmu?

Sonra başqa ibadətlərdən də sorğu olar.

## *GÜNAHLAR ÜÇ QİSMDİR*

“Nəhcül-bəlağə”də Əmirəl-möminin Əliyyibni Əbitalib (əleyhissalam) buyurur: Günah üç qismdir: bağışlanacaq günah, bağışlanmasına sahibinin ümidvar olduğu günah, bağışlanmayacaq günah.

Bağışlanacaq günah dünyada cəzası çəkilmiş günahdır. Allah bir günaha iki dəfə cəza verməz.

Bağışlanmasına ümid oln günah o günahdır ki, dünyada cəzası çəkilməsə də, bu günaha tövbə olunmuşdur.

## *XALQIN HAQQI (HƏQQÜN-NAS)*

Üçüncü qisim-bağışlanmayan günah bəndələrin bir-birlərinin haqqını tapdalamasıdır.

Allah xalqın haqqını bağışlamır.

Əgər bir insan zülmlə başqasından bir şey, hətta saman çöpü də almış olsa, Allah o adamı cəzalandıracaqdır. Quran ayəsində buyurulur: “Allah gözləyir hər kəsin haqqını özünə qaytarsın.” (89-cu surə, 14-cü ayə)

## *BİR SAMAN ÇÖPÜNƏ GÖRƏ BİR İL MƏƏTTƏLÇİLİK (GÖZLƏMƏ)*

Mühəddis Qummi “Mənazilül-axirət” kitabında adı dillərdə dolaşan zahid, abid Süleyman Dərayinin hekayətini nəql edir. Ölümündən sonra onu yuxuda görüb, əhvalını soruşublar ki, necəsən? Deyib: Bir ildir bir dayanacaqda, dolamada məəttələm. Bir gün şəhərə aparılan saman tayasından dişimi xilal etmək (təmizləmək) üçün bir çöp qopartdım. Bir ildir sorğudayam ki, nə üçün xalqın malından icazəsiz istifadə etmisən, sahibi razı idimi?

## *ZÜLMLƏ MƏNİMSƏMƏ DOLAYINDA MİN İL*

Düzdür, saman çöpü bir şey deyil. Amma hər halda maldır və xalqın mülküdür. Bəziləri bir-birlərini utandırırlar ki, bir şey qoparsınlar. Həyasızlıqla qazanmaq, qoparmaq haramdır. Elə işlər görün ki, dünyadan gedəndə çiyninizə yük düşməsin. Əgər bu vaxtadək səhlənkarlıq etmisinizsə, sahibindən halallıq alın. “Zülmlə mənimsəmə” dayanacağında adamların vəziyyəti müxtəlif olar. Bəziləri bu sorğu dayanacağında min il yubanarlar.

## *HÜQUQUN ALINMASI*

Allah-Taala Öz bəndələri ilə iki qism hesab aparır: Ədaləti ilə (zərrə-zərrə) və fəzli ilə (bağışlamaqla). Ədalət hesabına görə hər kəsin başqasında haqqı olsa, bu haqq həmin adamın hesabından götürülməli, haqq sahibinə qaytarılmalıdır. Məsələn, bir şəxs digərinin qeybətini edibsə, Allah-Taala bildiyi qədər onun savablarından, ibadətlərindən götürüb, qeybəti edilmiş şəxsə verər. Əgər qeybət edənin savabı yoxdursa, qeybətini etdiyi şəxsin günahlarından həmin miqdar götürməlidir.

## *HEÇ BİR SİTƏMKAR CƏZASIZ BURAXILMAZ*

Qiyamətdə insanların hesabı, zülmlə mənimsənilmişlərin qaytarılması barədə genş bir hədisin sonunda İmam Səccad (əleyhissalam) buyurmuşdur: Xudavənd buyurur: Mənəm o Allah ki, Məndən başqasının pərəstişə ləyaqəti yoxdur. Zidd, xilaf, sözlər qarşısında hakiməm. Sizin aranızda Öz ədalətimlə mühakimə edirəm. Bu gün kimsəyə zülm olunmaz. Bu gün məzlumun dadına çataram. Məzlumun haqqını borcludan alaram. Boynunda kimsənin haqqı olan zalımlar qarşımdan ötüb keçə bilməz. Ey insanlar, birləşin, kimsənin sizdən zülmlə aldığını dünyada ondan istəyin. Mən o şəxsin əleyhinə sizin şahidinizəm.

## *MÖMİNİN KAFİRDƏN, KAFİRİN MÖʾMİNDƏN QİSASI*

Hədisdə vardır ki, Qüreyşdən olan bir kişi Həzrətə dedi: Ey Peyğəmbər oğlu, Cəhənnəm əhli olan kafirin

boynunda möminin haqqı olarsa, buna görə nə alar? İmam (əleyhissalam) buyurdu: Kafirin boynundakı haqqı qədər möminin günahı azalar. Kafirsə, küfrünün əzabına əlavə əzab alar. Qüreyşli kişi möminin müsəlman boynundakı haqqının necə alınacağını soruşdu. İmam (əleyhissalam) buyurdu: Borclu müsəlmanın savablarından götürülüb, haqqı getmiş müsəlmanın savablarına artırılar. Sonra kişi dedi: Əgər onun savabı olmasa, necə? İmam (əleyhissalam) buyurdu: Haqqı getmiş məzlumun günahlarından zalıma verilər.

## *HAQQINA GÖRƏ ƏZABI YÜNGÜLLƏŞƏR*

Amma kafirin haqqı tapdalanarsa, haqqı qədərində əzabı yüngülləşdirilər, çünki müsəlman olmadığından savaba layiq deyil. Bir yəhudiyə 5 qran borclu abidin hekayətini xatırlayaq.

## *HAQQINI ÖDƏMƏ QORXUSU*

Həzrət Səccad (əleyhissalam)-dan rəvayət olunub ki, buyurdu: Qiyamət günü bəndənin əlini qaldırarlar ki, hamı onu görsün. Deyərlər ki, hər kəsin bu bəndənin boynunda haqqı varsa, gəlsin alsın. Məhşər əhli üçün bundan çətin bir hal yoxdur ki, bu vaxt bir şəxsi görüb tanıyanda, ondan nə isə istəyəcəyindən qorxarlar.

## *QİYAMƏTDƏ ƏN MÜFLİS (YOXSUL) ŞƏXS*

Həzrət Peyğəmbər(səlləllahu əleyhi və alihi və səlləm)-dən nəql olunub ki, səhabələrinə buyurdu: Bilirsinizmi müflis kimdir? Dedilər: Bizim aramızda müflis o şəxsdir

ki, pulu, var-dövləti olmasın. Həzrət buyurdu: Mənim ümmətimin müflisi yalnız o şəxsdir ki, Qiyamətdə namazının, orucunun, zəkatının, həccinin savablarını böhtan dediyi, yersiz ləʾnət söylədiyi, haqqını yediyi, qanını hədər verdiyi adamlara ödəyib, savablarını qurtarsın və yenə də borclu qaldığından, onların günahından götürsün.

## *ALLAHIN ÖZ FƏZLİ (RƏHMİ) İLƏ HESAB APARMASI*

Mümkündür, boynunda xalqın haqqı olan şəxslə Allah-Taala Öz rəhmiylə hesab aparsın. Bu şəxsin xalqın haqqını ödəmə dayanacağında məəttəl durduğu vaxt, Allah Öz rəhmi, kərəmi ilə bir Behişt qəsri göstərər. Nida olunar: "Ey bu bəndənin boynunda haqqı olanlar, əgər bu qəsri istəyirsinizsə, bu şəxsi rahat buraxın və onu halal edin." Bəli, Allahla bağlı olan insanın hər yerdə çətinliyi həll olar. Allahın islah etmədiyini kim islah edə bilər?!

Bu səbəbdən də dua etməliyik ki, Pərvərdigara, bizimlə Öz rəhmətinlə rəftar et. Həzrət Səccad (əleyhissalam) "Əbu Həmzə Somali" duasında neçə yerdə nalələr çəkib: Xudaya, gözümü fəzl və kərəminə dikmişəm."

(Amma Allah Öz ədaləti ilə rəftar edərsə, hər əməlin cavabını zərrə-zərrə verməliyik.)

## DÖRDÜNCÜ FƏSİL:

## *BEHİŞT*

### *KÖVSƏR HOVUZU*

Qurani Kərim, "Kövsər" surəsi, ayə 1: "Biz sənə Kövsər əta etdik." Qurani Məcidin, rəvayətlərin təsdiq etdiklərindən biri də "Kövsər"dir. Bu hovuzun uzunluğu, əvvəldə qeyd etdiyimiz kimi, Sən"adan Bəsrəyədəkdir. Onun ətrafında hurül-eynlərin doldurub möminlərə verəcəkləri ulduzlar sayda, bəzisi gümüş, bəzisi büllurdan camlar vardır.

### *BEHİŞT ŞƏRABI, SÜD VƏ BALDAN KÖVSƏR HOVUZU*

Bəzi rəvayətlərə görə bu hovuz üç hissədir-Behişt şərabı, süd və bal. Bəzən də buyurulub ki, Həzrət Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm) hovuzu baldan şirin, qardan sərindir. Şərabı içildikdə susuzluq qalmayan "Kövsər" necə də misilsizdir! (Şərab dedikdə, Allah eləməmiş, bəzilərinin nəzərindən günümüzün bəlası sərxoş edici, murdar şərab keçməsin. Behişt şərabı pakdır və məst etmir.)

### *İMAM HÜSEYN (ƏLEYHİSSALAM) ƏZADARLARINA "KÖVSƏR" ŞAD OLAR*

"Kövsər"ə münasibətdə hüseynilərin (İmam Hüseyn (əleyhissalam) aşiqləri, əzadarlarının) öz xüsusiyyətləri

vardır. Həzrət Sadiq (əleyhissalam) buyurur: “Onlar “Kövsər” hovuzuna çatdıqda, şad olarlar.” İmam (əleyhissalam) buyurmuşdur: “Hüseyn (əleyhissalam)-a ağlayanlar hovuza çatdıqları zaman Kövsər şad olar.” (Bu barədə daha çox öyrənmək üçün mərhum Xiyabaninin “Məhərrəm vəqayiül-əyyam” kitabında müraciət edə bilərsiniz.)

## *BEHİŞT NƏĞMƏSİ*

Rəsuli Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurub: Allah-Taala bu hovuzun ətrafında min ağac xəlq edib, hər ağacda 360 budaq və yarpaq vardır. Hər bir yarpaqdan başqasından eşidilməmiş nəğmə ucalır. Şad və xoş avaz Kövsər başındadır. Eşitmək istəyirsinizsə, şərti budur ki, belə xoş və ruhani sədalar eşitmək üçün dünyanın boş səda və musiqilərinə yaxınlaşmayın.

## *HƏZRƏT MÜHƏMMƏD (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİHİ VƏ SƏLLƏM) VƏ ONUN PAK AİLƏSİNİN ƏZƏMƏTİNİN ZÜHURU*

Qiyamətdə Həzrəti Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm) və onun pak ailəsinin əzəmət və cəlalının zühur mərtəbəsi də vardır.

Həmd bayrağı, uzunluğu min illik yol olan, nurdan bir bayraqdır ki, şərqlə qərb arasında üç hissədən (parçadan) ibarətdir. Bir hissəyə “Bismillahir-rəhmanir-rəhim”, ikinciyə “əlhəmdülillahi Rəbbil-aləmin”, üçüncüyə isə “la ilahə illəllah, Mühəmmədun rəsulullah” nəqş edilmişdir. Bütün peyğəmbərlər, salehlər, möminlər ələmdarı

(bayraqdarı) Əmirəl-möminin Əliyyibni Əbitalib (əleyhissalam) olan bu bayrağın altındadırlar.

## *VƏSİLƏ MİNBƏRİ*

Min pilləli, hər pilləsindən digərinədək zəbərcəd, zümrüd, yaqut, qızıl (Behişt cəvahiratı) olan minbər (xətib üçün pilləli kürsü) Rəsuli Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-indir. Ən yüksək pillə Həzrət Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm)-ə, sonrakı dərəcə Əliyyibni Əbitalib (əleyhissalam)-a, daha sonrakı pillə İbrahim Xəlilullaha, sonrakı pillələr də dərəcələrinə görə peyğəmbərlər və vəsilərə məxsusdur.

## *MƏHMUD (TƏ᾽RİF OLUNMUŞ) MƏQAM*

Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) belə bir minbərdən Allahın həmdinə (tə”rifinə) başlayar. Allahı elə mədh edər ki, əvvəllərdən axıra kimsə Yaradanı bu sayaq mədh etməmişdir. Sonra mələikələrə, peyğəmbərlərə, salehlərə və möminlərə həmd buyurar. Xoş o şəxsin halına ki, belə bir məqamda vücud aləminin ilkin şəxsi tərəfindən yad edilə. Pərvərdigara, bizi salehlərdən qərar ver! “Aşura ziyarəti”ndə bu cümləni diqqətlə oxuyun. “Allahdan istəyirəm ki, məni Siz Ali-Mühəmmədin yetdiyi Öz yaxınlığındakı məhmud məqama çatdırsın. Bu yüksək məqam Həzrət Rəsul (səlləllahu əleyhi və alihi və səlləm)-in gecələr sübhədək oyaq qalmasının, on il sübhədək yatmayıb, ibadətə məşğul olmasının nəticəsidir. (Çox ibadətdən ayaqları şişmişdi.)

## *BEHİŞT VƏ CƏHƏNNƏMİN BÖLÜNMƏSİ ƏLİDƏNDİR*

Həmin məhmud məqamda, bütün məlaikələrin ən gözəli Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-ə salam verər, "mən Behiştin qapıçısı Rizvanam" deyib Behiştin açarlarını Həzrətə təqdim edər. Sonra qorxunc bir mələk gəlib, Cəhənnəmin açarını Həzrətə verər. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) hər iki açarı Əli (əleyhissalam)-a tapşırıb, Sirata (körpü) yaxınlaşar. İzn verdiyi şəxslər Behiştə gedər, qalanlarını alovun şö"ləsi aşağı endirər.

Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) Əli (əleyhissalam)-a buyurub: "Ya Əli, alovun sənə itaəti qumun ayağa itaətindən artıqdır."

## *SİRAT*

E"tiqad vacib olan həqiqətlərdən biri də Siratdır. Sirat dinin zəruriyyətlərindəndir və bu zərurətə inanmalıyıq.

Siratın lüğət mənası yol deməkdir. Dünyada doğru yolda olub, həqiqət və din yolundan sapmayanlar axirətdə Cəhənnəmin üzərindən keçən Siratdan sağ-salamat ötəcəklər. Bəziləri ildırım sür"əti ilə, bəziləri süvari, bəziləri yıxılıb-duraraq Siratı adlayacaq, bir sözlə,

dünyada din yolunu necə getmisənsə, Siratı da o cür keçəcəksən.

## *CƏHƏNNƏMİN MİN CİLOVU MİN MƏLƏK ƏLİNDƏ*

Həzrət Rəsul (səlləllahu əleyhi və alihi və səlləm) bir şərif ayənin təfsirində buyurub: Qiyamətin səhəri hər birindən min mələk tutmuş min cilovla Cəhənnəm gətirilər. Cəhənnəm nə"rə çəkər, alovun şö"ləsi göyə ucalar, alov insanları üzük qaşı tək dövrəyə alar. İztirab həlaka yaxınlaşar. O zaman Allah Siratın gətirilməsini əmr edər. Cəhənnəmin üzərindən köpü yerələşdirilər. İstisnasız olaraq hamı bu körpüdən keçməlidir. Bu yolun yeddi dolaması, hər dolamanın da dayanacaqları vardır. Hər bir dayanacaq, keçid 70 min fərsəxdir. Hər dolamada 70 min mələk mə"murdur. Hamı bu yeddi dolamadan keçməlidir.

## *QOHUMLUQ ƏLAQƏLƏRİ*

Körpünün əvvəlində insanın qarşısını kəsərlər. Qurani Kərimin "Nisa" surəsində buyurulmuşdur: "...Qohumluq əlaqələrinizi kəsməkdən həzər edin!" Ey qardaşı, atası, anası ilə əlaqələrini kəsənlər, bu əlaqələri kəsməyin (qət"i-rəhim etməyin). Qət"i-rəhimin dünyada da pis əsərləri vardır-ömür qısalar, malın bərəkəti gedər. Eləcə də, axirətdə Siratın ilk dayanacağında sorğu edilər. Əgər qohumlarınızdan xəstəsi varsa, onun yoluxmasına gedin, əgər möhtacdırsa, əl tutun, istəyini yerinə yetirin, lazım olanda görüşünə gedin.

## *SÖZƏ VƏ MALA XƏYANƏT*

Növbəti Sirat dayanacağı əmanətdir. Əmanət təkcə mal (pul, əşya) deyil. Əgər bir şəxs sizə bir sözü əmanət demişsə ki, başqasına deyilməsin, bu sözü birinə desəniz, əmanətə xəyanətdir. Əgər bir şəxs mal götürüb, evini girov qoyubsa, vaxtında pulunu versə, evini qaytarmasan, xəyanət etmisən. Həmçinin bir şəxsin evini, dükanını icarəyə götürüb, vaxtı tamam olanda geri qaytarmırsansa, istər söz, istərsə də əməldəki xəyanətin sorğusu olunacaq.

## *SİRATDAN KEÇMƏK ÜÇÜN ƏLİ (ƏLEYHİSSALAM) VİLAYƏTİNİN BƏRATI (QƏBZİ)*

Sünnü və şiə hədislərində vardır ki, həmin dolamada başqa bir dayanacaq Əliyyibni Əbutalib (əleyhissalam) vilayətidir. Təfsirdə buyurulur: "Onlara xəbərdarlıq edin ki, Əli (əleyhissalam)-la dostluqları barədə soruşacaqlar." Məşhur sünnü alimi Təbəri Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-dən rəvayət edir ki, Həzrət buyurdu: "Ya Əli, hər kəsdə sənin vilayətinin bəratı olarsa, Siratdan keçər."

## *İKİNCİ DOLAMADA NAMAZ SORĞUSU*

İlk dolamada Əli (əleyhissalam) vilayəti, əmanətin qaytarılması, qohumlarla əlaqədən (sileyi-rəhim) ötüb, ikinci dolamada namaza çatırıq. Burada yövmiyyə, ayət, qəza və s. vacibi namazlardan soruşular. Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)

buyurmuşdur: “Namazı puç edənlər mənim şəfaətimə (şəfaət-Qiyamət günü günahların bağışlanması üçün Allah yanında vasitəçi olmaq-***red.***) yetməyəcəkdir.”

İmam Sadiq (əleyhissalam)-ın son vəsiyyəti budur ki, “Namazı yüngül sayanlara bizim şəfaətimiz çatmayacaqdır.” Əgər sübh namazını günorta, günorta namazını axşama yaxın qılanlar belədirsə, namaz qılmayanların halı necə olar?! Rəvayətə görə, namazı tərk edənlər təşnə (susuz) ölər və qəbirdən təşnə baş qaldırar.

## *UŞAQLARI NAMAZA SÖVQ EDİN*

Tə”kid etməli olduğum bu mövzunu hamı eşitsin və başqalarına da desin-övladlarımız qarşısında məs”uluq ki, onlara yetkinlikdən (həddi-büluğa çatmamışdan) qabaq namaz öyrədək. Uşaqlar elə tərbiyə olunmalıdırlar ki, namazın xeyirli gələcəyinə inansınlar. Ata-ananın çalışması sayəsində uşağın əməllərinin savabı uşaq yetkinliyə çatanadək ata-anaya verilir. Uşaq yetkinliyə çatdıqdan sonra da xeyrə səbəb olduqlarından, ata-ana ilahi lütfə nail olarlar.

## *UŞAĞIN “BİSMİLLAH” DEMƏSİ ATANIN ƏZABINI GÖTÜRƏR*

Bir zaman Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) öz səhabələri ilə qəbiristanlığın yanından keçərkən “qəbir sahibi əzabdadır, tez keçin!” deməsini eşitmisiniz. Bir il sonra həmin yerdən keçərkən əzab əsəri görməyən Həzrət “Pərvərdigara, artıq bu meyyitə əzab olunmur, niyə?” deyə soruşdu. Nida yetdi ki, bu kişinin bir oğlu vardı, ölümdən sonra o uşağı məktəbə

göndərdilər, ustadı ona "bismillahir-rəhmanir-rəhim" öyrətdi, oğlu bizi Rəhman və Rəhim kimi xatırladığından atasından əzabı götürdük.

Bəli, şəri vəzifələrimizdən biri də yaxşıya dəvət (əmr be məruf) və pisdən çəkindirməkdir (nəhy əz münkər). Bu vəzifənin ilk mərtəbəsi qadını, uşağını, sonra başqa qohum və yaxınlarını dəvət etməkdir.

## *ÜÇÜNCÜ DOLAMA XUMS VƏ ZAKATDIR*

Əgər hər kəsin boynunda bir dirhəm xums və ya zəkat olarsa, üçüncü dolamada qarşısı kəsilər. Zəkat verməyənlərə aid rəvayətlər çoxdur, o cümlədən: (Zəhəri daşmış əjdahanın tükləri pırtlaşar.) Allah belə bir əjdaha qərar verər ki, onun boynuna dolanar. Digər bir rəvayətdə buyurulur: Məhsulunun zəkatını verməmiş sahibin torpaqları yeddi qat boyunbağı tək boynuna asılar. Eləcə də, Həzrət İmam Zaman (əleyhissalam) zəkat mənimsəyənləri qətlə yetirər.

Məbada, kimsənin boynunda bir dirhəm zəkat olsun və qızıl, gümüş, sikkə toplayıb, zəkatını ödəməsin! Qiyamət günü həmin dinar və dirhəmi qızdırıb, onun kürəyinə dağ basarlar. ("Tövbə" surəsi, ayə 35).

Bilin ki, malın zəkatı ilə bədənin zəkatı arasında fərq yoxdur. Fitr bayramının axşamı (orucluğun son axşamı) bədənin zəkatı (fitrə) maldan ayrılmalıdır.

## *İNSANIN YARDIMÇISI, ŞƏFİSİ ONA DÜŞMƏN OLAR*

Xumsa gəldikdə isə, xums sorğusunun çətinliyi barədə rəvayətlər çoxdur. "Kafi"dən bir rəvayətə istinad edirik. Həzrət Sadiq (əleyhissalam) buyurmuşdur: "Qiyamətdə

insanların ən çətin vaxtı o zamandır ki, xums müstəhəqləri (dünyada xums veriləsi məzlumlar) ayağa qalxıb, öz haqqlarını tələb edərlər. Çox vaxt bu günahın çətinliyində şəfaət edəsi şəxslər adama düşmən olar.

## *DÖRDÜNCÜ DOLAMADA ORUC SORĞUSU*

Dördüncü dolamada mübarək Ramazan ayının orucundan sual verilər: "Oruc, Cəhənnəm odu qarşısında sipərdir" buyurulub. Oruc tutmuş şəxs üçün iki xoşluq vardır: birincisi iftarda, oruc açılan zaman xüsusi fərəhdə olar; ikincisi, ölüb Siratdan keçərkən Allahla görüşə çatanda xoşhal olar.

## *BEŞİNCİ DOLAMADA HƏCC SORĞUSU*

Həyatında həccə getmək üçün şərait yaranan və həccə getməyən şəxsin qarşısı kəsilər. İki dəstəyə ölüm zamanı deyilər: "Yəhudi və nəsrani kimi ölün!" Bunlardan biri zəkat verməyənlər, digəri həcci tərk edənlərdir. Bunu demək kifayətdir ki, həccdən boyun qaçıranları Allah-Taala Quranda kafir adlandırıb. Bu barədə bəhs açmıram, çünki etiqad bəhsindən kənara çıxarıq.

## *ALTINCI DOLAMA TƏHARƏTDİR*

İbni Abbasdan rəvayətdə nəql olunub ki, "təharət" dedikdə dəstəmaz, qüsl, təyəmmüm nəzərdə tutulur. (Dəstəmaz namazdan əvvəl, qüsl və təyəmmüm isə cinsi yaxınlıq, aybaşı və s.dən sonra xüsusi qayda ilə icra edilən vacib əməldir.) Xüsusilə, qadınların vaxtlı-vaxtında qüslə diqqətlə yanaşması zəruridir. Əgər e"tinasızlıq

olarsa, Siratın altıncı dolamasında soruşulacaqlar. Əvvəlcə dediyimiz kimi, qəbir sıxıntısına düşməyin bir səbəbi də murdarlıqdan çəkinməməkdir.

## *YEDDİNCİ DOLAMA ZÜLMDÜR*

Bəzən bu dolama “ədl”, bəzən də “xalqın haqqı” (həqqün-nas) adlandırılmışdır. Quranda “mirsad” kimi də tə”bir olunmuşdur (mirsad-yə”ni, pusqu). Əgər insan bir kəsə nahaq sillə vurmuşdursa, beş yüz il orada saxlanılar, sümükləri parçalanar, əzilər. Ey dükançı, şagirdini vurmağa nə haqqın var?! Ey müəllim, hansı şər”i əsasla uşaqları tənbeh edirsən, hətta bədənində yeri də qalır?! Ey kişilər, nə üçün qadınlarınızı vurursunuz?! Ərin nə haqqı var ki, qadınına əl qaldırsın?!

Əlbəttə, bəzi istisnalar vardır. Amma bu hallara az təsadüf olunur və mövzumuzdan xaricdir.

## *QIRX İL HƏBS VƏ QIRX İL TƏNƏ*

Xülasə, kim iddia edə bilər ki, Allah bəndələrinə zülm etməyib?! Buyurulub: Hər kəs başqasının haqqını verməyib, saxlayarsa (məsələn, əmanətini qaytarmazsa), bu dolamada qırx il saxlanılar və ona heç nə deyilməz. Bütün bu müddəti ağlayar. Sonra nida olunar: Bu həmin

adamdır ki, xalqın malını həbs etmişdi. Qırx il tə”nə olunub, sonra Cəhənnmə düşər. Əlbəttə, bu o zaman baş verər ki, həmin adamın savabı olmasın; yox əgər savabı olarsa, haqq sahibinə ödəyər. Bəzi rəvayətlərdə vardır ki, bir dirhəmə görə 700 rükət namazı alınıb, haqq sahibinə verilər.

### *MARAQLI HEKAYƏT*

Siqətül-islam Nuri “Müstədrək” kitabında Seyyid Qiyassədin Nəcəfinin “Ənvarül-mərziyyə” kitabından bu hekayəti nəql edib:

Hilə yaxınlığındakı kəndimizin məscidinin sərpərəsti Məhəmməd ibni Əbu Əzinə adəti üzrə hər gün məscidə gələrdi. Bir gün isə adətinin xilafına olaraq, gəlməmişdi. Soruşduq, dedilər yatağa düşüb. Ötən gecə onu sağ-salamat gördüyümüz üçün bu xəbərə təəccübləndik. Yoluxmasına getdik. Başdan-ayağa yanmışdı. Huşdan gedir, ayılırdı. Özünə gələndə soruşduq ki, sənə nə olub? Dedi: Dünən gecə yuxuda mənə Siratı göstərdilər. Əmr etdilər ki, mən də keçim. Əvvəl ayağımın altı yaxşı idi, sonra nazildi, əvvəl rahat, yumşaq idisə, sonradan itiləşdi. Yavaş-yavaş gedir, özümü möhkəm tuturdum ki, yıxılmayım. Şö`ləsi yuxarı qalxan alov qara rəngdə idi. Adamlar o tərəf bu tərəfdən xəzan yarpağı tək Cəhənnəm dərəsinə tökülürdülər. Bir də gördüm ki, ayağımın altı tükdən qalın qalmayıb. Qəfildən alov məni çəkdi və dərəyə yuvarlandım. Əl-qol atdıqca daha da aşağı gedirdim. (Rəvayətə görə, Cəhənnəm alovu dartıcıdır və üzü aşağı 70 illik yoldur). İş-işdən keçmişdi. Yadıma düşdü ki, məgər hər yıxılanda “ya Əli!” deyə çağırmazdımmı?! Çağırdım: Ya Əmirəl-möminin! Mənə

ilham oldu ki, yuxarıya baxam. Baxıb, mövlanı Siratın kənarında gördüm. Əlini uzadıb, kəmərimdən yapışdı və yuxarı çəkdi. Dedim, ağa yandım, fəryadıma yet! Həzrət mübarək əlini qoluma çəkdi. Diksinib, yuxudan ayıldım. Gördüm Həzrətin əlinin yerindən savayı bütün bədənim yanıb.

Həmin şəxs üç ay yataqdan qalxmadı, nalə çəkdi. Təbiblər gətirildi, məlhəmlər qoyuldu. Üç ay sonra halı yaxşılaşdı, əti, dərisi dəyişdi. Sonralar da bu hekayət xatırlananda qızdırıb, titrəyirdi.

Bəli, qurtuluş yolu yalnız Əhli-beyt (əleyhimussalam) vilayətinə bağlılıqdır. İmam Riza (əleyhissalam) və”də vermişdir ki, onu ziyarət edənlərə Siratda əl tutacaq. Bu keçiddə Hüseyn (əleyhissalam) aşiqləri üçün də müjdə vardır. Hətta Həzrəti Sadiq (əleyhissalam) buyurub: “Muxtara nicat verilər.”

## *ŞƏFAƏT*

Şafelərin (şəfaət edənlərin, 14 mə”sum (əleyhimussalam)) şəfaəti Qiyamətdədir. Onlar Allah yanında möhtərəm olduqlarından, qüdrətlidirlər. Yıxılmış zəifi qaldırar, Cəhənnəm odundan çıxararlar. Bəzən də Behişt əhlinin dərəcəsini qaldırar, onları Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm) və Ali-Mühəmmədlə yaxınlıqdan bəhrələndirərlər. Bəli, hamı şəfaətə möhtacdır.

## *HƏTTA PEYĞƏMBƏRLƏR DƏ HƏZRƏT MÜHƏMMƏD (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİHİ VƏ SƏLLƏM)-İN ŞƏFAƏTİNƏ MÖHTACDIR*

"Biharül-ənvar"da nəql olunur ki, Əbu İymən Həzrət Baqir (əleyhissalam)-a ərz etdi: Yəbnə Rəsulillah, siz xalqı öz şəfaətinizlə məğrur edirsiniz. İmamın çehrəsində bir anlıq qəzəb göründü. Buyurdu: Qiyamətdə bütün əvvəlkilər və sonrakılar, hətta peyğəmbərlər də belə, Həzrət Mühəmmədin (səlləllahu əleyhi və alihi və səlləm) şəfaətinə möhtacdırlar. Yoxsa haram tikə yeməklə məğrur olmusan, elə bilirsən şəfaətə ehtiyacın yoxdur?!

## *BÖYÜK ŞƏFAƏT MÜHƏMMƏD VƏ ALİ-MÜHƏMMƏDİNDİR (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİHİ VƏ SƏLLƏM)*

Əsl şəfaət 14 məsum (əleyhimussalam)-a aiddir. Amma mərtəbəcə aşağı şəfilər də vardır. Məsələn, bəziləri həqiqi alimlərin bərəkətindən Behiştə gedər. Möminlərin şəfa verəcəyi barədə buyurulub: "Hər bir mömin yüz nəfərə şəfaət edər." Bu ləyaqəti onlar Mühəmməd və Ali-Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm) yolunun davamçılığından qazanmışlar. Peyğəmbər övladlarından da şəfaətçilər vardır. Eləcə də, məscid və Quran!

## *HƏR YERDƏ ŞƏFAƏT OLUNAR*

Əlbəttə, əsas şəfaət Qiyamətdədir. Lakin dəlillər var ki, bərzəxdə, hətta bu dünyada da şəfaət olunur. Məsələn, bəla gəldikdə İmam Zaman (əleyhissalam)-ın şəfaəti ilə kənar olar. Bir şəxs bərzəxdə əzabda olduğu vaxt atası, övladı, dostu dünyada Əhli-beyt (əleyhimussalam)-la əlaqə tapıb, onları vasitə gətirərsə, Allah-Taala onların bərəkətinə o şəxsi bağışlayar. Ölüm zamanı, ölümdən əvvəl şəfaət tapılmasına aid hadisələr mə"lumdur. Seyyid Həmirinin hekayəti çox kitablarda yazılmışdır.

## *TƏLƏBƏ HƏKİM OLUR*

Son dövrün hadisələrindən olan Hacı Mirzə Xəlilin şəfaətini yada salaq. Bu hadisəni, bəlkə də möhtərəm qocalar xatırlayır. Hacı Qumda "Darüş-şəfa" mədrəsəsində tələbə olub. Öz hücrəsində oturduğu vaxt qoca bir qarı həyacan içərisində daxil olub deyir: "Mənim qohumumun şiddətli ürək ağrısı var. Bir çarə bilmirsiniz?" Hacının tibbi təhsili olmasa da "filan dərmanı verin" deyir. Səhəri gün Hacı görür ki, təbabət əvəzi olaraq hücrəyə cürbəcür yeməklər gətirirlər. Qonşulara xəbər yayılır ki, mədrəsədə yaxşı bir həkim var, bir dərmanla şəfa verir. Yavaş-yavaş gələnlər çoxalır. Hacı görür ki, məsələ ciddiləşir. "Töhfeyi-həkimi-mömin" kitabını alıb, rəsmi təbabətlə məşğul olur. İşində o qədər yüksəlir ki, onu Tehrana aparırlar. Kərbəlaya getmək fikrində olsa da, tələsmir. Bir gecə yuxuda bir şəxsi görür, ona deyilir: "Əgər Kərbəlaya yola düşmək istəyirsənsə, yola düş, iki ay sonra yollar (dövlət tərəfindən) bağlanacaq."

## *HİNDLİ ŞİƏ VƏ CÜZAM XƏSTƏLİYİ*

Mərhum Hacı Xəlil (rö"yasına görə) iki ay daxilində yola düşür. Sonra yollar bağlanır, Hacı öz yuxusunun hiqəqətinə inanır. Bir müddət Kərbəlada qalır, tibb ilə də məşğul olur. Bir gün ona iki qadın müraciət edir. Onlardan birinin əlində qəribə bir yara olur. Hacı müayinə edib deyir: "Bu, xora xəstəliyidir. Sümüyə çatdığından əlacı yoxdur." Qadın qəlbi sınıq halda gedir.

Qadının yanında xidmətçisi geri qayıdıb Hacıya deyir: Bu qadını tanıdınızmı? O, Hind şahzadələrindən bir ələviyyədir (seyyidə xanım). İmam Hüseyn (əleyhissalam)-ın ziyarət eşqi onu bütün var-yoxu ilə birgə buraya gətirib. İndi əli boş qalıb, həm də bir müddətdir ki, bu xəstəliyə tutulub. Siz də onu incitdiniz. Hacı "tez onu geri qaytarın" dedi. Qadın qayıtdı. Hacı dedi: Xanım, bu xəstəlik çətin də olsa, mən sizi müalicə edəcəyəm, ümidvaram ki, Allah şəfa versin.

5 ay sonra qadın şəfa tapdı. Hacı Xəlilə elə bağlanmışdı ki, onun evindən əl çəkmir, bir ana kimi qulluğunda dayanırdı.

## *ON GÜN SONRA*

Bir müddət sonra Hacı Xəlil bir vaxtlar Tehranda yuxuda gördüyü şəxsi yenə də yuxuda görür. Hacıya: "Xəstələnib, on gün sonra öləcəksən" deyir. Hacı vəsiyyətini edir və çox çəkmir ki, xəstələnir, ehtizar halına düşür. Axır nəfəslərində həmin ələviyyə xanım gəlib, Hacının vəziyyətini görür və sarsılır. (Hacının cəmi 30 yaşı var idi). Qadın birbaş Hüseyn (əleyhissalam)-ın şərif qəbrinə gəlir. Qəbrin zərihindən tutub deyir: "Ya cəddim,

mən Hacını sizdən istəyirəm, Allahdan ona bir ömür də alın.” O qədər nalə çəkir ki, qəşş edir. Qəşş halında Həzrəti görür. “Qızım, Hacının ömrü tamamdır, əcəli çatıb”, buyurur. Qadınsa “mən bu şeyləri başa düşmürəm, Hacını sizdən istəyirəm” deyir.

## *HÜSEYN (ƏLEYHİSSALAM) SƏBƏBİNƏ İKİNCİ VƏ İKİQAT ÖMÜR*

Həzrət buyurur: “Əgər belədirsə, mən dua edərəm. Allah istəsə, onu qaytarar.” Sonra çöhrəsində təbəssüm görünür. Buyurur: “Allah mənim duamı qəbul etdi. Onu qaytarıb, ömrünü ikiqat artırdı.” Bəli, Hacı 90 yaşında vəfat etdi. 4 oğlu oldu. Biri böyük şiə mərcəsi Mirzə Hüseyn, digəri isə böyük təbib idi.

Ələviyyə xanım geri qayıdanda, Hacı sağ-salamat oturmuşdu. Buyurdu: “Ey ələviyyə, Allah əvəzini versin.” Övladlarına vəsiyyətdə buyurub: “Seyyidələrə, xüsusən ələviyyə xanımlara hörmət edin, onlar Allah yanında möhtərəmdirlər.”

## *ÜMİDİMİZ HƏZRƏT MÜHƏMMƏD (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİHİ VƏ SƏLLƏM)-İN ŞƏFAƏTİDİR*

“Biharül-ənvar”ın 3-cü cildində Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-dən nəql olunub ki, buyurdu: “Hər bir peyğəmbərin duası müstəcabdır (qəbul olunmuşdur). Keçmişdə peyğəmbərlər dünyada Allahdan (bir şey) istəmiş və istəkləri onlara verilmişdir. Amma mən bu duanı ümmətimin günahkarları üçün Qiyamət gününə ehtiyat, zəxirə saxlamışam.” Ümidvarıq ki, bu rəhmətdən bizə də yetişsin. Fatimeyi Zəhra (əleyha

salalm)-ın şəfaəti barədə də Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) və İmamlardan (əleyhimussalam) rəvayətlər vardır. Rəvayətdə qadının məhşərə hicabla daxil olma qaydasının zikrindən sonra nəql olunur: "Əgər bir qadın vacib namazlarını tərk etməsə, orucunu qəzaya verməsə, vacib həcc və zəkatını ödəsə, əri də ondan razı qalsa, Həzrət Zəhra (əleyha salam)-ın şəfaətinə nail olacaqdır."

## *ŞƏFAƏT ÜMİD VERMƏLİDİR, QÜRUR GƏTİRMƏLİ DEYİL*

Əlbəttə, şəfaət insanın qüruruna səbəb olmamalıdır. Əhli-beyt (əleyhimussalam)-ın şəfaətinə arxalanıb könlümüz istəyən hər işi görə bilmərik. Nə çox günahlar var ki, onların səbəbindən insan dünyadan imansız gedər, bu sözlərə (şəfaətə) növbə də çatmır. Bəzi günahlara görə insan Cəhənnəmdə qalıb paklanmalı, şəfaətə layiq olmalıdır. İnsan həmişə qorxmalı və ümidvar olmalıdır.

## *ƏRAF*

Əhli-beyt (əleyhimussalam) rəvayətlərinə əsasən, Ə"raf Siratda yerləşmiş hündür məkandır. Allah-Taala Həzrət Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm) və Ali-Mühəmmədə orada yer vermişdir. Şiələrin alnındakı nurdan onların vilayət əhli olduqları bilinər. Əmirəl-möminin (əleyhissalam) Behiştə daxil olmağa icazə verər.

## *BEHİŞT ƏHLİ İLƏ CƏHƏNNƏM ƏHLİ ARASINDA SƏDD*

Ə"raf haqqında digər bir təfsirə görə o, Siratda Behişt əhli ilə Cəhənnəm əhli arasındakı divardır. "Hədid" surəsində buyrulur: "O gün mömin kişi və qadınların nurunun onların önlərindən və sağ tərəflərindən axıb şö"lə saçdığını görəcəksən. Bu gün sizin müjdəniz altından çaylar axan cənnətlərdir. Siz orada əbədi qalacaqsınız. Bu ən böyük qurtuluş və uğurdur." "O gün münafiq kişi və qadınlar iman gətirənlərə deyər: Gözləyin, nurunuzdan bir qədər işıq alaq." Cavab veriləcəkdir: "geriyə dönüb işıq axtarın." Bu sözlərdən sonra möminlərlə münafiqlərin arasına qapısının içəri tərəfindən mərhəmət və bayır tərəfində əzab olan bir sədd çəkiləcəkdir" (ayə 12, 13)

## *BİRİNİN NURUNDAN BAŞQASINA FAYDA YOXDUR*

Təfsirə görə, irəlidəki nur insanın əqidəsinin və Ali-Mühəmməd (əleyhimussalam)-ın vilayətinin, sağ tərəfdəki nur ibadətin nurudur. Bəzilərinin nuru göz görəcək qədərdirsə, bəzilərinin də nuru elə zəifdir ki, gah yanır, gah sönür. Beləl추ri yıxılıb-duraraq çığırarlar: "Pərvərdigara, bizim nurumuzu tamamla, mənzilimizə çata bilək." Burada günahkarlar möminlərdən nur istəsələr də kimsənin nurundan başqasına fayda olmaz. Onların arasından ə"raf çəkilər.

## *HƏMİN GÜN ÜÇÜN NUR FİKRİNDƏ OLAQ*

Deyərlər: Ey möminlər, məgər biz sizinlə deyildik? Cavab verərlər: Bəli. Amma sizi nəfsiniz aldatdı. Qürur sizi tutdu. Allahdan uzaq olub, bu günü düşünmədiniz. (57-ci surə, 13-ci ayə)

Bu günsə çarəniz yoxdur, yeriniz atəşdir.

Gəlin çarəsiz günə düşməmiş ikən o gün üçün nur fikrində olaq.

## *ƏRAF BEHİŞT VƏ CƏHƏNNƏM ARASINDA*

Əraf barədə 3-cü baxış, nəzər budur ki, o, Behişt və Cəhənnəm arasında bir yerdir. Orada ağılsızlar, az ağıllılar, dünyadan körpə getmiş uşaqlar yerləşər. Burada nə Behişt neməti, nə də Cəhənnəm əzabı var.

## *BÖYÜK VƏ HƏMİŞƏLİK NEMƏTLƏR*

Allah-Taala dünyadan iman və təqvayla gedənlər üçün axirətdə gözəl məkan qərar vermişdir. Allah bu mehmanxanada Özünə və həmin aləmin vüs"ətinə layiq növbənöv nemətlər tədarük etmişdir. Bu həqiqətin və onun xırdalıqlarının dərki bu dünya əhli üçün qeyri-

mümkündür. (Eynən, ana bətnindəki körpənin dünyadan, onun genişliyindən xəbərsiz olduğu kimi.)

Qurani Məciddə buyurulur: "Etdikləri əməllərin mükafatı olaraq möminlər üçün göz oxşayan nə cür nemətlər gizlənib saxlandığını heç kəs biməz!" ("Səcdə" surəsi, ayə 17.)

Başqa bir ayədə: "Orada onlar üçün istədikləri hər şey vardır. Dərgahımızda isə ondan artığı mövcuddur." (50-ci surə, 35-ci ayə)

Və yenə: "Onlar ürəkləri istəyən nemətlər içində əbdi qalacaqlar." (21-ci surə, 102-ci ayə.)

## *DARÜS-SALAM HƏQİQİ BİR BEHİŞTDİR*

Xülasə, Behişt bir yerdir ki, orada nakamlıq və narahatlıq, qəm-qüssə və zəiflik, qocalıq və xəstəlik, yorğunluq və süstlük yoxdur. Mütləq sağlamlıq orada olduğundan "Darüs-salam" (sağlamlıq evi) adlanmışdır. Bu həqiqi səltənətdə qüdrət tamdır, yəni istənilən olur. "Dəhr" surəsində (ayə 20) buyurur:

"Hara baxsan, nemət və böyük bir mülk görəcəksən."

Quranda zikr edilmiş Behişt nemətlərindən bir qismini nəzərdən keçirək:

## *BEHİŞT YEMƏKLƏRİ VƏ SULARI*

Könül istəyən quşlar, seçiləcək hər növdə meyvə, Behişt əhli üçün tükənməyəcək meyvələr, xurma və nar ağacları...

Xalis sudan, dəyişməz, dadı qaçmaz süddən, saf şərabdan arxlar... Eləcə də, bütün qatqılardan pak, xalis baldan nəhrlər...

## *QURANDA BEHİŞT ÇEŞMƏLƏRİNİN ADI*

Behiştdəki çeşmələr öz xüsusiyyətlərinə görə adlanmışlar. Məsələn, "Kafuriyyə", "Zəncəbiliyyə" "Səlsəbiliyyə" və ən mühümü "Kövsər". Kövsər ilahi ərş altından axır və ən ağ süddən, ən şirin baldan, ən nərm kərədən, daşları zümrüd, yaqut, mərcandan ibarət olub, otu zəfəran və torpağı müşkdən ətirlidir.

## *BEHİŞT GEYİMLƏRİ*

"Kəhv" surəsində buyurulub: "Kim istəyir inansın, kim istəmir inanmasın. Zalımlar üçün pərdələri onları bürüyəcək od hazırlamışıq. Behişt əhli isə Behiştdə taxtlara söykənərək, qızıl bilərziklərlə bəzənəcək, nazik və qalın ipəkdən yaşıl paltarlar geyəcəklər."

Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-dən rəvayət olunmuşdur: Mömin öz Behişt qəsrinə gedəndə başına kəramət tacı qoyular, ona Behişt cəvahirləri ilə bəzənmiş rəngbərənk 70 libas geydirilər. O libaslardan biri dünyaya gətirilərsə, ona baxmağa dünya əhlində taqət olmaz.

Həzrət Sadiq (əleyhissalam)-dan rəvayət olunmuşdur: Allah-Taala hər cümə Behiştdə möminlərə kəramət göstərər, mələklə libaslar göndərər, mömin onlardan birini kəmərinə bağlayıb, digərini çiyninə atar. Getdiyi yerlər libasların nurundan işıqlanar.

## *BEHİŞT QƏSRLƏRİ*

Quranın neçə yerində və"d verilmişdir:

“Allah mömin kişilərə və qadınlara altından çaylar axan cənnətlər və “Ədn” cənnətlərində gözəl məskənlər və”də buyurmuşdur. Onlar orada əbədi qalacaqlar. Allahdan olan bir razılıq isə daha böyükdür. Bu ən böyük qurtuluş və uğurdur.” (“Tövbə” surəsi, ayə 72).

“Zümər” surəsində (ayə 20) buyurulmuşdur: “Lakin Rəbbindən qorxanları Behiştdə bir-birinin üstündə tikilmiş otaqlar gözləyir. Onların altından çaylar axar. Bu, Allahın və”dəsidir. Allah və”də xilaf çıxmaz.”

Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-dən rəvayət olunmuşdur ki, otaqlar mirvari, yaqut, zümrüddən tikilib və onların üstü qızıldandır. Hər bir otağın qızıldan min qapısı, hər qapıya müvəkkil vardır.

## *BEHİŞT OTAQLARINDAN NÜMUNƏ*

“Gözəl məskənlər” ifadəsinin təfsirində Rəsulullah (səlləllahu əleyhi və alihi və səlləm) buyurmuşdur: Behiştdə lö”lödən qəsr vardır. O qəsrdə qırmızı yaqutdan 40 otaq, hər otaqda yaşıl zümrüddən 70 hücrə, hər hücrədə 70 taxt, hər taxtda rəngarəng 70 xalı, hər xalıda Hurül-eyn olar. Hər hücrədə 70 süfrə, hər süfrədə 70 növ təam olar. Hər hücrəyə 70 xidmətçi qulluq edər. Allah-Taala möminə bütün təamlardan istifadə edəcək qədər qüvvə verər.

## *BEHİŞT TAXTLARI, XALILARI, QABLARI*

“Kəhf” surəsində: “Onlar orada taxtlara söykənəcək”, “əl-Vaqiə” surəsində: “Onlar qızıl-gümüş, lə”l-cəvahiratla bəzənmiş taxtlar üstündə qərar tutacaqlar”, “Ər-Rəhman”

surəsində: "Onlar orada astarları qalın ipəkdən olan döşəklərə söykənmiş olacaqlar" buyurulub.

Bir sözlə, Quranda bir sıra libas, xalı növlərinin adları çəkilib ki, bu həqiqətləri deyib, eşitmək yox, görmək lazımdır. ("İstəbrəq" zərli parça), hərir, (ipək) və s. adlar) "Vaqiə" surəsində qablar barədə buyurulmuşdur: "Cənnət bulağından axan dolu piyalələr, kuzələr və qədəhlərlə (xidmətçilər dolanacaqdır)." Elə də, "Tur" və "Dəhr" surələrində oxşar ayələr vardır.

## *HURİLƏR VƏ BEHİŞT QADINLARI*

Behişt maddi nemətlərinin ən ucası hurilər olduğundan, Qurani Məciddə bu barədə çox zikr olunub. "Hur" sözündə həm bədən ağlığı, həm də iri gözlülük cəmlənmişdir. Eləcə də onların gözlərinin ağı ağlığın nəhayətində, gözlərinin qaralığı isə qaralığın nəhayət dərəcəsindədir. Onların belə adlandırılmasının səbəbi bu ola bilər ki, onları görən gözlər heyran olur (ağarır). "Vaqiə" surəsində buyurulur: "O hurilər sanki sədəf içində gizlənmiş incidirlər."

Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-dən rəvayət olunmuşdur ki, Behiştdə bir nur parlayar və Behişt əhli "bu nə nurdur?" deyə soruşarlar. Deyərlər ki, bu yoldaşının üzünə gülümsünən hurinin dişlərinin nurudur.

Yenə "Vaqiə" surəsində: "Şübhəsiz ki, Biz cənnət qadınlarını başqa cür yaradacağıq. Onları bakirə qızlar, ərlərini sevən həmyaşıdlar edəcəyik. (Onların yaşı 16, Behiştdə kişilərin yaşı 33 deyilmişdir.)

"Ər-Rəhman" surəsinin 56-cı ayəsində buyurulur: "O cənnətlərdə gözlərini yalnız ərlərinə dikmiş, bundan

əvvəl özlərinə heç bir ins-cin toxunmamış qadınlar vardır. O qadınlar sanki yaqut və mərcandırlar.”

## *HURİLƏR ÇİRKİNLİKLƏRDƏN UZAQDIRLAR*

“Bəqərə” surəsində buyurulmuşdur: “İman və saleh əməl sahibləri üçün Behiştdə hər cür qüsurdan pak qadınlar vardır.” Onlar heyz (aybaşı) olmurlar və hər cür murdarlıqdan uzaqdırlar. Onlarda təkəbbür və özünəpərəstiş, bir-birlərinə qısqanclıq yoxdur.

## *XÜSUSİ HURİ KİMİN ÜÇÜNDÜR?*

Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-dən nəql olunmuşdur: “Allah-Taala bir huri xəlq etdi ki, onun sağ üzündə “Muhəmmədun-rəsulullah”, Sol üzündə “Əliyyun vəliyyullah”, alnında “Həsən”, çənəsində “Hüseyn”, iki dodağında “Bismillahir-rəhmanir-rəhim” yazılmışdı.

İbni Məs”ud soruşdu: “Bu kəramət kimin üçündür? Həzrət buyurdu: “Hörmət və itaətlə “Bismillahir-rəhmanir-rəhim” deyənlər üçün.”

## *BEHİŞT QADINLARI DAHA GÖZƏLDİRLƏR*

Onu da deyək ki, dünyadan imanla gedib, Behişt əhli olmuş qadınlar hurilərdən daha gözəldirlər. Şərif ayədəki “Behişt bağlarında gözəl qadınlar” ifadəsi Behişt sakini olmuş dünya qadınları kimi təfsir olunmuşdur.

Məclisi, İmam Sadiq (əleyhissalam)-dan rəvayət edir ki, mömin şiə qadın Behiştə daxil olar və möminlə izdivac edər.

## *BEHİŞT QADINLARI ÖZ MEYLLƏRİ İLƏ İZDİVAC EDƏRLƏR*

Rəvayət olunub ki, dünyada ərdə olmayan və ya əri Behişt əhli olmayan Behişt qadınları Behişt əhlindən istədikləri ilə izdivac edərlər. Əgər mömünə qadın dünyada ayrı vaxtlarda müxtəlif şəxslərdə ərdə olmuşdursa, onların sonuncusu və ya ən əməlisalehi ilə izdivac edər.

## *BEHİŞT GÜLLƏRİ VƏ ƏTİRLƏRİ*

"Ər-Rəhman" surəsində buyurulur: "Şübhəsiz ki, Rəbbinin məqamından qorxanları iki cənnət–"Ədn" və "Nəim" gözləyir. O iki cənnətin ağacları qollu-budaqlı, meyvəlidir." Məclisi Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-dən nəql edib ki, əgər Behişt qadınlarından biri gecə ilk səmadan yerə müşərrəf olarsa, onun xoş ətri bütün dünya əhlinin burnuna yetişər. İmam Sadiq (əleyhissalam)-dan nəql olunub ki, Behişt ətri min illik yola çatar. Yenə nəql olunub, Behişt torpağı müşkdür. Çox rəvayətlərdən mə"lum olur ki, Behiştin qapısı, divarı, yeri, bütün olanları ətirlidir.

## *BEHİŞTDƏ İŞIQ*

“Dəhr” surəsindən buyurulub: “Behişt əhli Behiştdə günəş və onun istisini, həmçinin soyuq görməzlər.” Onlar mülayim, normal havadadırlar. Onların gün və günəş işığına ehtiyacları yoxdur. İman, saleh əməl nuru onlara bəs edər.

Nəql olunub ki, hurilərin nuru günəş nurundan artıqdır. Eləcə də, Behiştdə olan hər şeyin hətta libasın, xalının, qabların da nuru olar.

## *BEHİŞT NƏĞMƏLƏRİ VƏ AVAZLARI*

Dünyada olan nemətlər və ləzzətlər, əsl Behiştdə olan nemət və ləzzətlərin bir qətrəsi, nümunəsi olduğu kimi, xoş sədaların da kamili, həqiqisi Behiştdədir. Əgər bu həqiqi səda dünya əhlinin qulağına dəyərsə, taqət gətirməyib, həlak olarlar. Hələ Davud peyğəmbərin avazı dünyada olduğu halda, kimsənin bu avazı dinləməyə taqəti olmazdı. Bir-biri ilə düşmən olan heyvanlar, məsələn, qurd vd ahu bu sədaya toplanar, bir-birlərinə toxunmazdılar. Eləcə də, Davud peyğəmbər oxuyarkən bəzi adamların yıxılıb, həlak olduğu məlumdur.

## *DAVUD VƏ BEHİŞTDƏ OXUYAN HURİLƏR*

“Nəhcül-bəlağə”-də peyğəmbərlərin halının bəyanında Əmirəl-möminin (əleyhissalam) buyurur: “Davud (əleyhissalam) Behiştdə Behişt əhli üçün oxuyar.” (Əlbəttə, oxunan Behişt nəğmələri olacaq və Behişt əhlinin dinləmək taqəti olacaq). Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-dən nəql olunub ki,

ən gözəl Behişt nəğməsi hurilərin öz Behişt yoldaşlarına oxuduqları nəğmələrdir. Əlbəttə, ins və cinnin eşitmədiyi bu səda musiqi alətləri ilə yox, Allahın təsbihi, həmdi, təqdisi ilədir. Behişt quşlarının da gözəl nəğmələrindən danışılıb.

## *DÜNYADA QİNADAN (HARAM SƏDALARDAN) UZQLIQ ƏVƏZİNƏ*

İmam Sadiq (əleyhissalam)-dan soruşdular ki, Behiştdə qina və nəğmə varmı? Buyurdu: Behiştdə bir ağac vardır, Allahın buyuruğu ilə Behişt küləkləri əsdikdə, həmin ağacdan elə bir avaz qalxar ki, xəlq olmuşlar heç zaman belə gözəl nəğmə eşitməmişlər. Bu, dünyada Allah qorxusundan qinaya qulaq asmamağın əvəzidir.

## *RUHANİ NE"MƏTLƏR VƏ LƏZZƏTLƏR*

Behiştdə müxtəlif ruhani nemətlər də vardır. Əqlimiz onların dərkinə acizdir.

Bəsirət, idrak gözlərinin pərdəsi (Behiştdə) açılar, insan dünyada bildiklərini gözləri ilə görər. Dünyada arzuladığı həqiqət və ilahi mə"rifətə çatar. (Xüsusən, Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm) və Ali-Mühəmməd (əleyhimussalam) mə"rifətinə və onlarla yaxınlığa). "Behişt əhli ilahi maarif və Həzrət Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm)-in fəziləti barədə müzakirə edərlər."

Hər bir Behişt əhlinin (dünyadan imanla getmiş), Behiştə daxil olma səlahiyyətli ata-ana, ailə və övladına şəfaət edib, öz arxasınca aparması da ilahi fəzldəndir. Bu

iş yaxın adamları həmin məqam əhli olmayan möminə ehtiram üçündür.

## *MƏLAİKƏLƏRİN TƏBRİKİ VƏ ALLAHIN MÜKALİMƏSİ*

Behiştdə yerləşdikdən sonra mömini təbrik etmək üçün min məlaikə mə"mur olub, onun ziyarətinə gələrlər. Möminin min qapılı qəsrinin hər qapısından bir mələk daxil olar, ona salam verər, "mübarək olsun" deyər. Amma hər şeydən yüksək Allahın mömin bəndə ilə mükaliməsidir. Bu barədə çox rəvayətlər olsa da Allah-Taalanın "Yasin" surəsindəki bir buyuruğunu xatırlamaq kifayətdir: "Rəhimli Allahdan salam deyiləcək." (ayə 58)

"Minhac"da Cabir ibni Əbdüllahdan rəvayət olunub ki, Həzrət Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm) buyurdu: "Behişt əhli nemətlərə qərq olanda onlara qəfil bir nur parlayar və ondan avaz gələr ki: "salam olsun sənə, ey Behişt əhli." Bəli, dünyada peyğəmbərlərə nəsib olmuş bu səadət axirətdə Behişt əhlinə də qismət olar.

## *HƏZRƏTİ MÜHƏMMƏD (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİHİ VƏ SƏLLƏM)-LƏ YAXINLIQ VƏ MÖMİNLƏRLƏ ƏLAQƏ*

Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in "ya Əli, sənin şiələrin mənim ətrafımda ağ üzlə nur minbərlərdədir, onlar Behiştdə mənim qonşularımdırlar", buyurduğu kimi bu yaxınlıq da bir nemətdir ("Nüdbə" duası).

Vəsfə gəlməyən bir ləzzətdir ki, həmişəlik Behişt nemətləri geri alınmaz, bitib tükənməz.

Ruhani nemətlərdən biri də, Quranın buyurduğu kimi, peyğəmbərlər, salehlər və möminlərin qovuşmasıdır.

### *HƏR GÜN BİR PEYĞƏMBƏR QONAQDIR*

Rəvayət olunmuşdur ki, hər gün Behiştdə ziyarət və görüşə bir ulul-əzm peyğəmbər (ya Nuh, ya İbrahim, ya Musa, ya İsa, ya da Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm)) gələr və həmin gün o böyük şəxsə qonaq olarlar. Cümə axşamları Xatəmül-Ənbiya (səlləllahu əleyhi və alihi və səlləm)-ə qonaqdırlar və cümə günləri Həzrət Həqqin yaxın məqamına dəvət edilərlər.

### *MOİZƏ (NƏSİHƏT)*

### *NƏ ÜÇÜN BEHİŞT ÜÇÜN ÇALIŞMIRIQ?*

Zikr etdiklərimiz Behişt nemətlərinin yalnız kiçik bir hissəsi idi. İndi özünüz insafla deyin, ağıllı insan özünü bu sayaq ruhani ləzzətlərdən, məqam və dərəcələrdən məhrum edərmi?! İnsan bir dünyəvi məqama çatmaqdan ötrü nə qədər əzab-əziyyət çəkir?! Hansı ki, məlum deyil, öz məqsədinə çatacaq, yoxsa yox. Hətta məqsədinə çatarsa da, ölüm hər şeyi geri alar. Amma insan ali məqam, həmişəlik səadətlərdən ötrü addım da atmır. Hansı ki, bu yolda çalışanlar hökmən məqsədə çatacaqlar.

Qurani Məciddə buyurulur: "Lakin insan bundan sonra da günah etmək, pis işlər görmək istəyir." ("Qiyamət" surəsi, ayə 5)

## *ƏLİ (ƏLEYHİSSALAM)-IN DİLİ İLƏ BEHİŞTİN VƏSFİ*

"Nəhcül-bəlağə"də bir xütbədə Həzrət Əmirəl-möminin (əleyhissalam) belə buyurur: "(Xudaya) Səni, əzəmətinə layiq olmayan bütün şeylərdən pak bilirəm, məxluqatın Yaradanı, gizlilərin Xaliqisən. Yaratdıqlarını imtahanın gözəlliyindən bir saray yaratdın ki, o Behiştdir. Orada qonaqlar üçün qəbul vasitələri, yemək yerləri, pakizə hurilər, xidmətçilər, zinətli otaqlar, lətafətli arxlar, son dərəcə təravətli bağlar, pak meyvələr hazırladın. Sonra Həzrət Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm)-i nümayəndə göndərdin ki, xalqı əbədi, növbənöv nemətlərlə dolu saraya çağırsın. Nə o də"vətçini eşitdilər, nə həvəsləndilər, nə də arzu ediləsi şeyləri arzuladılar. Murdar, hiyləgər dünyaya üz tutub onu yedikcə rüsvay oldular, bir-birləri ilə saziş bağladılar. Dost olanlar e"tibarsız dünyaya valeh oldular, gözləri gor edildi, öz eyb və zərərlərini görmədilər. Qəlblərini dünya bimar etdi, layiq həqiqətlərə xəstə gözlə baxdılar, onu kar qulaqla eşitdilər. Həqiqətən, dünya şəhvətləri əqllərini korladı, dünya onların qəlblərini oynatdı və özünə vurğun etdi, dünyaya və əlində dünya malı olanlara qul oldular."

Bəli, üçüncü yol yoxdur: ya Behiştdir, ya da Cəhənnəm. İnsan Allaha doğru getmirsə, nəinki nemətlərdən məhrum olacaq, hətta Cəhənnəm əzabına qovuşacaq. Bu əzaba qismən işarə edirik.

## BEŞİNCİ FƏSİL

### *CƏHƏNNƏM*

Cəhənnəm (duzəx) nəhayətsiz bir dərə, Allah qəzəbindən alovlanmış oddur. Cəhənnəm dərkimizin fövqündə, növbənöv əzablar, bəlalarla dolu axirət zindanıdır. Bir növ Behiştin ziddidir. Əgər Behiştdə nemətlər çox, bir zərrəcə narahatlıq yoxdursa, Cəhənnəmdə əzablar çoxdur və zərrəcə rahatlıq yoxdur. Quranda zikr edilmiş bəzi əzablara işarə edirik.

### *CƏHƏNNƏM YEMƏKLƏRİ VƏ İÇKİLƏRİ*

"Vaqiə" surəsi, ayə 51, 52: "Siz, ey yalançılar, haqq yoldan azanlar! Şübhəsiz ki, zəqqum ağacının meyvəsindən yeyəcəksiniz. Qarınlarınızı onunla dolduracaqsınız, üstündən də qaynar su içəcəksiniz. Özü də onu susuzluq xəstəliyinə tutulmuş dəvə kimi içəcəksiniz!"

### *CƏHƏNNƏMDƏ ACLIQ VƏ SUSUZLUQ ƏZABI*

Rəvayətə görə Cəhənnəm əhli aclıq əzabına tutular və onlar çarəsizlikdən qarınlarını zəqqumla doldurarlar. Sonra elə bir susuzluqla qarşılaşarlar ki, təklif olunmuş həmimi–qaynar çirkab suyu içərlər. Su elə qaynar olar ki, onların içini tikə-tikə parçalayar. Əgər bu sudan bir qətrə dünya dağlarından birinə düşərsə, dağ parçalanar. Quranın tə"birincə: "Bu, onların haqq-hesab günündəki ziyafətidir." ("Vaqiə", 56) Yə"ni sadalananlar cəzanın

başlanğıcıdır. Amma onlar üçün hazırlanmış yeməklər və içkilərin əzabı bəyan olunası deyil.

## *ZƏQQUM GÜNAHKARLARIN ALOVLU YEMƏYİDİR*

"Əd-duxan" surəsində buyurulur: "Həqiqətən zəqqum ağacı günahkar kimsənin yeməyidir. O, ərinmiş mis kimi qarınlarda qaynayar. Qaynar su qaynayan kimi!" (ayə 43-44)

## *ONLARIN ZAHİR VƏ BATİNLƏRİ ƏRİYƏR*

Zəqqum kafirlərin qarnında nəhayətsiz qızmış su və ya zeytun yağı tək qaynayar. Həmin qaynar sudan onların başlarına tökülər ki, zahirləri və batinlərini əritsinlər. Ayədə buyurulur: "Geri qaytarılası olmayan böyük eyblər yanımızdadır, böyük atəş, boğaz tutan yeməklər və ağır əzablar vardır."

Həzrət Baqir (əleyhissalam)-dan nəql olunub ki, zəqqum ağacı Cəhənnəmin təkindən bayıra gələr. Onun meyvələri, yarpaqları, tikanları oddan olub, zəhərdən acı, murdardan (leşdən) üfunətli və dəmirdən bərkdir.

## *ĞİSLİN, ZƏRİ SƏDİD, ĞƏSSAQ*

“Əl-haqqə” surəsi, ayə 36: “İrindən (ğislin) başqa bir yeməyi də yoxdur.”

“Əl-ğaşiyə” surəsi, ayə 6: “Onların yeməyi (zəhərdən acı tikanlı otdan hazırlanmış) zəri”dən başqa bir şey olmayacaqdır.”

“İbrahim” surəsi, ayə 16: “Hələ qarşıda Cəhənnəm vardır, irinli-qanlı sudan (sədid) içirdiləcəkdir.”

“Sad” surəsi, ayə 57: “Bu, qaynar su və irindir (ğəssaq). Qoy onu dadsınlar!”

“Məcməül-bəhreyn”də deyilir: Zəqqum yeyəndən sonra Cəhənnəm əhlinin qarnından bayıra çıxan həmin şey yenidən onlara yem olar.

Sədid-Cəhənnəmdə zinakarların ovrətindən ayrılan, axan çirkdir.

Bəzi təfsirçilər buyurmuşlar ki, Cəhənnəmdə zəhərli heyvanların zəhərlərindən çeşmə vardır. Onlar bu çeşmənin suyunu “ğəssaq” bildirmişlər.

## *CƏHƏNNƏM ƏHLİNİN LİBASI*

Kafirlər üçün alovdan paltarlar biçilib, hazırlanmışdır. Rəvayət olunub ki, əridilmiş misdən libas düzəldilər. “İbrahim” surəsində buyurulur: “Onların libaslrı qətrandandır. Üzlərini atəşə bürüyərlər.”

Qətran qara rəngli və pis qoxulu olur.

Cərəb (dəri xəstəliyi) tutmuş dəvəyə od vurub dərisi ilə yandırır, oda atırlar. Rəvayət olunub ki, Cəhənnəm libaslarından biri dünyada yerlə göy arasında asılarsa, bütün yer əhli onun qoxusu və hərarətindən həlak olar.

## *QARA ÇÖHRƏ-BOXOV VƏ ZƏNCİR*

“Ər-Rəhman” surəsi, ayə 41: “Günahkarlar üzlərindən tanınacaq, kəkillərindən (başlarının qabaq tərəfindəki tüklərindən) və ayaqlarından tutulub bağlanacaqlar.”

“Əl-mömin” surəsi, ayə 71-72: “Boyunlarında halqalar və zəncirlər olduğu halda sürüklənəcəklər qaynar suya tərəf, sonra odda yandırılacaqlar.”

“Əz-zümər” surəsi, ayə 60: “Allaha qarşı yalan uydurub söyləyənlərin üzlərini qapqara görərsən.”

Əl-möminun” surəsi, ayə 104: “Cəhənnəm odu onların üzünü yandırar. Onlar orada dişləri ağarmış vəziyyətdə durarlar.”

## *CƏHƏNNƏM MÜVƏKKİLLƏRİ*

“Ət-təhrim” surəsi, ayə 6: “Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlar, xidmətçiləri isə Allahın onlara verdiyi əmrlərə asi olmayan daşqəlbli və çox sərt mələklərdir.”

Onların əlində dəmir gürzlər vardır. Hər kəs Cəhənnəmdən qaçmaq istəsə, onun başına vurular. Gürz elə ağırdır ki, ins və cinn birlikdə onu qaldıra bilməz. Rəvayət olunub ki, Cəhənnəm mələklərinin gözəri parlayan qığılcım kimidir. Köpək dişləri dağ tək iridir. Ağızlarından alov püskürür. İki çiyinlərinin arası bir illik yoldur. Bir əli ilə 70 nəfəri götürüb Cəhənnəm oduna ata bilirlər.

## *CƏHƏNNƏM QAPILARI*

“Əl-hicr” surəsi, ayə 44: “Cəhənnəmin yeddi qapısı var. Hər qapıdan müəyyən bir dəstə girər.” Həzrət Əli (əleyhissalam) bu qapıların adlarını sadalamış, ən aşağı qapının “Əsfəl” olduğunu bildirmişdir.

## *CƏHƏNNƏM ODU ŞÜURLUDUR*

Ayələrdən mə”lum olur ki, dünya odundan fərqli olaraq, Cəhənnəm odu şüurludur. Çünki, buyurulur: “O gün Biz Cəhənnəmə “doldunmu?” deyəcəyik, o isə “Yenə varmı?”, deyə soruşacaqdır.” (“Qaf” surəsi, ayə 30)

Cəhənnəm odu əzab əhlini tanıyır, onlara hücum edir, nə”rə çəkir, onları dartır, necə ki, buyurulmuşdur: “O atəş onları uzaqdan görüncə, kafirlər onun qəzəblə qaynamasını və uğultusunu eşidərlər.” (“Əl-furqan” surəsi, ayə 12) İmam Sadiq (əleyhissalam)-dan da nəql olunmuşdur ki, Cəhənnəmin nə”rə səsini eşidəcəklər.

## *MÖİNİN NURU CƏHƏNNƏM ODUNU ƏSKİLDƏR*

“Kafirlərə qəzəbindən az qalar ki, parçalansın”, buyurulub. Bu da rəvayət olunub ki, mömin Siratdan keçərkən Cəhənnəm alovunun səsi ucalar: “Tez öt, ey mömin, sənin nurun mənim alovumu keçirir.” Çünki, mömin rəhmətdən, Cəhənnəm odu isə qəzəbdəndir və Haqqın rəhməti qəzəbə qalibdir. Bir sözlə, başqa axirət vücudları kimi, Cəhənnəm alovunun da şüurlu olmasına sübutlarımız vardır.

## CƏHƏNNƏM ƏHLİNİN YERİ DAR, TƏNGDİR

Cəhənnəm əhlinin yeri divara vurulmuş mıx yeri kimi dardır. Divar mıxı sıxdığı kimi onlar da sıxıntıdadırlar. "Əl-furqan" surəsi, ayə 13: "Onlar əlləri boyunlarına bağlı vəziyyətdə o atəşdən dar bir yerə atıldıqları zaman ölüm diləyərlər."

Behişt əhli işıqda olduğu qədər Cəhənnəm əhli də əbədi zülmət, vəhşət içindədirlər. Necə ki, qaranlıq dalğalarla əhatə olunub, dərya dibində əsir olmuş şəxs! "Nur" surəsində buyurulmuşdur: "Onların əməlləri əngin dənizin zülmətinə bənzər. Onu bir dalğa, o dalğanın üstündən bir dalğa, bu dalğanın üstündən də bir dalğa-zülmət üstündən zülmət örtər. Əlini bayıra çıxarsa, onu görə bilməz." (ayə 40)

## RUHİ ƏZABLAR

Cəhənnəm əhli üçün maddi əzablardan başqa ruhani əzablar da vardır. Cəhənnəm əzabının, nicat yolu tapılmayacağının əbədiliyi ən böyük məşəqqətdir. Dünyada hər cür xəbərdarlıqdan sonra yenə də dünyadan imansız gedənlər, şübhəsiz ki, Cəhənnəmdə əbədi qalacaqlar. "Bəyyinə" surəsində buyurulmuşdur: "Həqiqətən kitab əhlindən (yəhudi və məsihilərdən) kafir

olanların və müşriklərin yeri Cəhənnəm odudur. Onlar orada əbədi qalacaqlar."

## *KAFİRİN BEHİŞTƏ DÜŞMƏSİ QEYRİ-MÜMKÜNDÜR*

"Əl-əraf" surəsi, ayə 40: "Ayələrimizi yalan hesab edənlərə və onlara təkəbbürlə yanaşanlara göyün qapıları açılmaz və dəvə iynənin gözündən keçməyənə qədər onlar da Cənnətə daxil ola bilməzlər." Rəvayətə görə, qəlbində bir zərrə iman olanlar Cəhənnəmdə əbədilik qalmayacaqlar.

## *MƏHRUMLUQ HİSSİ BÖYÜK ƏZABDIR*

Digər bir ruhani əzab budur ki, insan Həzrət Yaradanın sonsuz lütf və rəhmətindən məhrum olduğunu görsün.

"Əl-mutəffifin" surəsində (ayə 15) buyurulur: "O gün onlar Rəbbinin mərhəmətindən məhrum olacaqlar." Yenə buyurulub: "Allah onlarla danışmaz və onlara rəhmət nəzəri salmaz."

## *CƏHƏNNƏMDƏ ÖLÜMSAÇAN HƏSRƏTLƏR*

Cəhənnəm əhlinin çəkdiyi həsrət və qüssələr də ağır ruhani əzablardandır. Əgər Cəhənnəmdə ölüm olsaydı, insanlar hər gün həmin həsrət və qüssənin ağırlığından ölərdilər. Allah-Taala bu qüssəyə səbəb olmuş əməlləri onlara göstərər. "Əl-fürqan" surəsində (ayə 27) buyurulur: "O gün zalım kəs (peşmançılıqdan) əllərini çeynəyib deyəcəkdir: Kaş ki, mən Peyğəmbər vasitəsi ilə doğru bir yol tutardım!

Həzrət Sadiq (əleyhissalam)-dan rəvayət olunub ki, insanlar Behişt və Cəhənnəmdə yerləşdikdən sonra aralıqda yarıqlar açılar və nida olunar: Ey Behişt əhli, baxın Cəhənnəm əhlinin mənzillərinə, əgər Allaha zidd olsaydınız, sizin də bu sayaq mənzilləriniz olacaqdı. Sonra Cəhənnəm əhlinə xitab olunar: Baxın Behişt əhlinin mənzillərinə, əgər Allaha itaət etsəydiniz, sizin də yeriniz belə olardı.

Cəhənnəm əhli elə həsrət çəkər ki, ölüm müyəssər olardısa ölərdilər.

## *CƏHƏNNƏMDƏ RUHİ DANLAQLAR, MƏZƏMMƏTLƏR*

Allah-Taala, mələikələr, Behişt əhli, hətta şeytanlar da Cəhənnəm əhlini məzəmmət edərlər. “Əl-ən”am” surəsində buyurulur: “Ey cin və insan tayfası! Məgər sizə öz aranızdan ayələrimi söyləyən və bu gününüzün gəlib çatacağı barədə sizə xəbərdarlıq edən peyğəmbərlər gəlmədimi? Onlar deyərlər: Biz öz əleyhimizə şahidik.” Sonra “Fatir” surəsində buyurulur: “Məgər sizi, ibrət almaq istəyən kimsənin ibrət ala biləcəyi qədər yaşatmadıqmı?! Hələ sizi qorxudan peyğəmbərlər də gəlmişdi. Elə isə dadın əzabı! Zalımların imdadına çatan olmaz.”

“Əl-mulk” surəsinin 8-ci ayəsindən buyurulmuşdur: “Hər hansı bir tayfa Cəhənnəmə atıldıqca, onun gözətçiləri onlardan: “Məgər sizə (əzabdan) qorxudan bir peyğəmbər gəlməmişdimi?”-deyə soruşacaqlar. Onlar deyəcəklər: “Bəli, bizi qorxudan peyğəmbər gəlmişdi. Amma biz onu yalançı sayıb demişdik: “Allah heç bir şey nazil etməmişdir. Siz sadəcə olaraq çox azmısınız.” Sonra

peşmançılıqlarını bildirərlər: "Əgər biz qulaq asıb ağlımızı başımıza yığsaydıq, Cəhənnəm əhli içində olmazdıq!"

## *ŞEYTANLARI TƏ"NƏSİ*

Cəhənnəm əhli şeytanların tə"nəsinə hədəf olmaq qorxusundan öz nalələrini alçaldarlar. "İbrahim" surəsində (ayə 22) buyurulur: "Şeytan belə deyəcək: "Allah sizə doğru və"də vermişdi. Mən də sizə və"də vermişdim, amma və"dəmə xilaf çıxdım. Əslində mənim sizin üzərinizdə heç bir hakimiyyətim yox idi. Lakin mən sizi çağırırdım, siz də mənə uydunuz. İndi məni yox, özünüzü qınayın. Nə mən sizin dadınıza çata bilərəm, nə də siz mənim dadıma. Məni dünyada Allaha şərik tutduğunuz üçün bu gün sizə arxa çevirmişəm. Zalımlar üçün ağır əzab vardır."

"Əraf" surəsinin 44-cü ayəsində Behişt əhlinin Cəhənnəm əhlinə məzəmməti zikr olunub: "Cənnət əhli Cəhənnəm əhlinə müraciət edib: "Biz Rəbbimizin bizə və"d etdiyini haqq olaraq gördük. Siz də Rəbbinizin sizə və"d etdiyini gerçək olaraq gördünüzmü?"-deyə soruşacaq. Onlar: "Bəli!" deyə cavab verəcəklər. Elə bu zaman onların arasında bir carçı: "Allah zalımlara lə"nət eləsin!"-deyə səslənəcək." "Mutəffifin" surəsində (ayə 34) buyurulur: "Bu gün isə möminlər kafirlərə güləcəklər." Bu məsxərə dünyada kafirlərin möminləri məsxərəsinin əvəzidir.

## *ŞEYTANLARLA ÜNSİYYƏT AĞIR ƏZABDIR*

Şeytanlarla və Cəhənnəm əhli ilə ünsiyyətdə olmaq Cəhənnəmin ağır ruhani əzablarındandır (necə ki, Behişt əhli bir-birlərindən zövq alarlar). Onlar bir-birlərinə nifrət edib, düşmən olarlar. "Əz-zuxruf" surəsində (ayə 36, 37, 38) buyurulmuşdur: "Hər kəs Rəhmanın zikrindən boyun qaçırsa, Biz ona şeytanı urcah edərik və o, şeytanın yaxın dostu olar. Şeytanlar onları doğru yoldan çıxardar, onlar isə özlərinin haqq yolda olduqlarını güman edərlər. Nəhayət, o, hüzurumuza gəldikdə belə deyər: "Kaş ki, mənimlə sənin aranda şərqlə qərb arsındakı məsafə qədər uzaqlıq olaydı. Sən nə pis yoldaş imişsən!"

Rəvayətə görə, hər ikisini bir zəncirlə bağlayıb Cəhənnəmə atarlar.

## *BİR-BİRLƏRİNDƏN UZAQLIQ İSTƏYƏRLƏR*

"Bəqərə" surəsində (ayə 166, 167) buyurulub: "O zaman tabe olunmuşlar tabe olanlardan uzaqlaşacaq, əzabı görcək aralarındakı rabitə qırılacaqdır. O zaman tabe olanlar "əgər bir də dünyaya qayıda bilsəydik, onlar bizdən bizar olub uzaqlaşdıqları kimi, biz də onlardan bizar olub uzaqlaşardıq", deyərlər. Beləcə, Allah onlara əməllərinin yalnız həsrətdən ibarət olduğunu göstərər və onlar Cəhənnəm odundan çıxa bilməzlər." "Əz-zuxruf" surəsində (ayə 67) buyurulur: "Müttəqilər istisna olmaqla, o gün dostlar bir-birinə düşmən kəsiləcəklər."

Rəvayətə görə, dünyada Allaha görə olmayan dostluq axirətdə düşmənçiliyə çevrilər.

## *CƏHƏNNƏM ƏHLİNİN BİR-BİRLƏRİ İLƏ PİS DANIŞIĞI*

"Sad" surəsində (ayə 59, 60, 61) buyurulur: "Mələklər kafirin dünyadakı başçılarına, onlara tabe olanları göstərib deyəcəklər: Bu sizinlə birlikdə daxil olan dəstədir. (Başçılar deyəcəklər:) Onları görək rahatlıq üzü görməsinlər! Onlar (haqlı olaraq) Cəhənnəmə daxil olanlardır.

(Tabe olanlar da öz başçılarına belə deyəcəklər:) "Xeyr, siz elə özünüz rahatlıq üzü görməyəsiniz! Bunu bizim üçün siz hazırladınız. Bir baxın, necə də pis məskəndir! Onlar deyəcəklər: Ey Rəbbimiz! Buna bizi kim uğradıbsa, onun əzabını Cəhənnəmdə ikiqat elə!"

## *ZƏİF BƏDƏN NECƏ TAB GƏTİRƏR?*

Nəzərə gələ biləcək bəzi şübhələrə cavab veririk. Birinci odur ki, bu qədər ağır əzaba zəif adam necə tab gətirə bilər?

## *BƏDƏN DƏ NƏFS KİMİ BƏRK OLAR*

Cavab: Doğrudur, Qiyamətdəki bədən dünyadakı maddi bədəndir. Lakin bu bədən ilahi qüdrətlə axirətdə o qədər möhkəm bir tərkibdə olur ki, dünyəvi bədənlə müqayisə edilə bilməz. Axirətdə bədənin lətifliyi insanın nəfsi ilə bağlıdır.

Necə ki, dünyada möminin nəfsi yumşaq, lətif olar, həqiqətlər müqabilində mütəəssir və təslim dayanar. Ona görə də axirətdə möminin bədəni də nəfsi kimi kamil lətafətdə olar. Amma kafirlərin nəfsi dünyada nəhayət

dərəcədə qəliz və daşdan da bərk olub, həqiqətlər qarşısında əyilməyib. O səbəbdən də, axirətdə nəfsləri kimi bədənləri də nəhayət dərəcədə bərkdir.

## *AXİRƏTDƏ MƏ"NA SURƏTƏ QALİBDİR*

Rəvayət olunub ki, axirətdə kafirin dişi bir dağ boyunca olacaq. Başqa sözlə, axirət sarayı mənanın surətə qələbəsidir, həqiqətlərin üzə çıxması, zahirlə batinin vahidləşməsidir.

Əzabdan bədən dağıldıqdan, zəqqum yeyib, həmim içməklə bədənlərin daxili parçalanmasından sonra yenidən bərpa olar. "Nisa" surəsi: "Onların dəriləri yanıb bişdikcə, əzabı həmişə dadsınlar deyə, o dəriləri başqası ilə əvəz edəcəyik."

## *ŞİDDƏTLİ ƏZAB ƏDALƏTLƏ UYĞUNDURMU?*

Mümkündür bəzi zehnlərdə şübhə olsun ki, heç bu şiddətdə əzab ilahi ədalətlə yanaşı ola bilərmi? Bu şübhə axirətdəki ilahi əzabla dünyanın zalım sultanlarının xalqa verdiyi işgəncənin oxşadılmasının nəticəsindəndir. Hansı ki, heç vəchlə belə deyildir. Sultanların intiqamının, işgəncəsinin səbəbi onların qeyzi, rahatlığa çıxmaq istəyi olmuşdur. Onlarla müxaliflik edənlərin zindana

salınmasını, işgəncə verilməsini, öldürülməsini əmr etmişlər. Lakin axirət əzabı tamam başqadır. Bu əzab imansızlığın, nursuzluğun zərurətlərindəndir. Allahdan üz döndərməyin cəzası əbədi sıxıntıdır. Haqqı görməməzliyə vurmağın cəzası əbədi korluqdur. Şeytanın ardınca getməyin cəzası onunla əbədi yoldaşlıqdır. Yetimin malını yeməyin cəzası insanın içində alov qalanmasıdır və s. Bəli, Cəhənnəm alovunu insan özü alışdırır. Quranın təbirincə desək, Cəhənnəm tonqalını insanlar qalayır.

## *İNSANIN ÖZÜNƏ HAZIRLADIĞI ƏZAB*

Dediklərimizə əsasən, insanın düşdüyü hər bir əzabın səbəbi onun özüdür. Allah kimsəyə zülm etməz. Hədsiz bərk, qəliz kafirə nəhayətsiz lətafətdə olan Behiştdə necə yer vermək olar?!

Darüs-səlam Behişti bütün xəstəliklərdən uzaq olanların yeridir. Başdan ayağa xəstə, paxıl, həsədçi, ədavətçi, təkəbbürlü kəsə Behiştdə necə yer vermək olar?! Beləsinin yeri darul-mərəz (xəstəliklər evi), Cəhənnəmdir.

## *KOR ÜÇÜN ZİNƏT VƏ KAR ÜÇÜN NƏĞMƏ*

Kafirə Behiştdə yer vermək zökəmin başına ətir tökməyə bənzəyir. Behiştdə kafirə yer vermək heç bir ədalətə sığmır. Ədalət odur ki, hər şey özünə münasib bir məhəldə yerləşsin. Kafirə Behiştdə yer vermək həqiqi ədalətə ziddir-kor gözəllikdən faydalana bilməz!

## *RƏHMAN ALLAHIN ƏZABLA NƏ İŞİ!*

Belə bir şübhə də ola bilər ki, Öz bəndələrinə mehriban, rəhmli Allah belə qorxulu əzabları onlara necə rəva bilər?

Cavab budur ki, Allahın lətif sifətləri olduğu kimi, qəhr, qəzəb sifətləri də vardır. Behişt Onun lütfünün məzhəridirsə, Cəhənnəm də Onun qəhrinin zühur yeridir. Məhz rəhməti qəhrinə qalib olduğundan, Allah-Taala kimsənin kafir olmasına, Cəhənnəmə getməsinə razı deyil. Amma əgər insanlar özləri alova üz tutarlarsa, Allah onların qarşısını almır. Bu Onun hikmətinə zidd olardı. Çünki, Allah insanların Ona iman gətirmələrinə möhtac deyil.

## *MƏCBURİ TÖVBƏ KARA GƏLMƏZ*

Allah-Taala insanlara Öz rəhmətinə görə deyilən əzablardan qurtuluş qapısı qoyub. Ömrün axır ləhzəsinə qədər bu qapı açıqdır. Lakin Allah, Onun bu rəhmətindən üz döndərənləri tövbəyə məcbur etmir. Çünki, məcburi tövbə tövbə deyil. Bəli, Allah Rəhman və Rəhimdir. Öz rəhmətinə görə də vacib və müstəhəb əmrlər verib. Yəni Behiştə daxil olmaq üçün hazırlığa aparan yol göstərib. Eləcə də, bütün haram və pis əməlləri nəhy edib. (Yəni Allahdan uzaqlığa, şeytana yaxınlığa səbəb olan işlərdən kənarlaşmağımızı istəyib.)

Həqiqətdə isə bütün ilahi vəzifələr Onun geniş rəhmətindəndir. Diqqətli olun ki, vəzifələrinizin icrasında süstlük olmasın. Əgər bir vəzifəni ötürüb, icra etmiriksə, həmin qədər də ilahi rəhmətdən məhrum oluruq.

## *QISA ÖMÜR VƏ HƏMİŞƏLİK ƏZAB*

Digər bir şübhə budur ki, 50-60 illik bir ömrə görə kafirin Cəhənnəmdə həmişəlik qalması necə düz gələr? Cavab budur ki, kafir insanın bu qısa müddətdə qazandığı əbədi küfrlərin əvəzi əbədi odda qalmaqdır. Eləcə də, dünyadan imanla getmiş mömin, qısa ömründə elə bir nur əldə edir ki, heç zaman sönmür.

## *XEYİR VƏ ŞƏR NİYYƏTƏ GÖRƏ ƏBƏDİLİK*

Həzrət Sadiq (əleyhissalam) buyurub: "Cəhənnəm əhlinin Cəhənnəmdə həmişəlik qalmasının səbəbi onların niyyətləridir. Onların dünyada niyyətləri bu idi ki, əgər həmişəlik dünyada qalarlarsa, həmişə də Allaha günah edərlər. Behişt əhli isə əksinə." Qurani Kərim buyurur: "Hər kəs niyətinə əsasən əməl edir."

# MÜNDƏRİCAT

MÜQƏDDİMƏ ........ 4

BİRİNCİ FƏSİL ........ 10

**ÖLÜM ........ 10**

VƏHYDƏN BAŞQA YOL YOXDUR ........ 10
MƏADIN XÜSUSİYYƏTLƏRİNİN ƏQLLƏ ƏLAQƏSİ YOXDUR ........ 11
ÖLÜ DƏ DANIŞARMI? ........ 12
NİTQ, DANIŞIQ DİLƏ MƏXSUS DEYİL ........ 12
YUXUNUN HİKMƏTİ PEYĞƏMBƏRLƏRİ TƏSDİQ ETMƏKDİR ........ 13
QƏBUL ETMƏMƏK AZ TUTUMLUQDANDIR ........ 14
İLK MƏNZİL – ÖLÜM ........ 14
RUHUN BƏDƏNLƏ ƏLAQƏSİ DAXİL VƏ YA XARİC OLMAQLA DEYİL ........ 15
RUHUN AYRILMASI KEYFİYYƏTİ ........ 16
ÖLDÜRƏN ALLAHDIR, ƏZRAİLDİR, YOXSA MƏLƏKLƏR? ........ 17
RƏBBİMİZ ÖLÜM ÜÇÜN VASİTƏLƏR YARADIB ........ 17
CAN VERƏNLƏR ÜÇÜN ÖLÜM MƏLƏYİNİN SURƏTİ ........ 18
ÖLÜM ANINDA MƏLAİKƏ VƏ ŞEYTANLARIN İŞTİRAKI ........ 18
CAN VERMƏNİN ASANLIĞI VƏ ÇƏTİNLİYİ ........ 19
ÇƏTİN CAN VERMƏ MÖMİNİN GÜNAHLARININ ƏVƏZİDİR (KƏFFARƏSİDİR) ........ 20
KAFİRİN ASAN CANVERMƏSİ ETDİYİ YAXŞILIQLARA GÖRƏDİR ........ 20
KAFİR RUHLARININ İŞGƏNCƏ İLƏ ÇIXARILMASI ........ 21
FÜZEYLİN ŞAKİRDİ İMANSIZ ÖLÜR ........ 21
GÜNAHLAR SƏBƏBİNDƏN İMANSIZ ÖLMƏK ........ 22
ÖLÜMÜ SEVMƏK ........ 23
DÜNYAYA BAĞLILIQ ƏQLƏN VƏ ŞƏRƏN MƏZƏMMƏT OLUNMUŞ, PİSLƏNMİŞDİR ........ 23
DÜNYAYA MƏHƏBBƏT KAFİRLƏRİN XASİYYƏTİ VƏ BÜTÜN GÜNAHLARIN BAŞIDIR ........ 24
ÖLÜMƏ İKRAH VƏ BAĞLI OLDUĞU ŞEYLƏRƏ GÖZ YAŞI ........ 25
SƏBİRSİZLİK AXİRƏTDƏN XƏBƏRSİZLİK NƏTİCƏSİDİR ........ 25
İLAHİ LÜTF VƏ ƏNAM ........ 26

CANVERMƏ ZAMANI ƏHLİ-BEYT (ƏLEYHİMÜSSALAM)-IN İŞTİRAKI ........ 27
ÖLÜMDƏN SONRAKI XƏBƏRLƏR ........ 28
QƏBİR SUAL-CAVABI ........ 29
ƏQİDƏ VƏ ƏMƏLLƏRİN SORĞUSU ........ 29
QƏBİR SORĞUSUNUN FAYDASI NƏDİR? ........ 30
ƏZAB MƏLƏYİ İLƏ GÖRÜŞ VƏ NARAHATLIĞIN BAŞLANĞICI 31
DİGƏR SUALLARDA ACİZ OLARLAR ........ 31
ƏMƏLLƏRDƏN SUAL OLUNAR ........ 32
QƏBİR DOSTU ƏMƏLDİR ........ 32
ALLAH BƏŞƏRİYYƏTİ QORXUDUR ........ 33
PİS ƏMƏLLƏRİN QORXUNC SURƏTİ QƏBİR YOLDAŞIDIR ........ 34
QƏBİR SIXINTISI (TƏZYİQİ) HƏQİQƏTDİR ........ 35
SƏD DƏ QƏBİR ƏZABI GÖRDÜ ........ 36
BÜTÜN ŞƏRAİTLƏRDƏ QƏBİR SIXINTISI MÜMKÜNDÜR ........ 36
QƏBİR SIXINTISININ SƏBƏBLƏRİ ........ 37

İKİNCİ FƏSİL: ........ 38

**BƏRZƏX ........ 38**

NEMƏT VƏ CƏZALARDA ORTA HƏDD ........ 38
MİSALİ ALƏM VƏ MİSALİ BƏDƏN ........ 39
İKİ ŞƏRT DAXİLİNDƏ GÜZGÜDƏKİ SURƏTƏ OXŞATMA ........ 39
BÜTÜN QİDALAR BİR QİDADA TOPLANMIŞLAR ........ 40
TƏSİR GÜCÜ ........ 40
QƏBİR SAHİBİNİN DƏ”VƏTİ ........ 41
ƏSKİK SATMAQDAN UZAQLIQ VƏ NAMAZIN İLK VAXTDA QILINMASI ........ 42
BƏRZƏX ALƏMİNDƏ LƏZZƏTİN DAVAMI ........ 43
BUĞDA DOLU ƏBA ........ 43
ÖLƏNLƏRİN NALƏSİNİ HEYVANLAR EŞİDİRLƏR ........ 44
HAŞİMİNİN QATİLİNİN YUXUDA NALƏLƏRİ ........ 45
ƏTTARIN MÖİZƏSİ VƏ VERDİYİ BORCU İSTƏYƏN YƏHUDİ ........ 45
KİMSƏ İNKAR ETMƏDİ ........ 47
ÜÇ NÖV XƏBƏR ........ 48
MƏADIN OLMAMASINA ƏQLİ DƏLİL YOXDUR ........ 48
HƏZRƏT MƏHƏMMƏD (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİHİ VƏ SƏLLƏM) MÜTLƏQ DOĞRUÇUDUR ........ 49

HƏZRƏT ƏLİ (ƏLEYHİSSALAM)IN ANASININ DƏFN MƏRASİMİ ........ 49
FATİMƏ GƏLƏCƏK ƏZABDAN QORXUR........ 50
CİSMANİ BƏDƏNƏ RUHUN TƏSİRİ........ 50
SƏDUQUN CƏSƏDİ TƏRAVƏTLİ QALMIŞDI........ 51
HÜRRÜN TƏRAVƏTLİ CƏSƏDİ VƏ BAŞINDAKI DƏSMAL........ 51
KULEYNİNİN QƏBRİNDƏ SÜDƏMƏR KÖRPƏ........ 52
BƏRZƏX ALOVU QƏBİRDƏN ŞÖ"LƏ SAÇIR........ 53
DÜNYADA ƏN BÖYÜK ALOV ŞİMŞƏKDİR........ 53
KİMLƏR ÜÇÜN QORXULU DEYİL?........ 54
İLAHİ RƏHMƏTİN NÜZULU ZAMANI ÖLÜM........ 54
XURMA BUDAĞI VƏ 40 NƏFƏRİN ŞAHİDLİYİ........ 55
NƏ ÜÇÜN DAVUD PEYĞƏMBƏR ABİDİN CƏNAZƏSİNƏ NAMAZ QILMADI?........ 55
MƏCLİSİNİN KƏFƏNİNƏ HÜSEYN (ƏLEYHİSSLAM)IN TÜRBƏTİ İLƏ YAZILMIŞ ŞƏHADƏT........ 56
ÖLÜMDƏN SONRA İNSANA YETİŞƏCƏK XEYİR İŞLƏR........ 56
MEYYİT ÜÇÜN HƏDİYYƏLƏR........ 57
ÖLÜLƏRİN DİRİLƏRDƏN İSTƏYİ........ 57
BƏRZƏX BU DÜNYADAN QEYBDƏDİR........ 58
BƏRZƏX ALƏMİ DÜNYANIN MÜHİTİDİR (MÜHİT-ƏHATƏ EDƏN)........ 58
RUHLARIN BİR-BİRLƏRİ İLƏ ÜNSİYYƏTİ VAR........ 59
VADİYÜS-SƏLAM RUHLARIN YERİDİR........ 60
ELM VƏ ƏMƏLƏ GÖRƏ HƏZRƏT ƏLİ (ƏLEYHİSSALAM)-LA YAXINLIQ........ 60
YƏMƏNDƏN NƏCƏFƏ GƏTİRİLƏN CƏNAZƏ........ 60
EVİNİN ƏTRAFINDAKI ÇƏYİRTKƏLƏRİ MÜDAFİƏ EDƏN ŞƏXS ........ 61
RUHUN QƏBİRLƏ ƏLAQƏSİ DAHA ÇOXDUR........ 62
GÜNƏŞ ŞÜASININ GÜZGÜDƏ İN"İKASI (ƏKS OLUNMASI)........ 62
BÜTÜN RUHLAR İKİ BƏDƏNƏ MALİKDİR........ 63
BÜTÜN HALLARDA CƏZALANAN VƏ FAYDALANAN RUHDUR........ 64
QURANDA BƏRZƏX SAVABI VƏ BƏRZƏX ƏZABI........ 64
HƏBİB NƏCCAR BƏRZƏX BEHİŞTİNDƏ........ 65
MƏİŞƏTƏN ZƏNKA VƏ QƏBİR ƏZABI........ 65
BƏRZƏX QİYAMƏTƏDƏKDİR........ 66

İNSANIN ŞƏXSİYYƏTİ ONUN RUHU İLƏ BAĞLIDIR....................67
BƏRZƏX BEHİŞTİ "MÜTMƏİNNƏ NƏFS" ÜÇÜNDÜR ..................67
BƏRZƏX SAVABI VƏ BƏRZƏX CƏZASI HƏDİSLƏRDƏ................68
İNSANLARIN BƏRZƏX SURƏTLƏRİ DÜNYADAKI KİMİDİR......70
RUHLAR YENİ GƏLƏNLƏRDƏN HAL-ƏHVAL TUTURLAR.......70
RUHLARIN ÖZ YAXINLARINI ZİYARƏT ETMƏLƏRİ ...................70
BƏRZƏXDƏ KÖVSƏR HOVUZU........................................................71
ÖLÜM ZAMANI KÖVSƏR VƏ HƏMİM...........................................72
BƏRƏHUT BƏRZƏX CƏHƏNNƏMİNİN MEYDANIDIR (VƏ YA MƏZHƏRİDİR)........................................................................................73
HƏZRƏT ƏLİNİN QATİLİ İBNİ MÜLCƏMİN BƏRZƏX ƏZABI ....74

ÜÇÜNCÜ FƏSİL.......................................................................76

**QİYAMƏT ..........................................................................76**

QİYAMƏT BARƏDƏ ƏQLİN HÖKMÜ ..............................................76
AXİRƏTİ İNKAR EDƏNLƏR ALLAHIN HİKMƏTİNİ ANLAMAYIBLAR...........................................................................................76
DIRNAQ ƏL ÜÇÜN LİNG (LOM) YERİNDƏDİR .............................77
TÜKLƏR VASİTƏSİ İLƏ ARTIQ MADDƏLƏRİN İFRAZI................77
MİLÇƏKDƏN ("CUƏL")–GÖZAĞRIYA DƏRMAN..........................77
YARANIŞ ALƏMİ HİKMƏTSİZ OLA BİLƏRMİ?..............................78
BİRCƏ DİŞ DƏ HİKMƏTSİZ DEYİL ....................................................79
ƏGƏR TAM RAHATLIQ OLSAYDI, YENƏ ƏBƏSDİ ........................79
HƏR LƏZZƏTİN MİN BİR ƏZİYYƏTİ ................................................80
DƏRDSİZ LƏZZƏT ÜÇÜN ......................................................................80
MƏADA ŞƏKK YOXDUR........................................................................81
CƏZA GÜNÜNÜN OLMASI ALLAHIN ƏDALƏTİNİN ŞƏRTİDİR ..........................................................................................................81
DOĞRUÇULAR QİYAMƏTDƏN XƏBƏR VERİRLƏR......................82
ƏN YAXŞI DƏLİL OLA BİLMƏ İMKANDIR .......................................82
MƏADDA HEÇDƏN YARANMA YOXDUR........................................83
OLMAQ İMKANI GÜCLÜ DƏLİLDİR..................................................83
ÜÇÜNCÜ DƏFƏ DƏ CƏMLƏNMƏSİ BUYURULAR ........................84
DÜNYADA ÖLÜLƏRİN DİRİLMƏSİ ......................................................84
ÜZEYİR YÜZ İL ÖLDÜ ............................................................................84
DÖRD QUŞUN YENİDƏN DİRİLMƏSİ ..............................................86
ALLAH-TAALA HƏR İŞƏ QADİRDİR ...............................................86
SU VƏ OD BİR YERDƏ ..........................................................................87

ÇÜRÜMÜŞ SÜMÜKLƏR NECƏ DİRİLƏR? ....................................87
ALLAH ELMİNDƏ SƏHVƏ YOL YOXDUR.......................................88
FƏLƏKLƏRİN YARANIŞI İNSANIN YARANIŞINDAN DAHA MÜRƏKKƏBDİR ............................................................................88
HƏTTA EHTİMAL OLUNAN ZİYANI DƏF ETMƏK VACİBDİR...89
ALİMLƏRİN EHTİMALINA E"TİNA OLUNMALIDIR ......................89
BÜTÜN PEYĞƏMBƏRLƏR XƏBƏRDARLIQ ETMİŞLƏR ...............90
MƏADI İNKAR EDƏN ZINDIĞA İMAM SADİQİN BUYURDUĞU ............................................................................................90
QİYAMƏT ƏZƏMƏTLİDİR.........................................................91
ƏMR QİYAMƏTİN DƏHŞƏTİNDƏN QORXDU ..............................91
YANAR TOPAQ KAFİRLƏRİN AYAĞI ALTDA ...............................92
MƏŞHƏRDƏ MÜXTƏLİF ŞƏKİLLƏR .............................................92
SÖZ GƏZDİRƏNLƏR, HARAM MAL YEYƏNLƏR, SƏLƏMÇİLƏR ............................................................................................93
QONŞUNU İNCİDƏNİN, ZALIM HAKİMİN, XUDPƏSƏNDLƏRİN ƏZABI .....................................................................................93
GÜNAHKARLAR ÇÖHRƏLƏRİNDƏN TANINARLAR ........................94
ÜZÜ ÜSTƏ NECƏ HƏRƏKƏT EDƏRLƏR? .......................................94
ÜRƏKLƏR AĞIZA GƏLƏR.............................................................95
QİYAMƏTİN HALƏTİNDƏN AMANDA OLANLAR ..........................95
MƏSCİD QİYAMƏTDƏ NİCAT GƏMİSİDİR......................................96
MƏKKƏDƏ, MƏKKƏ YOLUNDA ÖLÜM ........................................96
QƏZƏB VƏ ŞƏHVƏT ZAMANI SƏBR ...........................................97
HƏQİQİ ƏMNİYYƏT, QURTULUŞ ƏLİ (ƏLEYHİSSALAM)-IN VİLAYƏTİDİR.........................................................................97
MÜTLƏQ GÖZƏL ƏMƏL ƏLİ (ƏLEYHİSSALAM)-IN VİLAYƏTİNİN QƏBULUDUR.......................................................98
GƏLƏCƏYƏ TƏMİNAT ...............................................................98
GƏLƏCƏYİN TƏ"MİNİ ADI İLƏ HƏRİSLİK.....................................99
ALLAH YANINDA ƏMANƏT SANDIĞI ..........................................99
İSRAFİL SURU ÜFÜRÜR .............................................................100
ALLAHA YAXIN DÖRD MƏLƏK VƏ HƏR BİRİNİN TAPŞIRIĞI, VƏZİFƏSİ .............................................................................100

QİYAMƏTDƏ GÖYLƏRİN TİTRƏYİŞİ........................................101
YALNIZ ALLAH QALAR, YALNIZ! .............................................101
SUR İKİNCİ DƏFƏ ÜFÜRÜLÜR....................................................102
QƏBİRDƏN NECƏ BAŞ QALDIRARLAR? ......................................102

QİYAMƏT TEZ GƏLƏRMİ? ........ 103
ALÇALDAN VƏ UCALDAN GÜN ........ 103
İÇ ÜZLƏR AÇILAR ........ 103
QİYAMƏT LİBASI (GEYİMİ) TƏQVADIR ........ 104
ADƏM ÖZÜNÜ AĞAC YARPAQLARI İLƏ ÖRTDÜ ........ 104
GÜNAHKARLAR TANINAR ........ 105
QİYAMƏTDƏ ŞƏRABXORUN MƏNZƏRƏSİ ........ 105
SƏLƏMÇİ VƏ TƏNBURÇUNUN (MUSİQİ ALƏTİ) ÇÖHRƏSİ ........ 105
İKİÜZLÜLƏR VƏ İKİ ALOV DİL ........ 106
QİYAMƏTDƏ TƏKƏBBÜRLÜLƏR VƏ ZİNAKARLAR ........ 106
ƏLLİ MİN İLLİK BİR GÜN ........ 106
NƏ ÜÇÜN QİYAMƏT HADİSƏSİ “QİYAMƏT GÜNÜ” ADLANDIRILIB? ........ 107
QİYAMƏTİN PARLAQ HƏQİQƏT GÜNƏŞİ ........ 107
QİYAMƏTDƏ QORXU DAYANACAĞI ........ 107
ÇƏYİRTKƏ KİMİ PƏRAKƏNDƏ DAĞILARLAR ........ 108
QAÇMAQLA QURTULMAZLAR ........ 108
QİYAMƏTDƏ SAVAB ÜÇÜN ƏL AÇILAR ........ 109
ƏMƏLLƏR NAMƏSİ ........ 109
ƏTİR QOXUSU XEYİR NİYYƏTİ BİLDİRİR ........ 109
GÜNAHI YUMAQ ÜÇÜN MÖHLƏT ........ 110
HƏTTA ALOVU ÜFÜRMƏK DƏ YAZILIR ........ 110
BOŞ DANIŞAN CAVANLARA ƏLİ (ƏLEYHİSSALAM)-IN BUYURUĞU ........ 110
ƏMƏL NAMƏSİNİN HİKMƏTİ ........ 111
ƏLAÇI ŞAGİRDİN SEVİNCİ: “BAXIN, MƏNİM GÜNDƏLİYİMƏ BAXIN!” ........ 111
KAŞ ƏMƏL NAMƏMİ VERMƏYƏYDİLƏR ........ 112
ƏMƏL NAMƏSİ NƏ ÜÇÜN ARXADAN VERİLİR? ........ 112
ƏMƏL NAMƏSİNİ GÖRƏN ZAMANDAKI ŞİDDƏTLİ NARAHATLIQ ........ 113
DƏRHAL VƏ YA MİN İL GÖZLƏMƏ ........ 113
ƏHLİ-BEYT (ƏLEYHUMUSSALAM) DOSTLARINA MÜJDƏ ........ 113
HƏZRƏT MÜHƏMMƏD (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİHİ VƏ SƏLLƏM) ŞİƏLƏRİN XALQA BORCUNU (MƏZALİMİNİ) ÖDƏYƏR ........ 114
ŞÜKÜR İLAHİYYƏ Kİ, HESABÇIMIZ KƏRİM ŞƏXSLƏRDİR ........ 114
MİZAN (ÖLÇÜ) ........ 115

MİZAN–TƏRƏZİ YA QAPAN DEYİL ....... 115
HAQQIN MİZANI ƏLİ (ƏLEYHİSSALAM)-DIR ....... 116
DÜZ YOLDA HANSI PİSLİK GÖRMÜŞÜK Kİ, ƏYRİ YOL GEDƏK?! ....... 116
RAHATLIQ İMANLI İNSANLARA MƏXSUSDUR ....... 117
DÜNYAPƏRƏSTLƏRİN QAZANCI, FAYDASI ŞÜBHƏLƏRİ ....... 117
HESABA GÖRƏ ADAMLAR DÖRD YERƏ AYRILIR ....... 118
BİR GÜNAH ÜÇÜN YÜZ İL ƏZAB ....... 118
TƏQVANIN YETƏRLİYİ İMANLI ÖLÜMDÜR ....... 119
ƏMƏLLƏRİN PUÇA ÇIXMASI ....... 119
HATƏMİ TAİ VƏ ƏNUŞİRƏVANLA OD ARASINDA PƏRDƏ ....... 120
İMANSIZ ÖLÜMƏ APARAN GÜNAHLAR ....... 120
KÜFRÜN KƏFFARƏSİ İMAN, GÜNAHIN KƏFFARƏSİ TÖVBƏDİR ....... 121
YAXŞILIQLAR PİSLİKLƏRİ SİLƏR ....... 121
QİYAMƏT SUALLARI ....... 122
QİYAMƏTİN SƏHƏRİ NEMƏTLƏRDƏN SUAL OLUNAR ....... 122
VİLAYƏT NEMƏTİ İLƏ NƏ ETDİNİZ? ....... 123
HAMIDAN DÖRD NEMƏT BARƏDƏ SORUŞULAR ....... 123
İBADƏTLƏRDƏN SUAL VERİLƏR ....... 124
GÜNAHLAR ÜÇ QİSMDİR ....... 124
XALQIN HAQQI (HƏQQÜN-NAS) ....... 124
BİR SAMAN ÇÖPÜNƏ GÖRƏ BİR İL MƏƏTTƏLÇİLİK (GÖZLƏMƏ) ....... 125
ZÜLMLƏ MƏNİMSƏMƏ DOLAYINDA MİN İL ....... 125
HÜQUQUN ALINMASI ....... 126
HEÇ BİR SİTƏMKAR CƏZASIZ BURAXILMAZ ....... 126
MÖMİNİN KAFİRDƏN, KAFİRİN MÖʾMİNDƏN QİSASI ....... 126
HAQQINA GÖRƏ ƏZABI YÜNGÜLLƏŞƏR ....... 127
HAQQINI ÖDƏMƏ QORXUSU ....... 127
QİYAMƏTDƏ ƏN MÜFLİS (YOXSUL) ŞƏXS ....... 127
ALLAHIN ÖZ FƏZLİ (RƏHMİ) İLƏ HESAB APARMASI ....... 128

DÖRDÜNCÜ FƏSİL: ....... 129

**BEHİŞT ....... 129**

KÖVSƏR HOVUZU ....... 129
BEHİŞT ŞƏRABI, SÜD VƏ BALDAN KÖVSƏR HOVUZU ....... 129

İMAM HÜSEYN (ƏLEYHİSSALAM) ƏZADARLARINA "KÖVSƏR" ŞAD OLAR....129
BEHİŞT NƏĞMƏSİ ....130
HƏZRƏT MÜHƏMMƏD (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİHİ VƏ SƏLLƏM) VƏ ONUN PAK AİLƏSİNİN ƏZƏMƏTİNİN ZÜHURU ....130
VƏSİLƏ MİNBƏRİ ....131
MƏHMUD (TƏ`RİF OLUNMUŞ) MƏQAM....131
BEHİŞT VƏ CƏHƏNNƏMİN BÖLÜNMƏSİ ƏLİDƏNDİR....132
SİRAT ....132
CƏHƏNNƏMİN MİN CİLOVU MİN MƏLƏK ƏLİNDƏ....133
QOHUMLUQ ƏLAQƏLƏRİ....133
SÖZƏ VƏ MALA XƏYANƏT....134
SİRATDAN KEÇMƏK ÜÇÜN ƏLİ (ƏLEYHİSSALAM) VİLAYƏTİNİN BƏRATI (QƏBZİ)....134
İKİNCİ DOLAMADA NAMAZ SORĞUSU ....134
UŞAQLARI NAMAZA SÖVQ EDİN ....135
UŞAĞIN "BİSMİLLAH" DEMƏSİ ATANIN ƏZABINI GÖTÜRƏR ....135
ÜÇÜNCÜ DOLAMA XUMS VƏ ZAKATDIR....136
İNSANIN YARDIMÇISI, ŞƏFİSİ ONA DÜŞMƏN OLAR....136
DÖRDÜNCÜ DOLAMADA ORUC SORĞUSU ....137
BEŞİNCİ DOLAMADA HƏCC SORĞUSU ....137
ALTINCI DOLAMA TƏHARƏTDİR....137
YEDDİNCİ DOLAMA ZÜLMDÜR....138
QIRX İL HƏBS VƏ QIRX İL TƏNƏ ....138
MARAQLI HEKAYƏT....139
ŞƏFAƏT....140
HƏTTA PEYĞƏMBƏRLƏR DƏ HƏZRƏT MÜHƏMMƏD (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİHİ VƏ SƏLLƏM)-İN ŞƏFAƏTİNƏ MÖHTACDIR ....141
BÖYÜK ŞƏFAƏT MÜHƏMMƏD VƏ ALİ-MÜHƏMMƏDİNDİR (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİHİ VƏ SƏLLƏM) ....141
HƏR YERDƏ ŞƏFAƏT OLUNAR ....142
TƏLƏBƏ HƏKİM OLUR....142
HİNDLİ ŞİƏ VƏ CÜZAM XƏSTƏLİYİ ....143
ON GÜN SONRA....143

HÜSEYN (ƏLEYHİSSALAM) SƏBƏBİNƏ İKİNCİ VƏ İKİQAT ÖMÜR ........ 144
ÜMİDİMİZ HƏZRƏT MÜHƏMMƏD (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİHİ VƏ SƏLLƏM)-İN ŞƏFAƏTİDİR ........ 144
ŞƏFAƏT ÜMİD VERMƏLİDİR, QÜRUR GƏTİRMƏLİ DEYİL ........ 145
ƏRAF ........ 145
BEHİŞT ƏHLİ İLƏ CƏHƏNNƏM ƏHLİ ARASINDA SƏDD ........ 146
BİRİNİN NURUNDAN BAŞQASINA FAYDA YOXDUR ........ 146
HƏMİN GÜN ÜÇÜN NUR FİKRİNDƏ OLAQ ........ 147
ƏRAF BEHİŞT VƏ CƏHƏNNƏM ARASINDA ........ 147
BÖYÜK VƏ HƏMİŞƏLİK NEMƏTLƏR ........ 147
DARÜS-SALAM HƏQİQİ BİR BEHİŞTDİR ........ 148
BEHİŞT YEMƏKLƏRİ VƏ SULARI ........ 148
QURANDA BEHİŞT ÇEŞMƏLƏRİNİN ADI ........ 149
BEHİŞT GEYİMLƏRİ ........ 149
BEHİŞT QƏSRLƏRİ ........ 149
BEHİŞT OTAQLARINDAN NÜMUNƏ ........ 150
BEHİŞT TAXTLARI, XALILARI, QABLARI ........ 150
HURİLƏR VƏ BEHİŞT QADINLARI ........ 151
HURİLƏR ÇİRKİNLİKLƏRDƏN UZAQDIRLAR ........ 152
XÜSUSİ HURİ KİMİN ÜÇÜNDÜR? ........ 152
BEHİŞT QADINLARI DAHA GÖZƏLDİRLƏR ........ 152
BEHİŞT QADINLARI ÖZ MEYLLƏRİ İLƏ İZDİVAC EDƏRLƏR ........ 153
BEHİŞT GÜLLƏRİ VƏ ƏTİRLƏRİ ........ 153
BEHİŞTDƏ İŞIQ ........ 154
BEHİŞT NƏĞMƏLƏRİ VƏ AVAZLARI ........ 154
DAVUD VƏ BEHİŞTDƏ OXUYAN HURİLƏR ........ 154
DÜNYADA QİNADAN (HARAM SƏDALARDAN) UZQLIQ ƏVƏZİNƏ ........ 155
RUHANİ NE”MƏTLƏR VƏ LƏZZƏTLƏR ........ 155
MƏLAİKƏLƏRİN TƏBRİKİ VƏ ALLAHIN MÜKALİMƏSİ ........ 156
HƏZRƏTİ MÜHƏMMƏD (SƏLLƏLLAHU ƏLEYHİ VƏ ALİHİ VƏ SƏLLƏM)-LƏ YAXINLIQ VƏ MÖMİNLƏRLƏ ƏLAQƏ ........ 156
HƏR GÜN BİR PEYĞƏMBƏR QONAQDIR ........ 157
MOİZƏ (NƏSİHƏT) ........ 157
NƏ ÜÇÜN BEHİŞT ÜÇÜN ÇALIŞMIRIQ? ........ 157
ƏLİ (ƏLEYHİSSALAM)-IN DİLİ İLƏ BEHİŞTİN VƏSFİ ........ 158

BEŞİNCİ FƏSİL ........ 159

**CƏHƏNNƏM ........................................................ 159**
CƏHƏNNƏM YEMƏKLƏRİ VƏ İÇKİLƏRİ ........................................ 159
CƏHƏNNƏMDƏ ACLIQ VƏ SUSUZLUQ ƏZABI ........................................ 159
ZƏQQUM GÜNAHKARLARIN ALOVLU YEMƏYİDİR ........................................ 160
ONLARIN ZAHİR VƏ BATİNLƏRİ ƏRİYƏR ........................................ 160
ĞİSLİN, ZƏRİ SƏDİD, ĞƏSSAQ ........................................ 161
CƏHƏNNƏM ƏHLİNİN LİBASI ........................................ 161
QARA ÇÖHRƏ-BOXOV VƏ ZƏNCİR ........................................ 162
CƏHƏNNƏM MÜVƏKKİLLƏRİ ........................................ 162
CƏHƏNNƏM QAPILARI ........................................ 163
CƏHƏNNƏM ODU ŞÜURLUDUR ........................................ 163
MÖİNİN NURU CƏHƏNNƏM ODUNU ƏSKİLDƏR ........................................ 163
CƏHƏNNƏM ƏHLİNİN YERİ DAR, TƏNGDİR ........................................ 164
RUHİ ƏZABLAR ........................................ 164
KAFİRİN BEHİŞTƏ DÜŞMƏSİ QEYRİ-MÜMKÜNDÜR ........................................ 165
MƏHRUMLUQ HİSSİ BÖYÜK ƏZABDIR ........................................ 165
CƏHƏNNƏMDƏ ÖLÜMSAÇAN HƏSRƏTLƏR ........................................ 165
CƏHƏNNƏMDƏ RUHİ DANLAQLAR, MƏZƏMMƏTLƏR ........................................ 166
ŞEYTANLARI TƏ"NƏSİ ........................................ 167
ŞEYTANLARLA ÜNSİYYƏT AĞIR ƏZABDIR ........................................ 168
BİR-BİRLƏRİNDƏN UZAQLIQ İSTƏYƏRLƏR ........................................ 168
CƏHƏNNƏM ƏHLİNİN BİR-BİRLƏRİ İLƏ PİS DANIŞIĞI ........................................ 169
ZƏİF BƏDƏN NECƏ TAB GƏTİRƏR? ........................................ 169
BƏDƏN DƏ NƏFS KİMİ BƏRK OLAR ........................................ 169
AXİRƏTDƏ MƏ"NA SURƏTƏ QALİBDİR ........................................ 170
ŞİDDƏTLİ ƏZAB ƏDALƏTLƏ UYĞUNDURMU? ........................................ 170
İNSANIN ÖZÜNƏ HAZIRLADIĞI ƏZAB ........................................ 171
KOR ÜÇÜN ZİNƏT VƏ KAR ÜÇÜN NƏĞMƏ ........................................ 171
RƏHMAN ALLAHIN ƏZABLA NƏ İŞİ! ........................................ 172
MƏCBURİ TÖVBƏ KARA GƏLMƏZ ........................................ 172
QISA ÖMÜR VƏ HƏMİŞƏLİK ƏZAB ........................................ 173
XEYİR VƏ ŞƏR NİYYƏTƏ GÖRƏ ƏBƏDİLİK ........................................ 173